Altıncı çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI VƏ STENOQRAMLARI

On dördüncü sessiya
Payız

57-ci cild

5 – 8 dekabr 2023-cü il

Milli Məclisin nəşri
Bakı – 2023

Milli Məclis Aparatının
Redaksiya və nəşr işləri şöbəsində
hazırlanmışdır

# ALTINCI ÇAĞIRIŞ
# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİNİN
# XIV SESSİYASI İCLASININ

# PROTOKOLU № 152

*Milli Məclisin iclas salonu.*
*5 dekabr 2023-cü il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 102 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 92 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşlar:**

**Əli Əsədov**, Azərbaycan Respublikasının Baş naziri.

**Yaqub Eyyubov**, Azərbaycan Respublikası Baş nazirinin birinci müavini.

**Şahin Mustafayev**, Azərbaycan Respublikası Baş nazirinin müavini.

**Əli Əhmədov**, Azərbaycan Respublikası Baş nazirinin müavini.

**Fikrət Məmmədov**, Azərbaycan Respublikasının ədliyyə naziri.

**Samir Şərifov**, Azərbaycan Respublikasının maliyyə naziri.

**Mikayıl Cabbarov,** Azərbaycan Respublikasının iqtisadiyyat naziri.

**Sahil Babayev**, Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri.

**Emin Əmrullayev**, Azərbaycan Respublikasının elm və təhsil naziri.

**Teymur Musayev**, Azərbaycan Respublikasının səhiyyə naziri.

**Rəşad Nəbiyev**, Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri.

**Fərid Qayıbov**, Azərbaycan Respublikasının gənclər və idman naziri.

**Muxtar Babayev**, Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri.

**Vüqar Mustafayev**, Azərbaycan Respublikasının müdafiə sənayesi naziri.

**Adil Kərimli**, Azərbaycan Respublikasının mədəniyyət naziri.

**Səbuhi Məmmədov**, Naxçıvan Muxtar Respublikasının Baş naziri.

**Şahin Bağırov**, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri.

**Bahar Muradova**, Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri.

**Fuad Muradov**, Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin sədri.

**Mübariz Qurbanlı**, Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri.

**Qoşqar Təhməzli**, Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sədri.

**Zaur Əliyev**, Azərbaycan Respublikası İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri.

**Taleh Kazımov**, Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin sədri.

**İsrafil Məmmədov**, Azərbaycan Respublikası Dövlət Neft Fondunun icraçı direktoru.

**İlhamə Qədimova**,Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini.

**Ragim Lətifov**, Azərbaycan Respublikası fövqəladə hallar nazirinin müavini.

**Yusif Yusifov**, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi sədrinin müavini.

**Namiq Hümmətov**, Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin birinci müavini.

**Nigar Bayramova**, Azərbaycan Respublikası İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədr müavini.

**Himalay Məmişov**, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun İdarə Heyətinin sədri.

**Mustafa Abbasbəyli**, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədri.

**Vüqar Gülməmmədov**, Azərbaycan Respublikası Hesablama Palatasının sədri.

**Samir Seyidəhmədli**, Azərbaycan Respublikası Prezidentinin Naxçıvan Muxtar Respublikasında səlahiyyətli nümayəndəsinin müavini.

**Bəxtiyar Əsgərov**, Naxçıvan Muxtar Respublikasının Bakı şəhərində Daimi nümayəndəliyinin rəhbəri.

**Rüfət Məmmədov**, Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının rəhbəri.

**Ələsgər Ələsgərov**, Azərbaycan Respublikası Baş nazirinin Katibliyinin rəisi.

**Azər Əmiraslanov**, Azərbaycan Respublikası Nazirlər Kabinetinin İqtisadiyyat şöbəsinin müdiri.

**Fəxri İsmayılov**, Azərbaycan Respublikası Baş nazirinin köməkçisi.

**İbrahim Məmmədov**, Azərbaycan Respublikası Nazirlər Kabinetinin Mətbuat xidmətinin rəhbəri.

**Elman Rüstəmov**, Azərbaycan Respublikası Baş nazirinin müşaviri.

**Fazil Fərəcov**, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin şöbə müdiri.

**Sadiq Əliyev**, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin şöbə müdiri.

**Elçin Əliyev**, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Hüquq İdarəsinin rəisi.

**Anar Əliyev**, Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini.

**Elnur Abbasov**, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Sosial sığorta və pensiya siyasəti şöbəsinin müdiri.

**Fazil Talıbov,** Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri.

## İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:

1. Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

2. Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

3. İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haq-

qında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

4. Azərbaycan Respublikasında 2024-cü il üçün yaşayış minimumu haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

5. Azərbaycan Respublikasında 2024-cü il üçün ehtiyac meyarının həddi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

6. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

7. Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

8. "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

9. "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

10. "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

11. "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

12. "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

13. Azərbaycan Respublikası Milli Məclisinin 2024-cü il üçün xərclər smetası haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarının layihəsi.

14. Azərbaycan Respublikası Hesablama Palatasının 2024-cü il üçün xərclər smetası haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarının layihəsi.

15. “18 iyun 1997-ci il tarixli Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında Azərbaycan Respublikası və Özbəkistan Respublikası vətəndaşlarının vizasız gediş-gəlişi haqqında Sazişə əlavə və dəyişikliklərin edilməsi barədə Protokol”un təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.

16. Azərbaycan Respublikasının Ağdərə rayonunun yaradılması haqqında Azərbaycan Respublikası qanununun layihəsi.

17. Azərbaycan Respublikasının Ağdam, Cəbrayıl, Füzuli, Xocalı, Xocavənd, Qubadlı, Laçın və Şuşa rayonlarının inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.

18. “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.

19. Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

20. “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

21. “Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında” Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 987-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

22. “Hərbi qulluqçuların statusu haqqında”, “Hərbi xidmətkeçmə haqqında" Əsasnamə”nin təsdiq edilməsi barədə, “Əmək pensiyaları haqqında” və “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Gündəlik qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.07 dəq.) |
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**1. Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili, Əli Əsədov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.18 dəq.) |
| Lehinə | 98 |
| Əleyhinə | 1 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**2. Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev, Tahir Mirkişili

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.23 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 2 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**3. İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.23 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |

| | |
|---|---|
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

**4. Azərbaycan Respublikasında 2024-cü il üçün yaşayış minimumu haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili, Musa Quliyev

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.25 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 2 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

**5. Azərbaycan Respublikasında 2024-cü il üçün ehtiyac meyarının həddi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev, Tahir Mirkişili

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.26 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 1 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

**6. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.29 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**7. Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli, Tahir Mirkişili

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.31 dəq.) |
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**8. “Nağdsız hesablaşmalar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə**

**Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.31 dəq.) |
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**9. "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.32 dəq.) |
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**10. "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 11.33 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

**11. "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 11.34 dəq.) |
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

**12. "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.35 dəq.) |
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**13. Azərbaycan Respublikası Milli Məclisinin 2024-cü il üçün xərclər smetası haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarının layihəsi.**

**Çıxış etmişdir:** Əli Hüseynli

**Təklif:** Qərar qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.09 dəq.) |
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 86 |

Nəticə: Qəbul edildi

**14. Azərbaycan Respublikası Hesablama Palatasının 2024-cü il üçün xərclər smetası haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarının layihəsi.**

**Çıxış etmişdir:** Əli Hüseynli

**Təklif:** Qərar qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.10 dəq.) |
| Lehinə | 92 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**15. "18 iyun 1997-ci il tarixli Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında Azərbaycan Respublikası və Özbəkistan Respublikası vətəndaşlarının vizasız gediş-gəlişi haqqında Sazişə əlavə və dəyişikliklərin edilməsi barədə Protokol"un təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Elman Nəsirov, Aydın Mirzəzadə

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.14 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**16. Azərbaycan Respublikasının Ağdərə rayonunun yaradılması haqqında Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Siyavuş Novruzov, Qüdrət Həsənquliyev, Zahid Oruc, Vüqar Bayramov, Nigar Arpadarai, Fəzail Ağamalı, Elnur Allahverdiyev, Fazil Mustafa, Aqil Abbas

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.54 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**17. Azərbaycan Respublikasının Ağdam, Cəbrayıl, Füzuli, Xocalı, Xocavənd, Qubadlı, Laçın və Şuşa rayonlarının inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.55 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**18. "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əhliman Əmiraslanov, Rüfət Quliyev

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.01 dəq.) |
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**19. Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nizami Səfərov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.02 dəq.) |
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**20. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Ziyafət Əsgərov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.03 dəq.) |
| Lehinə | 88 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

**21. “Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında” Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 987-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli, Əli Məsimli, Bəxtiyar Əliyev

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.05 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

**22. “Hərbi qulluqçuların statusu haqqında”, “Hərbi xidmətkeçmə haqqında” Əsasnamə”nin təsdiq edilməsi barədə, “Əmək pensiyaları haqqında” və “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Arzu Nağıyev, Musa Quliyev, Razi Nurullayev, Fazil Mustafa, Qüdrət Həsən-

quliyev, Vüqar Bayramov, Siyavuş Novruzov, Zahid Oruc, Etibar Əliyev, Rəşad Mahmudov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 14.01 dəq.) |
| Lehinə | 91 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*5 dekabr 2023-cü il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik edir*

**Sədrlik edən.** Hörmətli cənab Baş nazir, hörmətli hökumət üzvləri, hörmətli deputatlar, hörmətli media nümayəndələri. Hamınızı xoş gördük.

Hörmətli deputatlar, xahiş edirəm, qeydiyyatdan keçək. Buyurun.

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 92 |
| Yetərsay | 83 |

Çox sağ olun, yetərsay var, iclasa başlaya bilərik.

Hörmətli həmkarlar, gündəliyə keçməzdən əvvəl sizə Milli Məclis sədrinin rəhbərliyi ilə nümayəndə heyətinin noyabrın 29-30-da Almaniya Federativ Respublikasına və noyabrın 30-dan dekabrın 2-dək Çex Respublikasına rəsmi səfərləri barədə qısa məlumat vermək istəyirəm.

Öncə qeyd edim ki, Almaniya səfəri çərçivəsində nü-

mayəndə heyətinin iştirak etdiyi ilk tədbir Berlin Qalereyasında "Ümummilli Lider Heydər Əliyev və Azərbaycanın mədəni irsi" adlı fotosərgi ilə tanışlıq oldu.

Həmçinin nümayəndə heyətimiz Almaniyada fəaliyyət göstərən Azərbaycan Mədəniyyəti Mərkəzində oldu və rəsmi səfərlə bağlı mərkəzdə təşkil olunan qəbulda iştirak etdi. Qısa olaraq deyim ki, qəbulda etdiyim çıxışda mən xalqımızın çoxəsrlik dövlətçilik tarixi, Azərbaycanın müxtəlif sahələrdə qazandığı nailiyyətlər barədə məlumat verdim. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müəyyən etdiyi strateji baxışın əsas elementləri sırasında beynəlxalq hüquq normalarına və prinsiplərinə hörməti, dialoqu, həmrəyliyi və qarşılıqlı etimada əsaslanan əməkdaşlığın təşviqini qeyd etdim.

Hörmətli həmkarlar, səfər zamanı Almaniya Bundestaqının sədri xanım Barbel Bas ilə, Bundestaqın Almaniya-Cənubi Qafqaz parlament qrupunun rəhbəri cənab Johann David Vadephul ilə, dostluq qrupunun və Azərbaycan-Almaniya Forumunun üzvləri ilə görüşlər keçirildi.

Hörmətli həmkarlar, Çex Respublikasına rəsmi səfər çərçivəsində parlamentin Deputatlar Palatasının sədri xanım Marketa Pekarova Adamova, Senatın sədri cənab Miloş Vıstrçil, xarici işlər naziri cənab Yan Lipavski, habelə Çexiya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri cənab Yan Kubik və qrupun üzvləri ilə görüşlərimiz oldu.

Hörmətli həmkarlar, hər iki ölkədə aparılan söhbətlərdə ikitərəfli və çoxtərəfli münasibətlərə mühüm təsir göstərən amillərdən biri kimi parlamentlərin qarşılıqlı fəaliyyətinin önəmi qeyd edildi. Bildirildi ki, qanunvericilik orqanları arasında əməkdaşlıq digər məsələlərlə yanaşı, iki ölkənin ictimaiyyətinə obyektiv informasiyanın çatdırılmasına,

həqiqətdən uzaq məlumatların yayılmasının qarşısının alınmasına xidmət edir.

Hörmətli həmkarlar, onu da deyim ki, həm Almaniya Federativ Respublikasına, həm də Çex Respublikasına rəsmi səfərlər zamanı keçirilən bütün görüşlərdə həmsöhbətlərimizə Cənubi Qafqaz bölgəsində mövcud olan vəziyyət barədə ətraflı məlumat verildi. Ermənistanın siyasi və hərbi təxribatları, bu ölkənin son 3 ildə üzərinə götürdüyü öhdəliklərə əməl etməməsi, Azərbaycanın Qarabağ bölgəsində antiterror tədbirlərinin keçirilməsi və bu tədbirlərin nəticələri diqqətə çatdırıldı.

Görüşlər zamanı qeyd etdim ki, bu tədbirlər beynəlxalq hüquq normalarına tam uyğun olub, mülki şəxslər arasında itki olmayıb. Ermənistanın mina təhdidlərinin Azərbaycanın işğaldan azad olunmuş ərazilərində həyata keçirilən yenidənqurma və bərpa işlərinə törətdiyi maneələr də vurğulandı.

Beynəlxalq münasibətlər sistemində mövcud olan ikili standartlar ilə əlaqədar bildirdim ki, bəzi dövlətlər barəsində qəbul edilən qərarlar dərhal icra olunduğu halda, müəyyən hallarda beynəlxalq hüquqa məhəl qoyulmadığı müşahidə edilir. Bu xüsusda Azərbaycan misal gətirildi. Xatırlatdım ki, Azərbaycan 30 ilə yaxın Ermənistanın işğalından əziyyət çəkib. BMT-nin Təhlükəsizlik Şurası başda olmaqla, demək olar ki, bütün beynəlxalq təşkilatlar işğal faktının aradan qaldırılması ilə bağlı müxtəlif qərar və qətnamələr qəbul etsələr də, bu sənədlər kağız üzərində qalıb. Üç il əvvəl isə Azərbaycan öz gücü hesabına bu qərarların icrasını təmin edərək, torpaqlarını işğaldan azad edib.

Qeyd etdim ki, Fransa başda olmaqla bəzi ölkələrin və onların parlamentlərinin regiondakı reallıqları təhrif edən, tamamilə qeyri-adekvat və qəbuledilməz bəyanatları uzun-

müddətli və möhkəm sülh yaradılması səylərinə xələl gətirir.

Sülh sazişinin imzalanması, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesində aparılan vasitəçiliyin ədalətli olmasının zəruriliyi vurğulandı. Nəzərə çatdırdım ki, dövlətimiz regionda daimi sülhün təmin olunmasını istəyir və bu gün Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanmasına heç bir maneə yoxdur.

Hörmətli həmkarlar, aparılan söhbətlərdə həmçinin Azərbaycanın əlverişli investisiya mühiti, müasir nəqliyyat infrastrukturu və tranzit ölkə kimi mühüm rolu, bərpa olunan enerji sahəsində gördüyü işlər diqqətə çatdırıldı.

Hörmətli həmkarlar, hesab edirəm ki, Almaniya Federativ Respublikasına və Çex Respublikasına rəsmi səfərlər uğurlu keçdi. Bununla əlaqədar Milli Məclisin nümayəndə heyətinə öz minnətdarlığımı bildirirəm.

İndi isə, hörmətli həmkarlar, xahiş edirəm, gündəliyin qəbul olunmasına münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.07 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, gündəlik qəbul edildi.

Hörmətli həmkarlar, bildiyiniz kimi, bizim gündəliyimizdə 22 məsələ var. Bu məsələlərin 12-si dövlət büdcəsi və büdcə zərfinə daxil olan digər qanun layihələridir. Onu da qeyd edim ki, bu qanun layihələrinə üçüncü oxunuşda baxılacaq. Beləliklə, biz gündəliyin 1-ci məsələsinin mü-

zakirəsinə başlayırıq. Bu məsələ Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında qanun layihəsidir. Məsələyə dair məlumat vermək üçün mən İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri hörmətli Tahir Mirkişiliyə söz verirəm. Tahir müəllim, buyurun, söz Sizindir.

**T.Mirkişili,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir, hörmətli millət vəkilləri və hökumət üzvləri. Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsini üçüncü oxunuş üçün təqdim edirəm.

2024-cü ilin dövlət büdcəsi layihəsi artıq 1 aydan çoxdur ki, Milli Məclisin komitələrində və plenar iclasda geniş və ətraflı müzakirə edilmişdir. Maliyyə və İqtisadiyyat nazirlikləri, Mərkəzi Bankın, Hesablama Palatasının və digər dövlət orqanlarının rəhbərləri və nümayəndələri layihə barədə həm komitə iclaslarında, həm də plenar iclasda ətraflı məlumatlar vermiş və müzakirələrdə fəal iştirak etmişlər.

Büdcə müzakirələri dövlət başçısının tövsiyələrinə və Milli Məclis rəhbərliyinin yaratdığı müzakirə mühitinə uyğun olaraq bu il daha da ətraflı və geniş formada təşkil edilmiş, deputatlara komitələrdə və plenar iclaslarda müzakirələrə qatılmaq imkanı yaradılmış, bütün iclaslarda ümumi olaraq deputatlar tərəfindən 130 dəfədən çox çıxış edilmiş, onları maraqlandıran suallara dövlət orqanları, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq və digər komitələrinin rəhbərləri tərəfindən müvafiq izahatlar verilmişdir. Ümumiyyətlə, hesab edirik ki, 2024-cü il dövlət büdcəsi layihəsinin həm komitə, həm də plenar iclaslar

zamanı geniş və peşəkar müzakirələrində Nazirlər Kabinetinin, hökumət üzvlərinin, dövlət orqanlarının nümayəndələrinin də fəal iştirak etmələri Milli Məclis və hökumət arasında olan səmərəli əməkdaşlığın mühüm göstəricilərindən biridir. Bu müzakirənin nəticəsi olaraq 2024-cü il dövlət büdcəsi layihəsi Milli Məclisin plenar iclasında birinci və ikinci oxunuşlarda deputatlar tərəfindən dəstəklənmişdir.

Dövlət başçısı cənab İlham Əliyev tərəfindən aparılan islahatlar, atılan qətiyyətli və çevik addımlar, yaradılan əlverişli geosiyasi və geoiqtisadi şərait nəticəsində Azərbaycan iqtisadiyyatının 2024-cü ildə inkişaf etdirilməsi üçün makroiqtisadi sabitliyin, zəruri təhlükəsizlik və sosial şəraitin qorunub saxlanması və dəstəklənməsi ilə bağlı planlaşdırılan tədbirlər üçün dövlət büdcəsində nəzərdə tutulan maliyyə vəsaitləri deputat həmkarlarım tərəfindən müsbət qiymətləndirilmişdir.

2024-cü ilin dövlət büdcəsi və icmal büdcə layihələri "Büdcə sistemi haqqında" Qanunun tələblərinə uyğun hazırlanmış, ictimai müzakirələr üçün açıq dərc edilmiş, kütləvi informasiya vasitələrində çıxış edən deputat həmkarlarım, ekspertlər 2024-cü ilin dövlət büdcəsi layihəsini növbəti il üçün ölkəmiz qarşısında duran çağırışlara, dövlətimizin təhlükəsizliyinə cavab verən, əhalinin sosial müdafiəsinin gücləndirilməsinə xidmət edən bir layihə kimi qiymətləndirmişlər.

İşğaldan azad olunan ərazilərimizin iqtisadiyyatımıza sürətlə inteqrasiyası, müdafiə və təhlükəsizliyimiz üçün büdcədə nəzərdə tutulan imkanların artırılması xüsusi olaraq yüksək qiymətləndirilmişdir. Azərbaycan Respublikasının Hesablama Palatası büdcə layihəsinə müsbət rəy vermişdir.

Hörmətli həmkarlar, 2024-cü il dövlət büdcəsi layihəsinin Milli Məclisin plenar iclasında ikinci oxunuşda qəbul edilmiş layihəsinə bir sıra dəyişikliklər olunmuş və sizə üçüncü oxunuşda qəbul edilmək üçün təqdim olunmuş layihədə bu dəyişikliklər öz əksini tapmışdır. Bildirmək istərdim ki, növbəti ilin dövlət büdcəsinə dair qanun layihəsi Milli Məclisdə müzakirə olunduğu ərəfədə dövlət büdcəsindən maliyyələşən bəzi təşkilatların əsasnamələrinin təsdiqi, bəzi təşkilatların strukturlarında müvafiq dəyişikliklərin edilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidenti tərəfindən müvafiq fərmanlar imzalanmış və tapşırıqlar verilmişdir. Eyni zamanda, müzakirələrdə Milli Məclis deputatları bir sıra təkliflərlə çıxış etmişlər. Onların da icrası ilə bağlı 2024-cü il dövlət büdcəsi xərcləri çərçivəsində və buna müvafiq olaraq, qanun layihəsində bəzi dəyişikliklərin edilməsi məqsədəuyğun hesab olunmuşdur. Layihədə təklif edilən dəyişikliklər İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında müzakirə olunaraq qəbul edilmək üçün plenar iclasın üçüncü oxunuşuna tövsiyə edilmişdir. Eyni zamanda, dəyişikliklərin əks olunduğu layihə bütün deputatlara da paylanmışdır.

Ediləcək dəyişikliklər büdcə qaydasının tələblərinə uyğundur və icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ümumi daxili məhsulun xüsusi çəkisinin hədəflənən yuxarı həddinin göstəricisini keçməyəcəkdir. Beləliklə, layihədə təklif olunan dəyişikliklər aşağıdakılardan ibarətdir:

Yeni Ağdərə rayonunun təsis edilməsi ilə bağlı qanun layihəsinin 9-cu maddəsinə həmin rayonun adı əlavə edilir. Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində yeni yaradılmış "Su və Meliorasiya Elmi Tədqiqat İnstitutu" publik hüquqi şəxsinin fəaliyyəti üçün dövlət sifarişi əsasında tələb olunan 7,3 milyon manat vəsait agentliyin

əsas fəaliyyəti üçün "Kənd təsərrüfatı" xərc bölməsində nəzərdə tutulmuş vəsaitdən 7,3 milyon manat azaldılaraq həmin tədbirin maliyyə təminatına yönəldilir. Bu hesabla "Elm xərcləri" 7,3 milyon manat artır.

2023-cü ildə minimum əməkhaqqının artımı ilə bağlı əlavə olaraq Bakı şəhərinin yerli xərcləri 2,3 milyon manat, Laçın rayonunun yerli xərcləri isə 100 min manat artırılır. Yuxarıda təklif olunan dəyişikliklər nəzərə alındığı təqdirdə, 2024-cü il dövlət büdcəsi haqqında qanun layihəsinin 7.1-ci maddəsində "Ümumi dövlət xidmətləri" bölməsi üzrə 4 milyard 814 milyon 934 min 382 manat rəqəmi 4 milyard 882 milyon 234 min 382 manat rəqəmi ilə, 7.8-ci maddəsində "Mənzil və kommunal təsərrüfatı" bölməsi üzrə 364 milyon 783 min 119 manat rəqəmi 367 milyon 83 min 119 manat rəqəmi ilə, 7.9-cu maddəsində "Kənd təsərrüfatı" bölməsi üzrə 1 milyard 109 milyon 893 min 587 manat rəqəmi 1 milyard 102 milyon 593 min 587 manat rəqəmi ilə, 7.10-cu maddəsində "Ətraf mühitin mühafizəsi" bölməsi üzrə 376 milyon 822 min 901 manat rəqəmi 376 milyon 872 min 901 manat rəqəmi ilə və 7.12-ci maddəsində "Əsas bölmələrə aid edilməyən xərclər" bölməsi üzrə 1 milyard 392 milyon 674 min 201 manat rəqəmi isə 1 milyard 390 milyon 324 min 201 manat rəqəmi ilə əvəz edilir.

Bununla yanaşı, təqdim olunmuş büdcə zərfində inzibati təsnifata uyğun olaraq, aşağıdakı dəyişikliklərin də edilməsi zərurəti yaranmışdır:

Elm və Təhsil Nazirliyinin strukturunda aparılmış dəyişikliyə uyğun olaraq, onun yanında yeni yaradılmış Elm və Ali Təhsil və Məktəbəqədər və Ümumi Təhsil üzrə dövlət agentliklərinin maliyyə təminatı üçün müvafiq olaraq tələb olunan 1,9 milyon manat və 17,2 milyon manat

vəsait yönəldilir. Həmin xərclərin, əsasən, Elm və Təhsil Nazirliyinin aparatının saxlanılması xərclərinin 15 milyon manat azaldılması və əvvəlcədən bu məqsəd üçün büdcədə bloklanmış 13,8 milyon manat ehtiyatın vəsait hesabına tənzimlənməsi nəzərdə tutulur.

Təsdiq edilmiş əsasnaməyə müvafiq olaraq Dövlət Su Ehtiyatları Agentliyinin və agentliyin yanında Suların İstifadəsinə və Mühafizəsinə Dövlət Nəzarəti Xidməti aparatının saxlanılması üçün müvafiq olaraq tələb edilən 5,9 və 3,6 milyon manat vəsait bu məqsəd üçün əvvəlcədən büdcədə bloklanmış ehtiyat vəsait hesabına tənzimlənir.

Azərbaycan Respublikası Milli Məclisinin 2024-cü il üçün xərcləri 252,5 min manat artırılır. Bu xərclər, əsasən, ölkədaxili ezamiyyələr, xarici ölkələrin nümayəndə heyətlərinin və rəsmi şəxslərinin qəbulu və digər xərclərə yönəldiləcəkdir. Həmin xərclər də dövlət büdcəsinin müvafiq ehtiyatları hesabına təmin olunacaqdır.

Beləliklə, yuxarıda qeyd olunan dəyişiklikləri nəzərə alaraq, 2024-cü ilin dövlət və icmal büdcələrinin ümumi göstəriciləri dəyişdirilmədən müzakirədə olan layihədəki səviyyədə, yəni dövlət büdcəsinin gəliri 34 milyard 173 milyon manat, xərcləri 36 milyard 763 milyon manat, kəsiri 2 milyard 590 milyon manat, müvafiq olaraq, icmal büdcənin gəlirləri 38 milyard 998 milyon manat, xərcləri 42 milyard 376 milyon manat, kəsiri isə 3 milyard 379 milyon manat məbləğində saxlanılır.

Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir. Müzakirələr zamanı millət vəkilləri tərəfindən irəli sürülən təkliflər, bütövlükdə ölkə iqtisadiyyatının ayrı-ayrı istiqamətlərinin, qeyri-neft sektorunun sürətli inkişafı, özəl investiyaların cəlb edilməsi üçün yeni mexanizmlərin yaradılması, regionların, sahibkarlığın inkişafı imkanlarından da-

ha çox istifadə edilməsi hesabına gələcəkdə dövlət büdcəsi gəlirlərinin artmasına yönəldilmişdir.

Deputat həmkarlarım seçildikləri dairələrdən daxil olan seçici müraciətləri əsasında bir sıra mövcud problemlərin həlli üçün də təkliflərlə çıxış etmişlər. Təcrübə göstərir ki, bu müraciətlərin əksəriyyəti müəyyən zaman çərçivəsində öz həllərini tapır və Nazirlər Kabinetinin illik hesabatında bu barədə ayrıca məlumatlar da verilir.

Hörmətli həmkarlar, yekun olaraq aparılan müzakirələrin nəticəsi kimi Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi büdcə zərfinə daxil olan qanun layihələri ilə bağlı müzakirələri əhatəli və məhsuldar hesab edir. Hesab edirik ki, üçüncü oxunuşda müzakirə etdiyimiz bu layihələrin qəbul olunması Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin rəhbərliyi altında son 20 ildə qazandığımız nailiyyətləri növbəti ildə də davam etdirməklə ölkəmizin müdafiə qabiliyyətinin gücləndirilməsi, işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdışı təmin edəcək sürətli bərpa və yenidənqurma işlərinin davam etdirilməsi, iqtisadi inkişafının stimullaşdırılması, əhalinin sosial müdafiəsinin təmin edilməsi və dövlətin digər əsas vəzifə və funksiyalarının həyata keçirilməsi üçün lazımi maliyyə təminatı yaradacaqdır. Bütün bunları nəzərə alaraq, 2024-cü ilin dövlət büdcəsi layihəsini Milli Məclisin plenar iclasında üçüncü oxunuşda da qəbul etmək üçün məqbul hesab edirik. Deputat həmkarlarımdan da bu layihəni bir daha dəstəkləmələrini xahiş edirəm. Diqqətiniz üçün minnətdaram.

**Sədrlik edən.** Tahir müəllim, ətraflı məlumata görə çox sağ olun. Hörmətli həmkarlar, qeyd edim ki, birinci və ikinci oxunuşlar zamanı, – söhbət plenar iclasdan gedir, – Tahir müəllim komitələr haqqında məlumat verdi, mən

plenar iclas haqqında məlumat vermək istəyirəm. Beləliklə, 73 deputat dövlət büdcəsi haqqında fikirlərini bildirmişdir. Deputatların bütün çıxışları, o cümlədən yazılı təqdim etdikləri 22 çıxış aidiyyəti üzrə Nazirlər Kabinetinə və Maliyyə Nazirliyinə göndərilmişdir.

Hörmətli həmkarlar, biz Tahir müəllimi dinlədik. Mən də ümumi bir məlumat verdim. Üçüncü oxunuşun qaydalarına uyğun olaraq, mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.18 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, biz büdcə zərfinə daxil olan digər layihələrə keçirik. Qeyd edim ki, gündəliyin 2-ci məsələsi Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi haqqında, gündəliyin 3-cü məsələsi isə İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında qanun layihələridir.

Hörmətli həmkarlar, hər iki qanun layihəsi sosial müdafiə sahəsi ilə bağlıdır və ötən iclaslarda da birgə müzakirə olunmuşdur. Odur ki, mən yenə də təklif edirəm ki, Əmək və sosial siyasət komitəsinin sədri hörmətli Musa Quliyev qanun layihələrinə dair ümumi bir məlumat versin. Musa müəllim, buyurun.

**M.Quliyev,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir, hörmətli hökumət üzvləri, hörmətli millət vəkilləri. Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi gəlirləri və xərcləri bərabər olmaqla 6 milyard 919,9 milyon manat proqnozlaşdırılır ki, bu da cari ilin büdcəsinə nisbətən 651,9 milyon manat və yaxud 10,4 faiz çoxdur.

İşsizlikdən sığorta fondunun 2024-cü ildə gəlirləri və xərcləri bərabər olmaqla 238 milyon manat nəzərdə tutulur ki, bu da cari ildəkindən 20,3 milyon manat və yaxud 9,3 faiz çoxdur.

Birinci və ikinci oxunuşlar zamanı müzakirələrdə çıxış edən deputat həmkarlarımız hörmətli Siyavuş Novruzov, Azay Quliyev, Vüqar Bayramov, Rüfət Quliyev, Etibar Əliyev, Elşən Musayev və Soltan Məmmədov büdcə layihəsini dəstəklədiklərini bildirməklə yanaşı, bir sıra ümumi xarakterli problemlər qaldırmış və suallar ünvanlamışdılar. Qaldırılan məsələlər, əsasən, Dövlət Sosial Müdafiə Fondunun dayanıqlılığı, qalıq vəsaitlərin yerləşdirilməsi, özünüməşğulluq proqramlarının effektivliyinin qiymətləndirilməsi, idarəetmə və inzibati xərclərin azaldılması, statistik məlumatların əlçatan olması, median pensiya, pensiyaçıların yaş qrupları, pensiyada olma müddəti barədə məlumatların verilməsi, Dövlət Sosial Müdafiə Fondunun  büdcəsinin icrasının hesabatlılığının təmin edilməsi, əlilliklə, çoxuşaqlı ailələrə müavinət təyin edilməsi şərtlərinin yumşaldılması, işləməyən veteranların müavinətlərinin artırılması, vakant iş yerlərində əməkhaqqının aşağı olması kimi suallara aydınlıq gətirilməsini istəmişdilər.

Hörmətli xanım sədr, Sizin tapşırığınıza əsasən çıxış

edən bütün deputat həmkarlarımız komitə iclasına dəvət olunmuş və 1 nəfər istisna olmaqla, digərləri dəvətimizi qəbul edib genişləndirilmiş komitə iclasına gəlmişdilər. Komitə iclasında əmək və əhalinin sosial müdafiəsi naziri cənab Sahil Babayevin, Dövlət Sosial Müdafiə Fondunun sədri Himalay Məmişovun, Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədri Mustafa Abasbəylinin, Hesablama Palatasının auditi Vəfa Mütəllibovanın iştirakı ilə çox geniş, 2 saat yarımdan artıq davam edən ətraflı və məhsuldar müzakirələr aparılmış, qaldırılan bütün suallara cavab verilmişdir.

Hər iki qanun layihəsi deputatlarımız tərəfindən komitə iclasında da dəstəklənmiş və üçüncü oxunuşa tövsiyə olunmuşdur. Qanun layihələrinin mətnində dəyişiklik edilməmişdir, birinci və ikinci oxunuşlarda qanun layihələrini dəstəkləyən deputat həmkarlarımıza komitəmizin minnətdarlığını bildirir və üçüncü oxunuşda layihələri səsə qoymağınızı xahiş edirik. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Musa müəllim. Siz də çox ətraflı məlumat verdiniz. Kim Sizin iclasa gəlməyibsə, bir də çağırmayın.

Hörmətli həmkarlar, qanun layihəsinə ikinci komitədə də baxılıb. Tahir müəllim, sizin komitənizdə də baxılıb. Xahiş edirəm, rəyinizi, komitənin rəyini bildirin. Buyurun.

**T.Mirkişili.** Hörmətli xanım sədr, Musa müəllim ətraflı məlumat verdi. Bizim komitənin də bu layihələr üzrə rəyi məqbuldur. Səsə qoymağınızı xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, mən qanun layihələrini bir-bir səsə qoyacağam. İndi isə xahiş edirəm, Dövlət Sosial Müdafiə Fondunun 2024-cü il büdcəsi haqqında qanun layihəsinə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.23 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 2 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

İndi isə, hörmətli həmkarlar, xahiş edirəm, İşsizlikdən sığorta fondunun 2024-cü il büdcəsi haqqında qanun layihəsinə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.23 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, indi isə 4-cü məsələyə keçirik. Bu məsələ Azərbaycan Respublikasında 2024-cü il üçün yaşayış minimumu haqqında qanun layihəsidir. Qanun layihəsinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Tahir müəllim, mən yenə də Sizə söz verirəm. Buyurun.

**T.Mirkişili**. Çox sağ olun, xanım sədr. Hörmətli həmkarlar, bildiyiniz kimi, qanun layihəsi yaşayış minimumunun ölkə üzrə 246 manatdan 270 manata artırılmasını və

digər kateqoriyalar üzrə müvafiq artırmaları nəzərdə tutur. Komitənin rəyi müsbətdir. Həmkarlarımdan qanun layihəsinə səs vermələrini xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim. Musa müəllim, sizin komitənizdə də baxılıb, xahiş edirəm, komitənin rəyini bildirin. Buyurun.

**M.Quliyev**. Çox sağ olun, hörmətli xanım sədr. Komitənin rəyi müsbətdir, xahiş edirəm, səsə qoyasınız.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, indi isə xahiş edirəm, bu qanun layihəsinə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.25 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 2 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Növbəti məsələ 5-ci məsələdir. Azərbaycan Respublikasında 2024-cü il üçün ehtiyac meyarının həddi haqqında qanun layihəsidir. Musa müəllim, yenə də sizin komitənizdə baxılıb, xahiş edirəm, məlumat verin. Buyurun.

**M.Quliyev**. Çox sağ olun, hörmətli xanım sədr. Ehtiyac meyarının həddi barədə qanun layihəsi iki oxunuşda müzakirə edilmiş, deputat həmkarlarımız tərəfindən qəbul edilmiş və müsbət səs verilmişdir. Bir daha xatırlatmaq istəyirəm ki, 2024-cü ildə ehtiyac meyarı 246 manatdan 270 manata qaldırılır və yaxud 21,8 faiz artırılır. Bu da

imkan verəcəkdir ki, ünvanlı sosial yardım alan vətəndaşlarımız daha çox sosial müdafiə ilə təmin olunsunlar. Onu da söyləyim ki, artıq ikinci ildir, dövlət büdcəsində ehtiyac meyarı ilə yaşayış minimumu bərabərləşdirilir və gələn il də biz bunun şahidi olacağıq. Üçüncü oxunuşda bu məsələni də səsə qoymağınızı və millət vəkillərindən dəstəkləmələrini xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Tahir müəllim, sizin komitəniz ikinci komitə idi. Buyurun, komitənin rəyini bildirin.

**T.Mirkişili**. Hörmətli xanım sədr, bizim komitənin də rəyi müsbətdir. Həmkarlarımdan dəstəkləmələrini xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim. Hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.26 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 1 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Növbəti məsələ 6-cı məsələdir. Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Tahir müəllim, sizin komitənizdə baxılıb, xahiş edirəm, məlumat verin.

**T.Mirkişili**. Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli həmkarlar, bildiyiniz kimi, böyük sayda olan bu dəyişiklikləri biz həm birinci, həm də ikinci oxunuşlarda

kifayət qədər geniş müzakirə etmişik və məlumat da vermişik. Amma ikinci oxunuşdan sonra bizim qəbul etdiyimiz, bu gün müzakirəyə çıxarılmış layihəyə əlavələr və dəyişikliklər edilmişdir. Bu barədə qısa məlumat vermək istəyərdim. Xatırladım ki, edilən bütün dəyişikliklərin tək məqsədi sahibkarlıq mühitinin daha da inkişaf etdirilməsi, istehsalı dəstəkləmək və sahibkarların bu istiqamətdə daha çox güzəşt əldə etməsinə imkan yaratmaqdır.

Belə ki, təklif edilən dəyişikliklərin bir neçəsi aşağıdakılardan ibarətdir. Bildiyiniz kimi, mövcud qanunvericiliyə görə, vergilər, faizlər və maliyyə sanksiyaları üzrə borcu olan vergi ödəyicilərinin bu sanksiyaları ödəməsi üçün vergi orqanları tərəfindən onun bank hesablarına müvafiq sərəncamlar göndərilir. Bu sərəncamlar indiyə qədər, bir sahibkarın bir və yaxud bir neçə bankda bir neçə hesabı olduğu halda bütün hesablara və bütün banklara gedirdi ki, sahibkarların bununla bağlı müəyyən müraciətləri olmuşdur. Edilən dəyişikliyə görə bundan sonra hər hansı hesabda və yaxud hər hansı bankda sərəncamın birinin icra olunması həmin sahibkarların müraciəti əsasında dövlət vergi orqanları tərəfindən digər sərəncamların bir gün ərzində geri çağırılmasını qanunda tələb kimi göstərmişdir. Düşünürük ki, bu, sahibkarlıq subyektlərinin bu istiqamətdə daha çox dəstəklənməsinə imkan yaradacaqdır.

İkinci mühüm dəyişiklik ölkədə müdafiə təyinatlı məmulatların yaradılması, istehsalı və satışı ilə bağlı müəssisələrin əlavə dəyər vergisindən azad olunması ilə bağlıdır. Bununla bağlı biz ayrıca bir qanun layihəsi də qəbul etmişdik və bu, uyğunlaşma xarakteri daşıyır. Bu da həmin istiqamətdə istehsalın və satışın dəstəklənməsinə xidmət edəcəkdir.

Digər bir istiqamət. Bildiyiniz kimi, mövcud qanunvericiliyə görə, ölkədə ödəmə qabiliyyətini itirmiş bankların rezolyusiyası üçün onların problemli aktivlərinin 2019-cu ildən 5 il müddətinə əmlak vergisindən və müddətsiz olaraq torpaq vergisindən azad olunması müddəası mövcuddur və bunun müddəti 2024-cü il yanvarın 1-də başa çatacaq. Müvafiq dəyişikliyə görə, həmin toksik aktivlər üzrə əmlak vergisindən azadolma daha 2 il uzadılır. O, 2026-cı il yanvarın 1-də başa çatacaq. Torpaq vergisi üzrə limit müddətsiz ləğv olunur. Onun da müddəti 2026-cı il yanvarın 1-də başa çatacaq. Düşünürəm ki, bu dəyişikliklər qeyd etdiyim Vergi Məcəlləsinin növbəti ildə daha aktiv icra olunmasına şərait yaradacaqdır. Komitənin rəyi müsbətdir. Həmkarlarımdan səs verməl추ərini xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, xahiş edirəm, Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsinə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.29 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

İndi isə 7-ci məsələyə keçirik. Hörmətli həmkarlar, bu, Mülki Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Məsələyə dair məlumat vermək üçün mən Milli

Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri hörmətli Əli Hüseynliyə söz verirəm. Əli müəllim, buyurun.

**Ə.Hüseynli,** *Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Büdcə paketinə daxil olan bu qanun layihəsi – Mülki Məcəllədə təklif edilən dəyişikliklər ölkədə biznes mühitinin daha da yaxşılaşdırılmasına xidmət edir. Birinci və ikinci oxunuşlarda hər hansı təklif daxil olmamışdır, üçüncü oxunuşda səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Əli müəllim, çox sağ olun. Tahir müəllim, bu qanun layihəsinə də yenə sizin komitədə baxılıb. Xahiş edirəm, rəyinizi bildirin.

**T.Mirkişili**. Hörmətli xanım sədr, bizim komitənin də rəyi müsbətdir. Səs verməyinizi xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, xahiş edirəm, Mülki Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihəsinə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.31 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, 8-ci məsələyə keçirik. Bu məsələ

“Nağdsız hesablaşmalar haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Tahir müəllim, yenə də mən Sizə söz verirəm. Buyurun.

**T.Mirkişili.** Hörmətli xanım sədr, qanun layihəsi nağdsız əməliyyatların dəstəklənməsi məqsədi ilə hazırlanıb. Birinci və ikinci oxunuşlardan sonra komitəyə hər hansı təklif daxil olmamışdır. Mətn olduğu kimi saxlanılır, səsə qoymağınızı xahiş edirik. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, xahiş edirəm, qanun layihəsinə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.31 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

9-cu məsələyə keçirik. “Sığorta fəaliyyəti haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Tahir müəllim, yenə də xahiş edirəm, Siz məlumat verin. Sizin komitənizin məsələsidir. Buyurun.

**T.Mirkişili.** Xanım sədr, bu qanun layihəsi sığortaçı ləğv edildikdə sığortaçı tərəfindən qəbul edilən tələblərin onun kreditorları tərəfindən ödənməsi ardıcıllığını müəyyən edir. İkinci oxunuşdan sonra bizə hər hansı təklif daxil olmamışdır və mətni olduğu kimi səsə qoymağınızı xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.32 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Növbəti məsələyə keçirik. "Banklar haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Tahir müəllim, yenə də Siz məlumat verməlisiniz. Buyurun.

**T.Mirkişili.** Xanım sədr, bu qanun layihəsi də bundan əvvəl olduğu kimi, banklar müflis olduğu zaman onun kreditorlar qarşısında borclarının ödənməsi növbəliyini müəyyən edir. Yenə hər hansı bir təklif daxil olmamışdır. Mətni olduğu kimi səsə qoymağınızı xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, xahiş edirəm, "Banklar haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.33 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

"Sosial sığorta haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi bizim növbəti məsələmizdir. Bu, 11-ci məsələdir. Layihəyə Əmək və sosial siyasət komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün, Musa müəllim, mən Sizə söz verirəm. Buyurun.

**M.Quliyev**. Çox sağ olun, hörmətli xanım sədr. Birinci və ikinci oxunuşlar zamanı layihə barəsində ətraflı məlumat verilmişdir. Qısaca olaraq xatırlatmaq istəyirəm ki, dəyişikliyin əsas mahiyyəti texnologiyalar parkının rezidentinin, podratçısının və subpodratçısının dövlət məcburi sosial sığorta haqqı ödəyən zaman seçim imkanlarının genişləndirilməsinə hüquqi baza yaradılmasından ibarətdir. Qanun layihəsinin mətnində dəyişiklik yoxdur. Heç bir əlavə təklif daxil olmamışdır. Üçüncü oxunuşda səsə qoymağınızı xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Musa müəllim. Hörmətli həmkarlar, xahiş edirəm, "Sosial sığorta haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.34 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Növbəti məsələyə keçirik. "Gömrük tarifi haqqında"

Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Tahir müəllim, buyurun, yenə də Siz məlumat verin.

**T.Mirkişili.** Hörmətli xanım sədr, hörmətli həmkarlar, qanun layihəsi müəyyən sahələrdə mal, xammal və avadanlıqların idxalını dəstəkləmək məqsədi ilə onların gömrük rüsumlarından azad olmasını özündə ehtiva edir. İkinci oxunuşdan sonra hər hansı təklif daxil olmamışdır. Layihəni olduğu kimi səsə qoymağınızı xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim. Hörmətli həmkarlar, bu qanun layihəsini mən səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.35 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bununla da büdcə zərfinə daxil olan bütün qanun layihələri üçüncü oxunuşda qəbul edildi. İndi isə, hörmətli həmkarlar, mən çıxış etmək üçün Azərbaycan Respublikasının Baş naziri cənab Əli Əsədova söz verirəm. Əli müəllim, buyurun.

**Ə.Əsədov,** *Azərbaycan Respublikasının Baş naziri.*

Hörmətli xanım sədr, hörmətli deputatlar. Hər birinizi salamlayıram. Artıq bir müddətdir ki, Milli Məclisin müxtəlif komitələrində büdcə müzakirələri çox fəal şəkildə aparılır. Həmçinin Milli Məclisin plenar iclaslarında 2024-

cü ilin dövlət büdcəsi və büdcə zərfinə daxil olan qanun layihələrinin iki oxunuşda, bu gün isə üçüncü oxunuşda müzakirələri başa çatıb və layihələr qəbul edilib. Hörmətli Sahibə xanım başda olmaqla Milli Məclisin rəhbərliyinə öz adımdan və hökumətin adından təşəkkürümü ifadə edirəm ki, büdcə müzakirələri bu cür yüksək səviyyədə təşkil olunub. Deputatlar da istər plenar, istərsə də komitə iclaslarında bu müzakirələrdə çox fəal iştirak ediblər. Cəmiyyətimizi narahat edən məsələlərə gəldikdə, bunlarla bağlı suallar aidiyyəti qurumların rəhbərləri tərəfindən cavablandırılmışdır. Bununla yanaşı, ötən il büdcə müzakirələri zamanı hörmətli millət vəkilləri tərəfindən qaldırılan bir çox məsələlər bu il ərzində öz həllini tapmışdır.

Hörmətli deputatlar, müstəqilliyin bərpa olunmasından sonra Ümummilli Lider Heydər Əliyevin qətiyyətli və uzaqgörən siyasəti nəticəsində Azərbaycan Respublikası bütün sahələrdə misli görünməmiş inkişaf və tərəqqiyə nail olmuşdur. Məlum olduğu kimi, cari ildə biz möhtərəm cənab İlham Əliyevin Azərbaycan Prezidenti seçilməsinin iyirmi illiyini qeyd edirik. Ulu Öndərin layiqli davamçısı olan Prezident İlham Əliyev onun strateji inkişaf xəttini ardıcıllıqla və uğurla davam etdirərək müstəqil dövlətçiliyin və müasir inkişafın Azərbaycan modelini yaratdı. Ötən 20 il ərzində ölkəmizin bütün sahələrdə sürətli inkişafa nail olması, insanların rifah halının daha da yaxşılaşdırılması, Azərbaycanın siyasi-iqtisadi imkanlarının genişlənməsi, müasir ordumuzun yaradılması ölkəmizin beynəlxalq arenadakı mövqelərini möhkəmləndirmişdir. Təbii ki, əsrə bərabər 20 ilin ən şanlı səhifəsi işğal altındakı torpaqlarımızın azad olunması, ərazi bütövlüyümüzün bərpası ilə nəticələnmiş Vətən müharibəsidir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə

sentyabrın 19-da şanlı ordumuz tərəfindən mükəmməl şəkildə keçirilən birgünlük antiterror tədbirləri nəticəsində Qarabağda suverenliyimizin tam təmin edilməsi torpaqlarımızdan separatizmin kökünün tamamilə və əbədi kəsilməsi ilə tamamlanmışdır.

Cənab Prezidentin ali dövlət fəaliyyətinin 20-ci ildönümünün Ümummilli Liderimizin anadan olmasının 100 illik yubileyinə, "Heydər Əliyev İli"nə təsadüf etməsi də olduqca əlamətdardır. Ölkəmizin qazandığı bütün uğur və nailiyyətlər, inkişaf və tərəqqi Heydər Əliyev dühasının bəhrəsidir. Təməli Ulu Öndər tərəfindən qoyulmuş xarici və daxili siyasət kursu bu gün möhtərəm cənab Prezident tərəfindən müasir dünyanın çağırış və tələblərinə uyğun olaraq yeni məzmun və keyfiyyətdə uğurla davam etdirilir. Prezident İlham Əliyev güclü milli iqtisadiyyata söykənərək regionumuza sülh, əmin-amanlıq və inkişaf üçün yeni imkanlar gətirib.

Hörmətli millət vəkilləri, 2024-cü il və ortamüddətli dövr üçün büdcə siyasətinin konfiqurasiyası aşağıdakı əsas çağırışlar və hədəflər nəzərə alınmaqla müəyyən edilmişdir: "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda nəzərdə tutulan tədbirlərin icrası, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpası və yenidən qurulması, həmçinin Böyük Qayıdışın təmin edilməsi üzrə tədbirlərin davam etdirilməsi, ölkəmizin müdafiə qabiliyyətinin və milli təhlükəsizliyinin gücləndirilməsi, əhalinin sosial müdafiəsi və sosial təminatı, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"nın icrası, ərzaq təhlükəsizliyinin təmin edilməsi və sahibkarlığın inkişafının dəstəklənməsi, ən vacib prioritet layihələrin maliyyələşdirilməsi üçün yeni borclanma siyasəti, makroiqtisadi sabitlik və

büdcə dayanıqlığının təmin edilməsi.

Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyən edilən əsas prioritet xərc istiqamətləri əsasında 2024-cü ildə həyata keçirilən tədbir və layihələrin uğurlu icrası üçün büdcədə tələb olunan maliyyə təminatı yaradılmışdır. 2024–2027-ci illərdə makrofiskal çərçivənin parametrləri büdcə qaydasının ortamüddətli lövbərlərinə əsaslanaraq hazırlanmışdır. Postpandemiya dövründən sonra milli iqtisadiyyatın artım tempi bərpa olunsa da, qlobal iqtisadiyyatda qeyri-müəyyənliklər, geosiyasi vəziyyət, beynəlxalq maliyyə mühitində sərtləşmələr ölkə iqtisadiyyatı qarşısında yeni çağırışlar formalaşdırır. 2024-cü ilin dövlət büdcəsi tərtib olunarkən hazırkı reallıqlar, problem və çətinliklər, habelə ən aktual qlobal çağırışlar nəzərə alınmışdır. Cari ilin ötən dövründə ölkə iqtisadiyyatında makroiqtisadi sabitlik qorunmuş, qeyri-neft-qaz sektoru hesabına iqtisadi artım təmin edilmişdir. İnflyasiya tempi azalmış, tədiyyə balansında profisit olmuşdur. Hazırda strateji valyuta ehtiyatlarımız 68,3 milyard ABŞ dolları təşkil edir ki, bu da ümumi daxili məhsulun 97 faizinə bərabərdir.

2024-cü ilin makroiqtisadi çərçivəsi də ölkə iqtisadiyyatının real artımı, məqbul inflyasiya səviyyəsi və profisitli tədiyyə balansı ilə proqnozlaşdırılır. Büdcədə neft qiymətləri 60 ABŞ dolları müəyyən edilmişdir. Bildirmək istərdim ki, 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasında qoyulmuş hədəflər, Böyük Qayıdışa dair birinci dövlət proqramı və hərbi xərclərin maliyyə öhdəlikləri büdcə xərclərinin miqyasına əhəmiyyətli təsir edir. Əgər dövlət büdcəsi xərclərinin ÜDM-də payı 2017-ci ildə 25 faiz idisə, 2023-cü ildə bu, 31 faizə yüksəlmiş və xərclərin həcmi 2 dəfədən çox artmışdır.

2024-cü il üçün dövlət büdcəsinin gəlirləri 34 milyard 173 milyon manat proqnozlaşdırılır ki, bu da 2023-cü ilin proqnozu ilə müqayisədə 282,5 milyon manat artmışdır. 2024-cü ildə dövlət büdcəsinin qeyri-neft gəlirlərinin cari xərcləri təminetmə səviyyəsi 75 faizi keçmişdir. Qeyri-neft sektoru üzrə büdcə gəlirləri son 7 ildə iki dəfəyə yaxın artmışdır. Dövlət büdcəsinin xərcləri 36 milyard 763 milyon manat proqnozlaşdırılır ki, bu da 2023-cü illə müqayisədə 138,2 milyon manat artmışdır. Dövlət büdcəsinin kəsirinin ÜDM-də payı 2,2 faiz proqnozlaşdırılır.

Bütövlükdə isə 2024-cü il üçün icmal büdcənin gəlirləri 38 milyard 997 milyon manat, icmal büdcənin xərcləri 42 milyard 376 milyon manat proqnozlaşdırılır. Makroiqtisadi çərçivə proqnozlaşdırılan zaman strategiyada ortamüddətli dövrdə iqtisadi artımla bağlı müəyyənləşdirilmiş hədəflər nəzərə alınmışdır. Belə ki, iqtisadi artımın proqnozlaşdırılan orta illik tempi 2,9 faiz, həmçinin qeyri-neft sektoru üzrə 4,8 faiz nəzərdə tutulmuşdur.

Hörmətli millət vəkilləri, müsbət makroiqtisadi göstəricilərdən biri də inflyasiya tempinin azaldılmasıdır. Hökumətin antiinflyasiya tədbirləri, dünya ərzaq bazarlarında qiymətin enməsi, tədiyyə balansının profisitli olması, məzənnə sabitliyinin dəstəklənməsi inflyasiya idxalına və bununla da inflyasiya səviyyəsinə azaldıcı təsir göstərmişdir. 2023-cü ilin sonuna orta illik inflyasiyanın birrəqəmli səviyyədə olacağı proqnozlaşdırılır. Dövlət Statistika Komitəsinin ilkin rəqəmlərinə görə, artıq 2023-cü ilin 11 ayında orta illik inflyasiya birrəqəmli, 9,4 faiz olmuş, illik inflyasiya isə 2,6 faiz təşkil etmişdir. Eyni zamanda, Nazirlər Kabinetinin inflyasiya və qiymət monitorinqi üzrə yaradılmış işçi qrupu tərəfindən inflyasiya proseslərinin və onun səbəblərinin araşdırılması və təhlili istiqamətində

zəruri işlər görülür. Ümumilikdə, inflyasiyanın iqtisadi artım üçün məqbul səviyyəsinin təmin edilməsi, əhalinin real gəlirlərinin və alıcılıq qabiliyyətinin qorunması, habelə fiskal və monetar siyasətin koordinasiyası istiqamətində zəruri tədbirlər davam etdiriləcəkdir.

Hörmətli millət vəkilləri, hər il olduğu kimi, 2024-cü ildə də büdcənin əsas xərc istiqamətlərindən biri əhalinin sosial müdafiəsi və sosial təminatı olacaqdır. Təsadüfi deyil ki, 2024-cü ilin dövlət büdcəsinin xərclərinin 43 faizi, büdcənin cari xərclərinin isə 70 faizi məhz sosial yönümlü xərclərdir. 2020-ci illə müqayisədə bu xərclər mütləq ifadədə 6 milyard manat və ya 1,6 dəfə artmışdır. Son 5 ildə 4 milyon nəfəri əhatə edən 4 sosial islahat paketi icra olunmuş və bu islahatlara 7 milyard manata yaxın əlavə vəsait yönəldilmişdir. Əhalinin bütün həssas qruplarına göstəriləcək sosial xidmətlərin effektivliyinin artırılması və xidmətlərə əlçatanlığın təmin edilməsi məqsədi ilə Prezident "Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023–2026-cı illər üçün Dövlət Proqramı"nı təsdiq etmişdir.

Hörmətli deputatlar, Vətən müharibəsindən ötən müddət ərzində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası istiqamətində mühüm işlər görülmüşdür. Möhtərəm Prezident İlham Əliyev Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə birgə möhtəşəm bərpa-quruculuq işlərinə bilavasitə başçılıq edir. Qələbədən sonra 3 il müddətində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarındakı bərpa-quruculuq işlərinə dövlət büdcəsindən 12 milyard manat vəsait ayrılmışdır. 2024-cü ilin dövlət büdcəsində isə 4 milyard manat vəsait nəzərdə tutulmuşdur. Böyük Qayıdışa dair birinci dövlət proqramının icrası üçün sonrakı illərdə 14,5 milyard manat vəsait nə-

zərə alınmaqla, 2022–2026-cı illərdə, ümumilikdə, təqribən 30,5 milyard manat məbləğində vəsait tələb olunur. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən məqsədyönlü və geniş miqyaslı layihələr, verilən vergi, gömrük, sosial sığorta, investisiya təşviqi, kredit və digər güzəştlər paketi həmin rayonların sürətlə dirçəlməsinə, əhalinin məskunlaşmasına və davamlı iqtisadi aktivliyin təmin olunmasına xidmət edir.

Böyük Qayıdışa dair birinci dövlət proqramı üzrə qayıdış prosesinin ilkin mərhələsinə start verilmişdir. 2026-cı ilədək 34 min 500 ailənin və 140 min vətəndaşımızın köçürülməsi nəzərdə tutulmuşdur. Vətən müharibəsindən sonra işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış proqramına uyğun olaraq, ümumilikdə, 987 ailənin, 3 min 932 nəfərin köçürülməsi təmin olunmuşdur və cari ilin sonunadək əlavə olaraq 215 ailənin köçürülməsi gözlənilir. Xüsusi qeyd etmək istərdim ki, Qarabağ iqtisadi rayonunun əraziləri, Xankəndi, Ağdərə, Xocalı, Xocavənd və bütövlükdə, işğaldan azad olunmuş rayon və şəhərlərin yerli xərcləri üçün büdcədə 50 milyon manatdan artıq vəsait nəzərdə tutulmuşdur.

Hər il olduğu kimi, gələn il də müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin müdafiə potensialının və ordumuzun maddi-texniki bazasının möhkəmləndirilməsi, onun müasir hərbi texnika və silah-sursatla təchizatı və hərbçilərin sosial-məişət və xidmət şəraitinin yaxşılaşdırılması əsas xərc istiqamətlərindən biri olacaqdır. Müdafiə və milli təhlükəsizlik xərcləri üçün 2024-cü ilin dövlət büdcəsi xərclərinin 17,5 faiz həcmində və ya 6,4 milyard manatdan artıq vəsait nəzərdə tutulmuşdur. Bu da 2023-cü illə müqayisədə 366 milyon manat və ya 6 faiz çoxdur.

Hörmətli deputatlar, növbəti il üzrə təhsil xərclərinə 4,5

milyard manat vəsait proqnozlaşdırılır ki, bu da 2023-cü illə müqayisədə 3,2 faiz çoxdur. Ölkə Prezidentinin davamlı diqqət və qayğısı, həyata keçirilən proqramlar və Heydər Əliyev Fondunun dəstəyi ilə son 20 il ərzində 3 min 600-dən çox məktəb binası tikilmiş və ya əsaslı təmir edilmişdir. Nəticədə yenilənmiş məktəblər bütün məktəblərin təxminən 80 faizini təşkil etmişdir. Son 3 ildə 275 məktəbin tikintisi və ya əsaslı təmiri nəticəsində ölkəmizdə qəzalı məktəblərin sayı 30 faiz azalıb. Strategiyada təhsil bölməsinin 9 fəaliyyət istiqaməti üzrə 2024-cü ildə 17 tədbirin həyata keçirilməsi ilə bağlı xərclər üçün 247 milyon manat və ya 32 faiz çox vəsait nəzərdə tutulmuşdur. Bu tədbirlər təhsilin bütün istiqamətlərini əhatə edir. Onu da qeyd edim ki, bir neçə gün əvvəl dövlət başçısının Xankəndi şəhərində Qarabağ Universitetinin yaradılması haqqında sərəncam imzalaması Qarabağ regionunun zəngin təhsil ənənələrinin yaşadılmasına, həmin regionun yüksək ixtisaslı kadrlarının hazırlanmasına əhəmiyyətli töhfədir.

Son 5 ildə peşə təhsili müəssisələrinə tələbə qəbulu 50 faizə yaxın artmışdır. Peşə təhsili sistemində təhsil alanların 89 faizi dövlət sifarişi əsasında təhsil alır. Əmək bazarlarının tələblərinə uyğun 74 yeni peşə təhsili proqramı hazırlanmış, 95 yeni ixtisas əlavə edilmişdir. Hazırda 4-cü sənaye inqilabı dövründə süni intellekt, yüksək texnologiyalar və rəqəmsal transformasiyaların təsiri altında bütün dünyada, həmçinin Azərbaycanda da əmək bazarında yeni, tam fərqli vəziyyət yaranıb. Ölkəmizdə müasir biliklərə malik yüksək ixtisaslı mütəxəssislərin, innovativ texnologiyaları mənimsəyən, rəqabət qabiliyyətli kadrların hazırlanmasının vacibliyini nəzərə alaraq, bu istiqamətdə zəruri dəstək artırılacaqdır.

Hörmətli deputatlar, Azərbaycanda ərzaq təhlükəsizli-

yinin təmin edilməsi cənab Prezident tərəfindən hökumət qarşısında strateji vəzifə kimi qoyulub. 2024-cü ilin dövlət büdcəsində ərzaq təhlükəsizliyi tədbirləri üçün 500 milyon manatdan çox vəsait nəzərdə tutulub. Ölkədə yerli istehsalın özünü təminetmədə rolunun artırılması ilə bağlı tədbirlər həyata keçirilir. Bu baxımdan ərzaqlıq buğda ilə özünü təminetmə səviyyəsinin yüksəldilməsi, idxaldan asılılığın azaldılması prioritet istiqamətlərdəndir.

Mövcud su ehtiyatlarından səmərəli istifadə olunması, fermerlərin suvarma suyu ilə təchizatı və suvarma sahələrinin genişləndirilməsi tədbirləri üçün 2024-cü ildə dövlət büdcəsindən 500 milyon manat vəsait ayrılacaqdır. Eyni zamanda, Prezidentin Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı ötən ay imzaladığı fərmanlar su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə və su təsərrüfatının idarə olunmasının təkmilləşdirilməsinə imkan verəcəkdir.

Cənab Prezident tərəfindən müəyyən olunmuş bir sıra ən vacib prioritet sahələr, o cümlədən enerji sektoru, nəqliyyat sektoru və tranzit potensialının artırılması, özünüməşğulluq və sosial müdafiənin gücləndirilməsi, gəmiqayırma zavodunun fəaliyyətinin genişləndirilməsi, su təchizatı üzrə layihələrin maliyyələşdirilməsi üçün xarici borcun cəlb edilməsi nəzərdə tutulmuşdur.

Son dövrlərdə regionda baş verən geosiyasi proseslər fonunda Şərqlə Qərb arasında ənənəvi logistika zəncirlərinin qırılması ölkəmizin ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin aktuallığını artırmışdır. Bu baxımdan Orta Dəhliz mühüm əhəmiyyət kəsb edir. Bu dəhlizdə fəal iştirak Azərbaycanın regional ticarət və tranzit qovşağı kimi mövqeyini gücləndirir. Bu isə ölkəmizin Asiya və Avropa üçün strateji tərəfdaş kimi əhəmiy-

yətini artırır və iqtisadiyyatımızda əlavə dəyər yaranmasına töhfə verir. Bütün bunları nəzərə alaraq, dövlət başçısı tərəfindən "Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılmasına və tranzit yükdaşımaların təşviqinə dair 2024–2026-cı illər üçün Fəaliyyət Planı" təsdiq edilib.

Hörmətli millət vəkillərinin əksəriyyəti, təbii olaraq, təmsil etdikləri regionlarda infrastruktur, kommunal, enerji, su, qazlaşma və digər sosial xidmət sahələrində keyfiyyətin yüksəldilməsi, məktəblərin və yolların təmiri və bu qəbildən olan məsələlərin həll edilməsi üçün təkliflərlə çıxış ediblər. Bu məsələlərin əksəriyyətinin vaxtında həll edilməsi üçün hökumət tərəfindən strategiyada nəzərdə tutulan tədbirlər üzrə gündəlik və ardıcıl işlər görülüb və bundan sonra da görüləcəkdir. 2024-cü ilin dövlət büdcəsində investisiya xərcləri üçün nəzərdə tutulan vəsaitin 890 milyon manatı sosial və infrastruktur təyinatlı layihələrin maliyyələşməsinə yönəldiləcəkdir.

"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"nın icrasına 249 milyon manat vəsait nəzərdə tutulmuşdur.

Millət vəkilləri və Hesablama Palatası tərəfindən nəticə əsaslı büdcə mexanizminə keçidin sürətləndirilməsi, büdcə planlanması, publik hüquqi şəxslər, xərclərə nəzarət, özəl investisiyalar və büdcə dayanıqlılığı ilə bağlı təkliflər və qeydlər edilmişdir. Dövlət investisiyalarının tədricən özəl investisiyalarla əvəzlənməsi istiqamətində bəzi qərarlar qəbul olunmuş və artıq zəruri tədbirlər görülməkdədir. Belə ki, cənab Prezidentin 2023-cü il avqustun 31-də dövlət müəssisələrinə özəl investisiyaların cəlb edilməsi ilə bağlı imzaladığı sərəncam dövlət müəssisələrində dövlətin iştirak payının azalması vasitəsi ilə özəl investi-

siyaların cəlb edilməsini nəzərdə tutur.

Büdcə təşkilatlarında nizam-intizamın möhkəmləndirilməsi, vergi və gömrük sahəsində vergi yükünün azaldılması, vergi nəzarəti və kölgə iqtisadiyyatı ilə mübarizə istiqamətində islahatların davam etdirilməsi, şəffaflığın təmin edilməsi, eləcə də həm büdcə gəlirlərinin toplanması, həm də xərclənməsi istiqamətində hər bir vəsaitə qənaətlə yanaşılması ilə gəlir və xərclərin ahəngdarlığı təmin ediləcəkdir.

Ortamüddətli perspektivdə xərclərin artımının dayanıqlı gəlir mənbələri ilə uzlaşdırılması və Dövlət Neft Fondunun aktivlərinin dayanıqlı səviyyədə saxlanılması təmin olunacaqdır. Büdcə xərclərinin effektivliyinin qiymətləndirilməsi, büdcə vəsaitindən təyinatı üzrə istifadəsinə nəzarət məqsədi ilə ortamüddətli xərclər çərçivəsinin tətbiqi ilə bağlı islahatlar davam etdiriləcəkdir.

Ortamüddətli dövrdə makrofiskal siyasət çərçivəsində icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ÜDM-də xüsusi çəkisinin tədricən azaldılaraq tənzimlənməsi nəzərdə tutulur. Bu da inflyasiyaya azaldıcı təsir göstərən amillərdən biridir. Daxili bazarda sağlam rəqabət mühitinin təmin olunması istiqamətində aidiyyəti qurumlarla birlikdə qiymət izləmə sisteminin tətbiqi ilə Antiinhisar və İstehlak Bazarlarına Nəzarət Dövlət Xidməti tərəfindən subyektiv səbəblərə, rəqabət pozuntularına, bazarların bölüşdürülməsi və qiymət manipulyasiyasına yol verən bazar subyektlərinə qarşı nəzarət tədbirləri gücləndiriləcək və ciddi tədbirlər görüləcəkdir. Rəqabət Məcəlləsinin qəbul olunması da bu proseslərə təkan verəcəkdir.

Hörmətli millət vəkilləri, büdcə müzakirələri zamanı qaldırılan bütün məsələlər hökumət və aidiyyəti qurumlar tərəfindən nəzərə alınacaq, qeyd edilən problemlərin həlli istiqamətində mümkün olan bütün zəruri tədbirlər görüləcəkdir.

Çıxışımın sonunda bir daha aparılan işgüzar müzakirələrə, verilən dəyərli təklif və tövsiyələrə görə hörmətli xanım sədr, Sizə və bütün deputatlara minnətdarlığımı bildirirəm. Hökumət adından bir daha bildirmək istərdim ki, möhtərəm cənab Prezidentin müəyyən etdiyi hədəflərə çatmaq üçün hökumət qarşısında qoyulan bütün tapşırıq və vəzifələrin vaxtında, bütövlükdə və yüksək keyfiyyətlə icrasını təmin etmək üçün bundan sonra da var gücü ilə çalışacaqdır.

Hörmətli deputatlar, mən burada sonuncu dəfə 2023-cü il martın 15-də çıxış etmişəm. Bu dövr ərzində Milli Məclisin 2 deputatı – iyul ayında Madər Musayev və sentyabr ayında Qənirə xanım Paşayeva dünyasını dəyişib. Bununla əlaqədar öz adımdan və hökumət adından Milli Məclisə başsağlığı verirəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Hörmətli deputatlar, bizim iclaslarımızda iştirak etdiklərinə görə cənab Baş nazirə və hökumət üzvlərinə təşəkkür edirik.

Hörmətli cənab Baş nazir və hökumət üzvləri, dövlət büdcəsinin və digər büdcə sənədlərinin icrası, ölkəmizin iqtisadi qüdrətinin artırılması naminə dəyərli fəaliyyətinizdə sizə uğurlar arzulayırıq. Sizi hörmətlə yola salırıq. Çox sağ olun. Əli müəllim, xahiş edirəm, Siz davam edin.

## *Azərbaycan Respublikası Milli Məclisi sədrinin birinci müavini **Əli Hüseynli** sədrlik edir*

**Sədrlik edən.** Hörmətli həmkarlar, gündəliyin növbəti 2 məsələsi – 13-cü və 14-cü məsələlər Milli Məclisin qərar layihələridir. Milli Məclisin 2024-cü il üçün xərclər smetası və Hesablama Palatasının 2024-cü il üçün xərclər smetası. Bununla bağlı məlumat vaxtında verilmişdir. Bu gün ancaq səsverməni həyata keçiririk. Ona görə sizdən

xahiş edirəm, gündəliyin 13-cü məsələsinə – Milli Məclisin 2024-cü il üçün xərclər smetası haqqında qərar layihəsinə münasibət bildirəsiniz.

| **Səsvermənin nəticələri** | (saat 12.09 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 86 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

Xahiş edirəm, gündəliyin 14-cü məsələsinə – Hesablama Palatasının 2024-cü il üçün xərclər smetası haqqında Milli Məclisin qərar layihəsinə münasibət bildirəsiniz.

| **Səsvermənin nəticələri** | (saat 12.10 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, təşəkkür edirəm.

*Azərbaycan Respublikası  Milli Məclisinin sədri*
***Sahibə Qafarova** sədrlik edir*

**Sədrlik edən.** Əli müəllim, çox sağ olun. Hörmətli həmkarlar, gündəliyin 15-ci məsələsinə keçirik. Bu məsələ “18 iyun 1997-ci il tarixli Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında

Azərbaycan Respublikası və Özbəkistan Respublikası vətəndaşlarının vizasız gediş-gəlişi haqqında Sazişə əlavə və dəyişikliklərin edilməsi barədə Protokol"un təsdiq edilməsi haqqında qanun layihəsidir.

Hörmətli həmkarlar, onu da qeyd edim ki, hökumətlərarası sənədlə bağlı olduğuna görə qanun layihəsi "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələbinə əsasən bir oxunuşda baxılıb qəbul ediləcək. Qanun layihəsinə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin üzvü hörmətli Elman müəllim Nəsirova söz verirəm. Elman müəllim, buyurun.

**E.Nəsirov,** *Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü.*

Hörmətli xanım sədr, hörmətli deputatlar, hörmətli media nümayəndələri. Bəli, qeyd olunduğu kimi, 1997-ci il iyunun 18-də "Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında Azərbaycan Respublikası və Özbəkistan Respublikası vətəndaşlarının vizasız gediş-gəlişi haqqında Saziş" imzalanıb. Eyni zamanda, bu il avqustun 22-də həmin sazişə əlavə və dəyişikliklərin edilməsi barədə protokol imzalanıb və bu gün həmin protokolla bağlı qanun layihəsini müzakirə edirik.

Mahiyyəti nədən ibarətdir? Mahiyyəti ondan ibarətdir ki, hər iki ölkənin, yəni həm Azərbaycanın, həm də Özbəkistanın vətəndaşları qarşılıqlı şəkildə bir-birinin ərazisinə daxil olarkən onların qalma müddəti 15 gündən artıq deyilsə, bu halda heç bir müvafiq səlahiyyətli dövlət orqanına müraciət edib qeydiyyatdan keçməyə ehtiyac yoxdur. Yox, əgər qalma müddəti 15 gündən artıq olarsa, belə olan halda mütləq müvafiq, yəni səlahiyyətli dövlət

qurumunda qeydiyyatdan keçmək, uçota alınmaq lazımdır. Ona görə də hörmətli həmkarlarımızı səs verməyə dəvət edirəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Elman müəllim. Mən görürəm, yazılanlar var. Aydın müəllim, buyurun.

**A.Mirzəzadə.** Çox sağ olun, xanım sədr. Aydın məsələdir ki, hər birimiz bu qanun layihəsinə səs verəcəyik. Bu gün Azərbaycan parlamentində Özbəkistanın Azərbaycana qarşı dostluq münasibətlərini bir daha qeyd etməmək, mənə elə gəlir ki, düzgün olmazdı.

Özbəkistan Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən ölkələrdən olub. Özbəkistan Azərbaycanın Vətən müharibəsində, sonradan birgünlük antiterror əməliyyatında qələbəsinə sevinən ölkələrdən olub. Həmişə Azərbaycanın yanında olub. Özbəkistan Prezidentinin cənab Prezidentimizlə şəxsi dostluğu, münasibətlərimizin bütün sahələri əhatə etməsi sevindirici bir haldır.

Özbəkistanın timsalında biz dost görürük, qardaş görürük. Özbəkistan ilk ölkələrdən oldu ki, işğaldan azad edilən zonada öz vəsaiti hesabına məktəb tikdirdi. Məktəbin açılışına Özbəkistanın dövlət başçısının gəlməsi Azərbaycanın Özbəkistanla dostluğunu göstərir. Biz sevinirik ki, Özbəkistan kimi dostumuz var və bu qanun layihəsi münasibətlərimizin bir daha göstəricisi olacaqdır. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Aydın müəllim. Hörmətli həmkarlar, mən məsələni səsə qoyuram. Xahiş edirəm, münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.14 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin növbəti 2 məsələsi möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub. Məzmun və mahiyyətcə də bir-birinə bağlıdır. Gündəliyin 16-cı məsələsi Azərbaycan Respublikasının Ağdərə rayonunun yaradılması haqqında, gündəliyin 17-ci məsələsi isə Azərbaycan Respublikasının Ağdam, Cəbrayıl, Füzuli, Xocalı, Xocavənd, Qubadlı, Laçın və Şuşa rayonlarının inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında qanun layihələridir. Odur ki, hörmətli həmkarlar, icazənizlə, Regional məsələlər komitəsinin sədri hörmətli Siyavuş Novruzov hər iki layihə haqqında ümumi məlumat versin. Biz müzakirəni birgə aparacağıq, amma səsverməni, həmişə olduğu kimi, ayrı keçirəcəyik. Siyavuş müəllim, mən Sizdən xahiş edəcəm, məlumat verəcəksiniz. Sadəcə, hörmətli həmkarlar, xatırladım ki, inzibati ərazi bölgüsü ilə bağlı olduğuna görə qanun layihələri bayaq adını çəkdiyim "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələbinə əsasən bir oxunuşda baxılıb qəbul ediləcək. Siyavuş müəllim, buyurun, məlumat verin.

**S.Novruzov,** *Milli Məclisin Regional məsələlər komitəsinin sədri.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar, hörmətli mətbuat nümayəndələri. İlk növbədə hörmətli xanım sədr, Sizi xarici ölkələrə həyata keçirilən uğurlu və Azərbaycan maraqlarının müdafiəsinə həsr

olunan səfərlər münasibəti ilə təbrik edirəm. Parlament üzvlərinin də gərgin işini yüksək qiymətləndiririk.

Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən qanunvericilik təşəbbüsü qaydasında iki məsələ – Azərbaycan Respublikasının Ağdərə rayonunun yaradılması haqqında və Azərbaycan Respublikasının Ağdam, Cəbrayıl, Füzuli, Xocalı, Xocavənd, Qubadlı, Laçın və Şuşa rayonlarının inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında qanun layihələri Milli Məclisə təqdim olunmuşdur.

Qeyd etməliyəm ki, bu gün Azərbaycan dünyada etibarlı tərəfdaş, güclü, qüdrətli, qalib dövlət, Cənubi Qafqaz regionunun lider ölkəsi kimi tanınır. Cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl, məqsədyönlü islahatlar ölkəmizin sosial-iqtisadi inkişafının sürətləndirilməsi və qarşıya qoyulan strateji hədəflərə çatmaq üçün geniş imkanlar yaradıb.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusunun şücaəti sayəsində 44 günlük Vətən müharibəsində torpaqlarımız işğaldan azad edildi, ölkəmizin ərazi bütövlüyü və tarixi ədalət bərpa olundu. Cari ilin sentyabr ayında uğurla yekunlaşan lokal xarakterli antiterror tədbirləri nəticəsində Qarabağda separatizmə son qoyuldu, ölkənin suverenliyinin tam bərpasına nail olundu. Bu gün qalib Azərbaycan postmüharibə dövrünün reallıqlarına uyğun strateji fəaliyyətini müvəffəqiyyətlə davam etdirir.

Dövlət başçısının imzaladığı müvafiq fərman və sərəncamlara əsasən həyata keçirilən tədbirlərin yerli regional idarəetmə modelinin yaradılması baxımından əhəmiyyətini xüsusi qeyd etmək istəyirəm. Hazırda işğaldan azad edilmiş ərazilərdə infrastrukturun qurulması, nəqliyyat

qovşaqlarının bərpası və digər sosial yönümlü layihələrin icrası uğurla davam etdirilir.

Bu gün müzakirəyə çıxarılan Azərbaycan Respublikasının Ağdərə rayonunun yaradılması haqqında qanun layihəsi tarixi ədalətin bərpası baxımından mühüm əhəmiyyət kəsb edir. Ağdərə rayonu 1992-ci il oktyabrın 13-də ləğv olunaraq, onun ərazisi Kəlbəcər, Tərtər və Ağdam rayonlarının inzibati ərazilərinə verilib. Qeyd etməliyəm ki, 2023-cü ilin sentyabrında aparılan lokal antiterror tədbirləri zamanı Ağdərə azad olunub. Azərbaycan Prezidenti İlham Əliyev cari il oktyabrın 15-də Ağdərə şəhərində Azərbaycanın Dövlət Bayrağını ucaldıb.

Qanun layihəsinə əsasən 1660,83 kvadrat-kilometr ərazidə yaradılacaq Ağdərə rayonuna Kəlbəcər rayonundan 735,84, Tərtər rayonundan 851,25 və Ağdam rayonundan 73,74 kvadrat-kilometr ərazi veriləcəkdir.

Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Ağdərə rayonu ərazidəki Ağdərə dərəsinin adı ilə adlandırılmışdır. Ağdərə toponimi türk dillərində rəng mənasından əlavə kiçik, balaca, dayaz, çox dərin olmayan anlamlarını ifadə edən "ağ" sözü ilə "iki dağ və təpə arasında çuxur" mənasında işlənən "dərə" sözünün birləşməsindən yaranmışdır.

Ağdərə yaşayış məskəninin ərazisi Azərbaycanın tarixi dövlətlərindən olan Qafqaz Albaniyasının tərkibinə daxil olmuşdur. Qafqaz Albaniyasının varlığına son qoyulduqdan sonra bu ərazi Ərəb Xilafətinin tərkibində olmuşdur. Xilafət dağıldıqdan sonra isə Azərbaycan ərazisində ilk müsəlman dövlətləri təşəkkül tapmışdır ki, Ağdərə də bu ərazidə olmuşdur.

Səfəvilər dövründə bu ərazi inzibati cəhətdən Gəncə–Qarabağ əyalətinin tərkibinə daxil olmuşdur. Nadir şahın ölümündən sonra Azərbaycan ərazisində xanlıqlar yaran-

dıqda bu ərazi Qarabağ xanlığının tabeliyinə keçmişdir. 1805-ci il may ayının 14-də Qarabağ xanlığı ilə Rusiya İmperiyası arasında Kürəkçay müqaviləsi bağlandıqda bu ərazilər Rusiya İmperiyasının tərkibinə daxil edilmişdir.

Ağdərə yaşayış məskəninin əlverişli coğrafi mövqeyini nəzərə alaraq, onun çox qədim tarixə malik olduğunu qeyd etmək mümkündür. Rusiya ilə Qacarlar arasında 1813-cü il "Gülüstan" və 1828-ci il "Türkmənçay" müqavilələrinə uyğun olaraq, bu əraziyə ermənilərin kütləvi şəkildə köçürülməsi başlanmışdır. Bu hadisənin 150 illiyi ilə əlaqədar həmin ərazidə yerləşən Marağa kəndində ermənilər tərəfindən abidə də qoyulmuşdur. Köçürülən ermənilərin bir hissəsi Ağdərə kəndində yerləşdirilmiş və onun adının Madagir, Mardakert şəklində erməniləşdirilməsinə cəhd edilmişdir. Rusiya İmperiyası tərəfindən Şimali Azərbaycanda aparılan inzibati ərazi bölgüsü nəticəsində 1867-ci ildə Yelizavetpol–Gəncə quberniyası təşkil edilmişdir. Quberniyanın tərkibində Cavanşir qəzası yaradıldığı zaman Ağdərə onun tərkibinə verilmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti və sovet hakimiyyətinin ilk dövründə Ağdərə öz tarixi adını saxlamışdır. Azərbaycan SSR-də 1921-ci ildə kənd təsərrüfatı siyahıya alınması keçirilərkən Ağdərə adı da qeydə alınmışdır.

1923-cü ildə Azərbaycan SSR tərkibində Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılarkən Ağdərə onun tərkibinə verilmişdir, Muxtar vilayətin Gerabert rayonunun tərkibində olmuşdur. 1939-cu il sentyabrın 17-də Gerabert rayonu əsasında mərkəzi Ağdərə olan Mardakert rayonu yaradılarkən onun tərkibinə verilmişdir. Ağdərə Mardakert adlandırılmışdır. Mardakert 1960-cı il yanvarın 29-da şəhər tipli qəsəbə statusu almış, 1985-ci il iyunun 27-də rayon tabeli şəhərə çevrilmişdir.

Mardakert 1980-ci illərin sonlarından genişlənən erməni separatizminin əsas mərkəzlərindən biri olmuşdur. 1991-ci il noyabrın 26-da Azərbaycan Respublikasının Ali Soveti tərəfindən Dağlıq Qarabağ Muxtar Vilayəti ləğv edilərkən Ağdərənin tarixi adı da bərpa olunmuş, Ağdərə respublika tabeli rayona çevrilmişdir. Ağdərə rayonu 1992-ci il oktyabrın 13-də heç bir səbəbi bəlli olmadan AXC–Müsavat hakimiyyəti tərəfindən ləğv edilmişdir. Ağdərə şəhəri isə Tərtər rayonunun inzibati tərkibinə daxil olunmuşdur.

Qeyd etmək istərdim ki, Ağdərə ilə əlaqədar kifayət qədər məlumatlarımız var. Mən Milli Elmlər Akademiyasına, hörmətli İsa müəllimə, Tarix İnstitutuna, Kərim müəllimə və Dilçilik İnstitutuna təşəkkürümü bildirirəm, kifayət qədər materiallar təqdim ediblər. Ağdərə ilə bağlı bütün tarixi materiallar bir daha ona əsas verir ki, Ağdərə Azərbaycanın tarixi ərazisi olub və orada azərbaycanlılar yaşayıblar.

İkinci məsələ ilə əlaqədar. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Diqqətinizə digər bir məsələni – Azərbaycan Respublikasının Ağdam, Cəbrayıl, Füzuli, Xocalı, Xocavənd, Qubadlı, Laçın və Şuşa rayonlarının inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında növbəti qanun layihəsini təqdim edirəm.

Hazırda "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində aparılan genişmiqyaslı quruculuq işləri həmin rayonların ərazilərinin planlaşdırılmasının və istifadəsinin, burada yaşayan və məskunlaşacaq əhalinin dövlət idarəçiliyinə əlçatanlığının daha səmərəli təşkilini şərtləndirir. Layihədə adları sadalanan rayonların inzibati ərazi quruluşunda bəzi kənd ərazi vahidlərinin inzibati

tabeliyi dəyişdirilməklə onların faktiki yerləşdiyi rayonların inzibati ərazi bölgüsünə daxil edilməsindən, sərhədlərinin dəyişdirilməsindən və ya ləğv olunmasından ibarət müvafiq dəyişikliklərin edilməsi nəzərdə tutulur.

Regional məsələlər komitəsinin iclasında hər iki məsələ geniş müzakirə olunduqdan sonra qanun layihələri baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə edilmişdir.

Hörmətli xanım sədr, Sizin tövsiyənizə əsasən komitəmizin iclasında məsələlərin müzakirəsində adları çəkilən rayonları təmsil edən çox hörmətli deputatlar dəvət olunmuş və hər biri bununla əlaqədar müzakirələrdə dəyərli fikirlərini bildirmişdir. Deputat həmkarlarımı hər iki qanun layihəsinə səs verməyə çağırıram.

Bu qanun layihəsində geniş müzakirə ediləcək bir məsələ yoxdur, yəni möhtərəm cənab Prezident tərəfindən tarixi ədalətin bərpasıdır.

Digər məsələ isə o rayonların bir-birinə yaxınlığı və ərazinin mərkəzinə yaxın olması nəzərə alınır ki, insanların dövlət strukturuna əlçatanlığı olsun. Məsələn, Şuşanın hansısa bir kəndi verilir Xocalıya. O, Xocalının mərkəzinə daha yaxındır, nəinki Şuşanın mərkəzinə. O baxımdan da bütün bunlar nəzərə alınıb, təqdim olunubdur. Deputat həmkarlarımı səs verməyə çağırıram. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Siyavuş müəllim, ətraflı məlumat verdiniz. Yazılanlar var. Məsələ də çox mühüm məsələdir. Mən düşünürəm ki, əgər deputatlar yazılıblarsa, indi baxaq, neçə nəfər çıxış edəcək. Təklif var, 5 dəqiqəyə keçək. Razısınız, 5 dəqiqəyə keçək?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Qüdrət Həsənquliyev. Buyurun.

**Q.Həsənquliyev.** Çox sağ olun. Hörmətli sədr, hörmətli

həmkarlar, media nümayəndələri. Hörmətli sədr, müzakirəyə imkan yaratdığınıza görə təşəkkür edirəm. Mən də Sizi uğurlu səfərlər münasibəti ilə təbrik edirəm, yeni uğurlar arzulayıram.

Hörmətli Siyavuş müəllimi başa düşmədim. Özü 11 dəqiqə çıxış edir, sonra deyir, bu mövzu ətrafında müzakirəyə ehtiyac yoxdur.

Hörmətli həmkarlar, Ağdərə rayonunun yaradılması onunla əsaslandırılır ki, bu ərazilərdə idarəetmənin təkmilləşdirilməsi, dövlət funksiyalarının həyata keçirilməsinin səmərəliləşdirilməsi, habelə gələcəkdə dövlət hakimiyyəti orqanlarının əhaliyə mümkün qədər yaxınlaşdırılması, əhalinin dövlət idarəçiliyinə əlçatanlığının daha səmərəli təşkili məqsədi daşıyır. Bu məqsədlə bu rayon yaradılır. Amma hörmətli həmkarlar, bu yaxınlaşma yalnız fiziki imkanlar kimi başa düşülməməlidir. Çox təəssüf ki, Azərbaycanda yerli dövlət hakimiyyətinin formalaşdırılmasında bizim vətəndaşlar iştirak etmirlər. Bələdiyyələr yerli özünüidarəetmə orqanlarıdır, özü də onların səlahiyyətləri olduğu qədər kiçikdir, azdır. Buna görə mən, əslində, bu müzakirədə iştirak edərək nəyi təklif etmək istəyirəm?

Xalqımız, doğrudan da, dövlət idarəetməsində islahatların aparılmasını zəruri hesab edir. İnsanlar bu barədə hər məclisdə, hər imkan düşəndə danışırlar və bunu gözləyirlər. Cənab Prezident də vaxtı ilə özünün səlahiyyətli nümayəndələrini təyin edəndə söyləmişdi ki, biz gözləyirik, bu, özünü doğruldacaqsa, doğrudan da, müəyyən islahatların aparılmasına ehtiyac olacaq. Ona görə də təklif edirəm ki, Azərbaycanda, ümumiyyətlə, iqtisadi rayonların bazasında 15 yeni region yaradılsın. Bu regionların məclisləri olsun, o cümlədən Naxçıvan Muxtar Respublika-

sının indiki Ali Məclisi də məclis adlandırılsın. Bu məclislər birbaşa xalq tərəfindən seçilsin və regionların rəhbərləri də həmin məclislərdə seçilsinlər. Bu halda, doğrudan da, insanların dövlət idarəetməsinə yaxınlaşması, əlçatanlığı ola bilər. Yəni insanlar birbaşa yerlərdə özlərinin rəhbərlərini seçmiş olarlar.

Hazırda çox təəssüf, müşahidə olunan bundan ibarətdir ki, Azərbaycanda bürokratik aparat bir siyasi qüvvəyə çevrilir. Düşünürəm ki, nə qədər gec deyil, bunun qarşısını almaq lazımdır. Bunun qarşısının alınmasının da tək yolu yerlərdə dövlət hakimiyyət orqanlarının seçkilər yolu ilə formalaşdırılmasıdır. Mən hesab edirəm ki, həm də, ümumiyyətlə, bizim Azərbaycan Respublikasının Milli Məclisinin də adının dəyişdirilməsinə ehtiyac var. Azərbaycan Respublikasının Milli Məclisi Ali Məclis adlandırılmalıdır.

Regionlar inzibati ərazi vahidləri olmalı, onların da məclisləri olmalıdır. Bələdiyyələrə gəldikdə isə hər bir yaşayış məntəqəsinin özünün bələdiyyəsi olmalıdır. Regionlarda isə Azərbaycan Respublikası Prezidentinin Konstitusiyaya nəzarət funksiyasını yerinə yetirən, qardaş Türkiyədə valilərin oynadığı funksiyanı, statusu daşıyan valilər ola bilər, yaxud onun səlahiyyətli nümayəndələri təyin edilə bilər.

Mən hesab edirəm ki, biz bu məsələnin müzakirəsində söylədiyim məsələyə bir daha qayıdaq. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Zahid Oruc. Buyurun.

**Z.Oruc.** Hörmətli sədr, hörmətli Məclis üzvləri. Gerçəkdən də, biz Azərbaycan tarixi üçün çox əhəmiyyətli bir siyasi, iqtisadi qərarı müzakirə edirik. Həqiqətən də, Vətən müharibəsində qələbəmiz təkcə ərazi bütövlüyümüzü, suverenliyimizi deyil, eyni zamanda, inzibati ərazi quru-

luşunu, daxili idarəçilik sisteminin özünü də təkmilləşdirməkdədir. Bu mənada biz bunu Bakının çevrəsində hər hansı bir yeni rayonun yaradılması ilə eyni statistik mənada qəbul etməməliyik. Bu, sözün həqiqi mənasında, şəhidlərimizin, ordumuzun, Ali Baş Komandanımızın, bütövlükdə, millətimizin savaşla qazandığı və indi idarəçilik sistemində yeni inzibati vahidlər olaraq qəbul etdiyi qərarlardır.

Təsadüfi deyil ki, 1990-cı illərdə savaş ən çox məhz qeyd olunan ərazilərdə gedibdir. Azərbaycan coğrafiyası üzrə bizim 1990-cı illərdə itirdiyimiz bölgələrin tarixinə, xronikasına baxsaq, görərik ki, gerçəkdən də, Ağdərə ətrafındakı savaş strateji məna daşıyır.

1992-ci illərdə, burada toxunuldu, bunun tarixinə mən bir azdan qayıdacağam. Amma həmin rayonun ləğvi sırf siyasi hikkə, şəxslərin birinin digərinə olan davası, o dövr ordu birləşmələri olan qüvvələrin qazandığı uğurun hakimiyyət rəhbərləri tərəfindən həzm edilməməsi və sonradan da 1993-cü ildə onların gerçək xaosa gətirib çıxarılmasından sonra qazanılmış uğurların itirilməsi ilə müşahidə olunmuşdu.

İndi tarixi ədalət həm də o mənada bərpa olunur ki, burada deyildiyi kimi, o rayonun həyatında azərbaycanlıların uzun onillər iştirakı, bütövlükdə, sonradan çarizm, Rusiya İmperiyası dövründə Qarabağın xanlıq və onun sonradan rayon kimi təsis olunması və 1920-ci illərdən sonra Dağlıq Qarabağ Muxtar Vilayətinə çevrilməsində inzibati ərazi quruluşu daim dəyişikliyə məruz qalıb. Mən ona görə də əminəm ki, bu qərar məhdudlaşıb qalmayacaq. Bundan sonrakı digər tədbirlərlə də zənginləşəcək və ora qayıdacaq insanlar Qarabağın möhkəmlənməsində iştirak edəcəklər. Amma tarixi ədalətin həm də o mənada bərpasını

mən gözləyirəm ki, vaxtı ilə Şuşa Qarabağın həm iqtisadi, həm mədəni mərkəzi idi. İndiki dövrdə biz artıq onun həm də siyasi mərkəz olduğunu görürük. Yəni cənab Prezident dövlət rəhbərlərini orada qarşılayır, Bakı ilə yaxşı mənada rəqabət qurulubdur və biz buna hamımız sevinirik. Bu mənada Şuşanın Qarabağın mərkəzi kimi təkrar öz statusunu bərpa etməsinə də çox ciddi ehtiyac var. Çünki dediyimiz kimi, 1920-ci illərdən sonra Xankəndinin süni bir şəkildə paytaxtlaşması baş vermişdi və bu, sonrakı hadisələrdə də rol oynadı.

Əlbəttə, mən onu demək istəyirəm ki, Ağdərə ətrafındakı döyüşlər, əgər biz atəşkəs dövrünə baxsaq, 2016-cı ildə 4 günlük Aprel döyüşləri də daxil, 4 dəfə daha çox itkilərin verildiyi atəşkəs pozuntuları baş vermişdi. Onların da hamısı həmin Talış yüksəkliyi, Seysulan və digər ətraflarda olmuşdu. Ona görə də bizim bu gün müzakirə etdiyimiz məsələ, həqiqətən də, sıradan adi məsələ deyil.

Biz yaxşı bilirik ki, Qarabağı landşaft, coğrafiya, inzibati ərazi vahidi və sair üzərində uzun illər bizim iradəmizdən kənardakı bir sistemə uğradıblar. İndi Roman Babayan bizdən bir neçə addımlıqda, dövlət təhlükəsizlik orqanlarının təcridxanasındadır, daha doğrusu, Davud Babayan, – o adam Qarabağın guya xarici işlər naziri idi, – dedi ki, 2020-ci il savaşından, 44 günlük qələbədən sonra Prezident İlham Əliyev Qarabağın landşaftını, infrastrukturunu, tunelləri, yolları və sairəni dəyişib. 100 illər ərzində, gerçəkdən də, düşmənçiliyə xidmət edən həmin yolların özü belə dəyişdirilib. Ona görə də mən hesab edirəm ki, bugünkü verilən qərar sabah orada məskunlaşacaq insanlarımızın daha da möhkəmlənməsinə xidmət edəcək, o rayonları inkişaf etdirəcək. Qarabağın hazırkı quruculuğu, bütövlükdə, Azərbaycan quruculuğunun mühüm bir

güc nöqtəsinə çevriləcək. Tarixən, təəssüflər olsun ki, Qarabağ bizim ən zəif nöqtəmiz olub. İndi isə dövlətin qərarları ilə ən güclü yerimizə çevrilir. Mən bu sənədə səs verəcəyəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Vüqar Bayramov. Buyurun.

**V.Bayramov.** Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Hörmətli xanım sədr, mən də Sizi uğurlu səfər münasibəti ilə təbrik edirəm. Sosial şəbəkə vasitəsi ilə Sizin səfərinizi izləmək imkanımız oldu. Kifayət qədər vacib və Azərbaycan həqiqətlərinin təqdim edilməsi baxımından olduqca faydalı səfərlər idi. O baxımdan Sizi və nümayəndə heyəti üzvlərini bir daha təbrik edirəm.

Bu gün bizim müzakirə etdiyimiz hər iki qanun layihəsi tarixi qanun layihələridir. Hər iki qanun layihəsinin müzakirəsi məhz müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə şanlı ordumuz tərəfindən Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam təmin edilməsi kontekstində mümkün oldu. Bu gün, əslində, müzakirə etdiyimiz Ağdərə rayonunun yaradılması, Qarabağda və Şərqi Zəngəzurda yerləşən digər rayonların inzibati ərazilərində dəyişikliyin edilməsi məhz Azərbaycanın gücünü, Azərbaycanın əldə etdiyi qələbəni bir daha təsdiq edir. Bu kontekstdən, təbii ki, mən də qanun layihəsini dəstəkləyirəm, tarixi əhəmiyyət daşıyır və Azərbaycan tarixi üçün kifayət qədər vacib dəyişikliklərdən biridir.

Qanun layihəsi Qarabağın iqtisadiyyatına və eləcə də Qarabağın idarəetməsinə bir neçə istiqamətdə pozitiv təsir göstərəcək. Əvvəla, nəzərə alsaq ki, bu, Qarabağ iqtisadiyyatının formalaşması və reinteqrasiyası baxımından çox vacibdir. Xüsusən də Qarabağda həm işğaldan azad edilən, eləcə də suverenliyimizin tam bərpa olunduğu ərazi-

lərdə iqtisadiyyatın formalaşması ilə bağlı proseslər sürətli şəkildə davam edir. Artıq Qarabağda məskunlaşma var və Şərqi Zəngəzurla yanaşı, Qarabağda məskunlaşma həm də Qarabağ iqtisadiyyatının formalaşmasına imkan yaradır. Nəzərə alsaq ki, Qarabağ iqtisadi baxımdan böyük potensiala malik olan bölgələrimizdəndir. Ağdərə rayonunun da iqtisadi potensialı kifayət qədər böyükdür. Belə bir rayonun ayrıca olaraq formalaşması və fəaliyyətinə ehtiyac vardır. Çünki Ağdərə rayonu iqtisadiyyatının formalaşması həm də Qarabağ iqtisadiyyatının bir elementi olaraq, eyni zamanda, Azərbaycan iqtisadiyyatına reinteqrasiyası baxımından çox vacibdir.

İlkin qiymətləndirmələr göstərir ki, Ağdərə rayonu daxil olmaqla Qarabağ iqtisadiyyatı Azərbaycanda ümumi daxili məhsulun təxminən 10 faiz həcmində yeni dəyər formalaşdırmaq imkanına malikdir. Bu, o deməkdir ki, bizim bu gün müzakirə etdiyimiz və təsdiq edəcəyimiz Ağdərə rayonu praktik olaraq Qarabağ və Şərqi Zəngəzurla birlikdə Azərbaycanda növbəti illərdə təxminən 10 milyard manat yeni dəyərin formalaşmasına imkan verəcək. Bu dəyər Azərbaycan iqtisadiyyatına reinteqrasiya olunacaq.

Təbii ki, bu, bizim əldə etdiyimiz Zəfərin iqtisadi nəticələridir. Bu gün bizim Qarabağda və Şərqi Zəngəzurda əldə etdiyimiz qələbə müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə suverenliyimizin tam təmin olunması, həm də Azərbaycan iqtisadiyyatında yeni inkişaf drayverinin yaradılmasına imkan verdi. Qarabağ və Şərqi Zəngəzur növbəti mərhələdə qeyri-neft sektorunun və bütövlükdə, Azərbaycan iqtisadiyyatının yeni inkişaf drayverinə çevriləcək. Bu baxımdan, Qarabağda həm Ağdərənin bir rayon olaraq formalaşmasına, həm də Qarabağda və Şərqi

Zəngəzurda digər rayonlarımızın inzibati ərazisinə baxılmasına və dəyişilməsinə ehtiyac var.

Bu qanun layihələri həm də idarəetmənin təkmilləşdirilməsi və səmərəliliyinin artırılması baxımından vacibdir. Çünki Qarabağ və Şərqi Zəngəzurda bu gün formalaşan idarəetmə, əslində, nəinki Cənubi Qafqazda, bütövlükdə, regionda yeni və müasir yanaşmadır. Həm "ağıllı şəhər", "ağıllı kənd" prinsipinə uyğun olaraq idarəetmənin formalaşması, daha çox elektron xidmətlərdən istifadə olunması, həm alternativ mənbələrdən istifadə etməklə kommunal xidmətlərin təminatının həyata keçirilməsi ondan xəbər verir ki, yeni rayonun formalaşması həm də idarəetmədə səmərəliliyin artmasına və daha çevik alətlərdən və mexanizmlərdən istifadə edilməsinə imkan yaradacaq.

Təbii ki, Ağdərə rayonunun yaradılması həm də Qarabağda idarəetmə sistemində yeni bir islahatdır, irəliyə doğru atılmış yeni bir addımdır. O baxımdan mən hər iki qanun layihəsini dəstəkləyirəm. Bir daha qeyd etmək istərdim ki, bu qanun layihələri müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə şanlı ordumuz tərəfindən əldə edilən Zəfərin həm iqtisadi, həm siyasi, həm də strateji nəticələri kimi qiymətləndirilməlidir. Bir daha təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Nigar Arpadarai. Buyurun, Nigar xanım.

**N.Arpadarai.** Hörmətli xanım sədr, hörmətli həmkarlar. Parlament diplomatiyasının önəmi çox böyükdür. Ona görə də xanım sədr, mən də bütün bu təbriklərə qoşuluram. Berlinə və Çexiyaya olan səfəriniz çox uğurlu idi. Təbrik edirəm.

Hörmətli həmkarlar, Azərbaycanın bayrağı Xankəndidə ucaldılır. İşğaldan azad olunmuş bütün ərazilərdə bu gün bizim bayrağımız dalğalanır. Bu gün bizim işğaldan azad

edilmiş ərazilərdə olan yenidənqurma işlərindən danışırıq. Bütün bunlar hər birimizin ürəyində böyük qürur hissi yaradır və buna görə bir daha Ali Baş Komandana və ordumuza təşəkkürümüzü bildirmək istəyirik.

Hörmətli xanım sədr, biz bu gün Ağdərə rayonunun yaradılması haqqında qanun layihəsini müzakirə eləyirik. Bu məsələdə bir təklifim var. Sentyabr hadisələrindən sonra vəziyyət tam olaraq dəyişdi. Çünki Azərbaycanın ərazi bütövlüyü bərpa edildi və bu, o deməkdir ki, bizim inkişaf templərimiz də artacaq. Çünki bundan öncə də, biz, təbii ki, Böyük Qayıdış proqramını müzakirə edirdik və artıq o, icra olunur, yenidənqurma işləri aparılır. Lakin sentyabr hadisələrindən sonra logistika məsələlərində olan dəyişikliklər və həmçinin kommunikasiyaların açılması, bizim ərazilərdə olan o proseslər baxımından inkişaf templəri artır. Ona görə də inkişaf layihələrinin həyata keçirilməsini önəmli hesab edirəm.

Biz həmin ərazilərdə yenidənqurma işlərindən danışırıq. Lakin hesab edirəm, orada xüsusi bir ekosistem də yaradılmalıdır ki, bizneslər, sahibkarlar həmin ərazilərə daha çox gedə bilsinlər. Orada iş yerləri açılsın. Çünki 2026-cı ilə qədər Böyük Qayıdış proqramı çərçivəsində bizim bir çox insanların ora qayıtması planlaşdırılıbdır. Bunun üçün də elə bir şərait yaradılmalıdır ki, onlar müasir iş yerləri tapa bilsinlər, yüksək maaş, yüksək həyat şəraiti olsun. Bu baxımdan da bizim "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyamız var ki, çox uğurludur. Lakin biz daha çox "ağıllı kənd"dən danışanda o kəndin və ya şəhərin idarəçiliyində İKT-nin, yəni bu texnologiyaların tətbiqindən danışırıq. Bununla yanaşı, həmin ərazilərdə daha çox innovasiyalı bizneslərin, yəni biznes inkubatorlarının yaradılmasını, yəni texnoloji sahədə çalışan startapların

ora cəlb olunması üçün də mexanizmlərin yaradılmasını önəmli hesab edirəm. Çünki bu yolla biz orada daha çox yeni texnologiyalara uyğun olaraq, həm özəl, həm də dövlət sahəsində yüksək maaşları verə biləcək şirkətləri yarada biləcəyik. Ona görə də həmin ərazilərin, təbii ki, çiçəklənməsi hər birimizin, dövlətin qarşısında olan bir məqsəddir. Əminəm ki, buna çox uğurla nail ola biləcəyik. Bu qanun layihəsinə səs verəcəyəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Fəzail Ağamalı. Buyurun.

**F.Ağamalı**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, media təmsilçiləri. Mən də dəyərli həmkarlarımın fikirlərinə şərik olaraq, qeyd etmək istəyərdim ki, hörmətli xanım sədr, Sizin Almaniya və Çexiyaya səfərləriniz olduqca önəmlidir. Nəzərə alsaq ki, bu ölkələrin Azərbaycana qarşı münasibəti birmənalı deyildi. Vaxtı ilə onların parlamentləri və ayrı-ayrı səviyyələrdə Azərbaycana qarşı qərəzli münasibətləri özünün ifadəsini tapırdı. Sizin bu səfərləriniz, əminəm ki, bu cür təəssüratları və təsəvvürləri tamamilə dəyişəcək, onlar haqqın və ədalətin yanında olacaqlar. Bu baxımdan parlament diplomatiyasının növbəti ciddi nəticəsi kimi bu səfəri mən yüksək qiymətləndirirəm və Sizə uğurlar arzulayıram.

Hörmətli həmkarımız Siyavuş Novruzov qanun layihəsi haqqında ətraflı məlumat verdi, onun tarixi haqqında bizdə tam təsəvvür formalaşdırdı. Sadəcə, mən qanun layihəsi ilə bağlı demək istəyərdim ki, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən Milli Məclisə təqdim edilmiş Ağdərə rayonunun yaradılması haqqında qanun layihəsi bir daha tarixi ədalətin bərpası yönündə ölkə Prezidentinin siyasi iradəsinin növbəti ifadəsi kimi dəyərləndirilməlidir.

Ciddi proseslər gedir. Azərbaycana qarşı ən müxtəlif

səviyyələrdə təzyiqlər və təhdidlər olsa da, bizim əldə etmiş olduğumuz qələbəni dünya erməniliyi və onların təsiri altında olan ayrı-ayrı qüvvələr qəbul etməsələr də, Azərbaycan öz yolu ilə uğurla getməkdədir. Bu baxımdan, düşünürəm ki, atılmış olan hər bir addım Azərbaycan cəmiyyətinin, Azərbaycan xalqının iradəsinə söykənir və bizim hər birimiz ölkə Prezidentinin bu yöndə atmış olduğu addımların yanındayıq, onunla bərabərik.

Bununla bağlı mən mövzunun mahiyyətinə uyğun olaraq bir neçə təklif vermək istərdim. Keçmiş Dağlıq Qarabağ ərazisində ermənilər Azərbaycanın tarixi adlarını, toponimlərini, yaşayış məskənlərini əcaib adlarla dəyişdirmişlər. Ümidvaram ki, gələcək proseslərdə Siyavuş Novruzovun rəhbərlik etdiyi komitə bu baxımdan yenə də tarixi ədaləti bərpa etmək üçün öz fəaliyyətini davam etdirəcəkdir. Vaxtı ilə Xankəndinin mərkəzi meydanının – Azərbaycana qarşı hədyanlar yağdırılan, separatizmin dəstəkləndiyi bir meydanın adının indi Zəfər meydanı adlandırılması, düşünürəm ki, çox ədalətli bir hadisə olardı. Həmin meydanda, eyni zamanda, Azərbaycan torpaqlarını işğaldan azad edən qəhrəman silahlı qüvvələrimizin monumentinin yaradılması da çox uğurlu bir addım olardı. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Fəzail müəllim.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Sual var, ya da təklif var? Buyurun. Bundan sonra səsə qoyarıq.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Aqil müəllim, imkan verəcəyik, xahiş edirəm, əsəbiləşməyin. Elnur müəllim, buyurun.

**E.Allahverdiyev**. Təşəkkür edirəm. Hörmətli sədr, mənim, sadəcə, çox qısa bir təklifim var. Bu təklif nədən

ibarətdir? Hökumət üzvləri də burada əyləşiblər. Vətən müharibəsində qazandığımız qələbəmiz haqqında, əfsuslar olsun ki, bu günə kimi  bir bədii film çəkilməyib. Dünyaya Azərbaycanın təbliği, Azərbaycanın siyasəti, bu günə qədər olan hadisələr, ümumiyyətlə, bu son 30 ildə baş verənlər və bu müharibənin başlanğıc tarixindən sonuna qədər olanlar haqqında çox gözəl bədii film çəkmək olar. Bunun üçün də, təbii ki, vəsait lazımdır. Amma bu, stimullaşdırıcı bir iş olduğu üçün biz bir daha ayrıca müzakirədə təklif edək ki, bu filmin çəkilməsində vergi güzəşti olsun. Yəni bu, çox vacib bir məsələdir.

Bizim sənədli filmlərimiz var. Amma hələ də bu mövzuda bir bədii filmimiz yoxdur. İkinci Dünya müharibəsindən sonra filmlər çəkilirdi, bütün dünyaya göstərilirdi ki, qalib kimdir və səbəb nə idi.

Mən təklif edərdim ki, bunu ayrıca da olsa komitə iclaslarında bir təklif kimi qeyd edək və stimullaşdırıcı vergi ödənişlərini deyək, azaldıb və yaxud ləğv etməklə bu bədii filmin yüksək səviyyədə çəkilməsi üçün vəsait ayrılmasını araşdırıb tapaq. Təşəkkür edirəm, var olun.

**Sədrlik edən.** Sağ olun, Elnur müəllim. Bu təklifi gərək ikinci oxunuşdan qabaq verəydiniz. Fazil müəllim, Sizin də sualınız var? Buyurun.

**F.Mustafa.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Mən deputat həmkarım Elnur Allahverdiyevin qaldırdığı məsələ ilə bağlı informatik bir məlumat vermək istəyirəm. Yaxın 10 gündə, yəni vaxtı təyin edərik. Milli Məclisin Mədəniyyət komitəsi kino sənayesi, filmlərin çəkilişi və kinonun ƏDV-dən azad olunması istiqamətində bir dinləmə keçirəcəkdir. Komitədə müzakirə məsələsi səsləndirildiyinə görə deyirəm. Orada məsələlərin müzakirəsi olacaq, – Sizin tövsiyənizlə biz gerçəkləşdirəcəyik, – müva-

fiq mütəxəssislər, rejissorlar, prodüsserlər və digər sənət adamları dəvət olunacaqlar. Yəni bu istiqamətdə iş gedir. Onu xatırlatmaq istədim. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, məsələmizə qayıdaq. Təklif var idi ki, səsə qoyaq, ancaq səsə qoymağa hamı razıdır?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Ancaq mən Aqil müəllimə söz verəcəyəm. Aqil müəllim, buyurun.

**A.Abbas.** Təşəkkür edirəm, Sahibə xanım. Niyə danışmaq istədim? Əvvəla, buradakıların çoxu bilir, vaxtı ilə hörmətli Arif Rəhimzadə Ağdərə ilə bağlı belə bir məsələ qaldırmışdı. O vaxt mən də öz münasibətimi bildirmişdim. Ağdərə, əslində, Siyavuş müəllim dedi, keçmiş Dağlıq Qarabağın beşdə ikisi idi. Ən böyük rayonu idi və bütün qərargahlar, ASALA, hamısı Ağdərədə yerləşirdi. 1992-ci ildə Ağdərə azad olunanda mən şəxsən həmin gün Ağdərədə olmuşam. Sözün düzü, əlimə avtomat alıb döyüşməmişəm, ancaq əsgərlərlə bir yerdə olmuşam. O vaxt Ağdərəni səriştəsizliklərindən ləğv elədilər. Mən bunu da deyirəm. Niyə ləğv elədilər, hələ də başa düşməmişəm. Nə isə.

Mənə vaxtı ilə ağdərəlilər müraciət eləmişdilər. Beş min ağdamlı ağdərəli. Çünki üç yerə bölünmüşdü, 5 min ağdərəli ağdamlı sayılırdı. Pasportlarına ağdamlı yazılırdı. Mən onların müraciətini də səsləndirdim o vaxt. Müraciət eləmişdilər ki, biz ağdamlı olmaq istəmirik, ağdərəliyik. Təbii ki, ağdamlı olmaq şərəfdir. Amma hər kəs istəyərdi ki, öz yerindən olsun. Ağdərədə on beş mindən çox azərbaycanlı yaşayırdı. Əslində, Ağdərənin 40 faizi azərbaycanlı idi. Bircə şəhər erməniləşmişdi, o da tam yox.

Bayaq Siyavuş müəllim deyir ki, Ağdərə kiçik dərə deməkdir. Elə deyil, Siyavuş müəllim. Ağ da, qara da türk

dillərində böyük deməkdir. Ağdərəni görənlər bilirlər. Ağdərə başlayır Xankəndinin altından, gəlir gedir Goran-boyda, Tərtərdə qurtarır. Çox uzun, təxminən 40-50 kilometr uzunluğunda bir dərədir, gözəl bir dərədir. O, yəni böyük dərədir.

İndi Ağdərə rayonunun bərpa olunmasına ən çox sevinənlərdən biri mənəm. Mənim babalarımın 3-nün qəbri Ağdərədədir. Mən kolanlıyam, onlar Kolanı kənd-ləridir. Yəni Umudlu, Sırxavənd, Bağlıpəyə və sair. Ağdə-rənin o vaxt bərpa olunması məsələsində rəhmətlik Əhəd Kərimov var idi, tanınmış adam idi, o da məsələ qaldır-mışdı ki, Ağdərə yenidən bərpa olunsun. O da ağdərəli idi, Umudludan idi. Arif müəllim var idi, ikinci katib. Uzun müddət əsir qaldı. O da ağdərəli idi. Yəni ağdərəlilərin başı çox əzab çəkib, çox əziyyət çəkiblər.

Ağdərə heyvandarlıq rayonudur, həm də üzümçülük rayonudur. Şərab zavodu, filan var idi. O vaxt Ağdərənin 11 kəndi ermənilərdən azad olunmuşdu və bu günə qədər də bizdə idi. Yəni böyük də kəndlər idi. Mən də deyirdim, necə olur ki, Xocalının bir kəndi bizdə deyil, rayonu var. Amma Ağdərənin on bir kəndi bizdədir, özü də böyük kəndlərdir. Onun dördü böyük kənddir, əslində. Niyə Ağ-dərə rayonu yenidən formalaşmasın? Ağdərəli köçkünlərə bütün evlər Tərtərdə tikildi. Oradan təxminən 2 kilometr o tərəfdə onların böyük kəndləri vardı. Marquşevan, filan... Niyə orada tikilməsin. Yəni bu məsələni də çox istəyir-dim ki, qaldıram.

Ona görə də mən çox sevinirəm, həddindən artıq sevinirəm, ağdərəlilərin adından sevinirəm ki, rayonları bərpa olunur. Özləri öz rayonlarını idarə edəcəklər. Öz rayonlarında əkəcəklər, becərəcəklər. Ətraf rayonlarda olan kəndlər elə vaxtı ilə Ağdərənin kəndləri idi, indi

yenidən birləşdirdilər Ağdərəyə. Kəlbəcərdən, Tərtərdən, o cümlədən də Ağdamdan. Alqışlayıram bu sərəncamı. Möhtərəm Prezidentə də minnətdarlığımı bildirirəm ki, vaxtında belə məsələləri həll edir. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun, Aqil müəllim. Siyavuş müəllim, səsə qoyuram. Bilmirəm, indi bəlkə də sözünüz var, işçi qaydada bir-birinizə deyərsiniz. Hörmətli həmkarlar, mən qanun layihələrini bir-bir səsə qoyuram. 16-cı məsələyə, yəni Ağdərə rayonunun yaradılması haqqında qanun layihəsinə münasibət bildirməyinizi xahiş edirəm. Çox vacib, çox mühüm məsələdir. Xahiş edirəm, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.54 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Bizim ərazilər azad olunmasaydı, bu gün biz bu məsələyə heç baxa bilməzdik. Ali Baş Komandan möhtərəm Prezident cənab İlham Əliyevin rolunu burada biz mütləq, siz necə vurğuladınız, hörmətli həmkarlar, biz hər birimiz ürəyimizdə yenə də vurğulamalıyıq. Bu məsələ qəbul olundu.

İndi isə 17-ci məsələnin səsverməsinə keçirik. 17-ci məsələni səsə qoyuram, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.55 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu məsələ də qəbul olundu.

**Sədrlik edən.** Fasiləsiz, hamı razıdır?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Hörmətli həmkarlar, 18-ci məsələyə keçirik. “Tibbi sığorta haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Qeyd edim ki, qanunvericiliyin tələbinə əsasən bu qanun layihəsi də bir oxunuşda keçəcək. Məsələyə dair məlumat vermək üçün mən Səhiyyə komitəsinin sədri hörmətli Əhliman Əmiraslanova söz verirəm. Əhliman müəllim, buyurun.

**Ə.Əmiraslanov,** *Milli Məclisin Səhiyyə komitəsinin sədri.*

Hörmətli Sahibə xanım, hörmətli millət vəkilləri. Bildiyiniz kimi, sözügedən qanunun 15-28.3-cü və 15-28.4-cü maddələri 2024-cü il yanvarın 1-nə kimi qüvvədədir. Bu baxımdan əhalinin tibbi xidmətlərə əlçatanlığı və icbari tibbi sığorta üzrə geniş işlərin görülməsi və sistemin formalaşması məqsədi ilə qanun layihəsində dəyişiklik təklif edilir. Dəyişikliklərə əsasən qanunun qeyd olunan maddələrinin müştərək maliyyələşmə məbləğinə aid hissələrinin tətbiqinin 2025-ci il yanvarın 1-nə kimi təxirə salınması nəzərdə tutulmuşdur. Xahiş edirəm, qanun layihəsini dəstəkləyəsiniz. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əhliman müəllim. Çıxış etmək istəyən var. Rüfət Quliyev. Rüfət müəllim, buyurun.

**R.Quliyev.** Təşəkkür eləyirəm. Xanım sədr, hörmətli millət vəkilləri, hörmətli jurnalistlər. Təbiidir, ilk öncə

qeyd eləmək istəyirəm ki, mən bu dəyişikliklərə səs verəcəyəm. Mənim çox qısa formada iki təklifim var. Onu demək istəyirəm, ona görə ki, başqa vaxt imkan yaranmır.

Birinci ondan ibarətdir ki, həqiqətən də, bizim tibbi sığorta inkişaf eləyir, ildən-ilə müsbət istiqamətdə gedir. Bu, danılmazdır. Amma o biri tərəfdən, qeyd eləmək istəyirəm ki, bu gün bunu hamı bilir. Özəl xəstəxanalarda dövlət xəstəxanaları ilə nisbətdə götürəndə bəlkə də, təbiidir ki, servis daha yüksəkdir. Amma burada təcili yardımla əlaqədar, xəstəni özəl xəstəxanaya gətirmək üçün aşağısı 5000, 6000 manat depozit tələb edirlər. Onu da başa düşürəm, özəldir, bunun öz qanunları var. Söhbət ondan gedir ki, bu, adi insanlar üçün kifayət qədər böyük məbləğdir və bu məbləğin bir çoxu tibbi sığorta ilə qarşılanmır, yəni təmin olunmur. Bununla əlaqədar mənim təklifim nədən ibarətdir. Biz gərək dövlət xəstəxanalarına daha çox önəm verək ki, yeni avadanlıqlarla kifayət qədər sürətlə təchiz olunsunlar və çalışaq bu məsələni, yəni təmir məsələsi var... Bunun üçün, yəni dövlət nümayəndələri burada yoxdur, imkan olmadı, çıxış eləyim deyim. Amma buna fikir vermək lazımdır ki, həm tibbi sığorta üçün, həm də insanlar üçün bu, rahat olacaq. Bunu indidən düşünmək lazımdır.

İkinci, mən lap qısa deyim, komitə iclaslarında bunu qeyd eləmişəm. Hörmətli xanım sədr, deməli, Azərbaycanın, daha doğrusu, Bakının bir neçə il bundan öncə əhalisi hələ 2 milyon yarım olanda 175 təcili yardım maşını işləyirdi. Yəni 175 ekipaj var idi. Bu gün aldığım məlumata görə 140-dır və Bakının əhalisi də kifayət qədər artıbdır. İndi bilmirəm, 3 milyondur, bəlkə ondan da çoxdur, ya azdır. Deməli, bu gün təcili yardım maşınını çağıranda ən azı 45 dəqiqəyə, 1 saata, 1 saat yarıma gəlib çıxır. Buna

görə də mən bu tribunadan istifadə edərək müraciət eləyirəm, hər halda dövlət nümayəndələri bunu nəzərə alsınlar. Bu ambulans maşınlarının sayını artırmağa böyük ehtiyac var ki, çağırış vaxtı da azalsın. Diqqətinizə görə təşəkkürümü bildirirəm.

**Sədrlik edən.** Sağ olun. Rüfət müəllim. Siz dediniz ki, çıxış edə bilmədiz büdcə müzakirələrində, bəs yazılı surətdə vermədiniz? Verəydiniz də gərək, mütləq. Çünki kim çıxış etmədi, yazılı surətdə çıxışının mətnini verdi və mən bununla bağlı bu gün danışdım, məlumat verdim. Bunlar hamısı da lazım olan strukturlara getdi.

Hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyuram. Xahiş edirəm, münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.01 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Rüfət müəllim, çıxışınızı yazılı surətdə verin, hələ bu gün biz göndərə bilərik. Çox sağ olun, qanun layihəsi qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin növbəti 3 məsələsi üçüncü oxunuşda olan qanun layihələridir. Biz indi gündəliyin 19-cu məsələsinə keçirik. Bu, Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün mən komitənin üzvü

hörmətli Nizami Səfərova söz verirəm. Nizami müəllim, buyurun.

**N.Səfərov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Hörmətli xanım sədr, parlament diplomatiyasının davamlı inkişafı və Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması sahəsində növbəti uğurlu addımlarla bağlı Sizi və nümayəndə heyətinin üzvlərini təbrik edir və dərin minnətdarlığımı bildirmək istəyirəm.

Hörmətli deputatlar, qanun layihəsi müzakirənizə dəyişiklik edilmədən təqdim olunmuşdur. Üçüncü oxunuşda qəbul edilməsinə səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Nizami müəllim, çox sağ olun. Hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.02 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, növbəti məsələyə keçirik. “Hərbi vəzifə və hərbi xidmət haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Məsələyə dair məlumat vermək üçün mən Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri hörmətli Ziyafət müəllim Əsgərova söz verirəm. Ziyafət müəllim, buyurun.

**Z.Əsgərov,** *Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli deputatlar, qanun layihəsi üçüncü oxunuşa hazırdır, səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Ziyafət müəllim. Hörmətli həmkarlar, layihəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.03 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin 21-ci məsələsinə keçirik. Bu məsələ "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Qanunun icrası ilə əlaqədar bəzi qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb. Mən sözü Əli müəllimə verirəm. Əli müəllim, buyurun.

**Ə.Hüseynli.** Çox sağ olun. Hörmətli xanım sədr, bu paketlə bağlı Hüquq siyasəti və dövlət quruculuğu komitəsi Cinayət Məcəlləsinə, Mülki Məcəlləyə və İnzibati Məcəllənin yeni maddəsinə mütləq rəy vermişdir. Üçüncü oxunuşda səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Qanun layihəsinə 2 ayrı komitədə də baxılıb. Komitələrin birincisi İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsidir. Komitənin rəyini isə mən hörmətli Əli Məsimlidən xahiş edəcəyəm. Əli müəllim, buyurun.

**Ə.Məsimli,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin müavini.*

Çox sağ olun, hörmətli sədr. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi qanun layihəsini dəstəkləyir, layihənin olduğu kimi səsə qoyulmasını xahiş edir.

**Sədrlik edən.** Əli müəllim, çox sağ olun. Layihəyə Elm və təhsil komitəsində də baxılıb. Ona görə də mən komitənin sədri hörmətli Bəxtiyar Əliyevə söz verirəm. Bəxtiyar müəllim, buyurun.

**B.Əliyev,** *Milli Məclisin Elm və təhsil komitəsinin sədri.*

Hörmətli xanım sədr, hörmətli deputatlar. Komitənin rəyi müsbətdir. Komitə qanun layihəsinin lehinədir. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, rəylərə də biz qulaq asdıq. Mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.05 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, biz gündəliyin sonuncu, 22-ci məsələsinə keçirik. Bu məsələ “Hərbi qulluqçuların statusu haqqında”, “Hərbi xidmətkeçmə haqqında” Əsasnamə”nin təsdiq edilməsi barədə, “Əmək pensiyaları haqqında” və

"Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Qeyd edim ki, qanun layihəsi birinci oxunuşda müzakirə olunur. Xahiş edirəm, çıxışlarda birinci oxunuşun tələblərini nəzərə alasınız. Onu da qeyd edim ki, hörmətli həmkarlar, məsələnin müzakirəsi ilə əlaqədar dəvət olunan şəxslər var. Müdafiə Nazirliyinin Hüquq İdarəsinin rəisi hörmətli Elçin Əliyev, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini hörmətli Anar Əliyev, eləcə də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin şöbə müdirləri hörmətli Elnur Abbasov və hörmətli Fazil Talıbov iclasımızda iştirak edirlər. Hörmətli qonaqlar, mən sizin hamınızı salamlayıram.

Hörmətli deputatlar, qanun layihəsinə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin üzvü hörmətli Arzu Nağıyevə söz verirəm. Arzu müəllim, buyurun.

**A.Nağıyev,** *Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü.*

Təşəkkür edirəm, xanım sədr. Mən də sizi və nümayəndə heyətini Avropaya uğurlu səfərlə bağlı təbrik edirəm, nailiyyətləriniz bol olsun.

Hörmətli qonaqlar, hörmətli media nümayəndələri. Son vaxtlar ən çox müzakirə olunan məsələlərdən biri bu qanunlardır. Təklif olunan layihə, əsasən, 3 qanuna və bir əsasnaməyə şamil olunur. "Hərbi qulluqçuların statusu haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamə"nin təsdiq edilməsi barədə, "Əmək pensiyaları haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunlara aiddir. Qanun layihəsi hərbi qulluqçuların pensiya hüququ, təhsil almaq hüququ və xidmətkeçmə müddətləri ilə bağlı

dəyişiklikləri nəzərdə tutur.

Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən bir çox ali təhsil müəssisələrində qiyabi təhsil mövcud olmadığından, Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin peşəkar, bilikli və bacarıqlı hərbi qulluqçularla komplektləşdirilməsi məqsədi ilə “Hərbi qulluqçuların statusu haqqında” Azərbaycan Respublikasının Qanununda müvafiq dəyişikliyin edilməsi təklif olunur. Dəyişikliyə əsasən hərbi qulluqçular müvafiq icra hakimiyyəti orqanının rəsmiləşdirilmiş icazəsi olduqda mülki ali təhsil müəssisələrində təhsil ala biləcəklər.

Bir sözlə, zabitlər, gizirlər və miçmanlar, müddətdən artıq həqiqi hərbi xidmət keçən hərbi qulluqçular əvvəllər mülki təhsil müəssisələrinin qiyabi şöbələrində təhsil almaq hüququna malik idilər. Dəyişikliklərə uyğun olaraq, zabitlər, gizirlər və miçmanlar, müddətdən artıq hərbi qulluqçular mülki ali təhsil müəssisələrində müvafiq icra hakimiyyəti orqanının rəsmiləşdirilmiş icazəsi olduqda ali təhsil ala biləcəklər.

Bundan başqa, dövlət vəsaiti hesabına Azərbaycan Respublikasında və xarici ölkələrdə ali təhsil almış və Azərbaycan Respublikasının Silahlı Qüvvələri üçün hazırlanmış zabitlərin əldə etdikləri peşə bilikləri ilə Silahlı Qüvvələrə töhfə verməsinin və təcrübəsini gənc zabitlərlə bölüşməsinin təmin edilməsi məqsədi ilə “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının Qanununda, Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli müvafiq qanunu ilə təsdiq edilmiş “Hərbi xidmətkeçmə haqqında” Əsasnamədə dəyişikliklərin edilməsi təklif olunur. Belə ki, zabitlərin həqiqi hərbi xidmət dövründə Azərbaycan Respublikasının və xarici ölkələrin ali təhsil müəssisələrində təhsilalma müddəti, eləcə də

ixtisasartırma, kadrların yenidən hazırlanması, stajkeçmə və kadrların təkmilləşdirilməsi üzrə əlavə təhsil müddəti 1 ildən çox olduqda öz arzusu ilə ehtiyata buraxılmaq üçün nəzərdə tutulmuş 10 il müddətinə daxil edilməyəcəkdir. Bu, bir az sual doğuran məsələdir. Misal üçün, tutaq ki, hərbi həkimlər o peşəyə nail olmaq üçün 7 il oxuyurlar. Ondan sonra gəlib 1 il işləyəndən sonra mülki işə keçmək istəyirlər və mülki işə keçəndə əvvəllər o staj gələcək pensiyasına hesablanırdısa, artıq bu, 10 il müddətə daxil olmayacaqdır.

Digər məsələ qadınlarla, gender bərabərliyi ilə bağlıdır. Burada da istefaya və ehtiyata buraxılma məsələsi var. Bir var istefaya getmək, bir də var kadr ehtiyatına buraxılmaq. Qadınların ehtiyata buraxılmaq yaş həddi 50 yaş idi. Bu gün yeni qanunla artıq 50 yaş bunların ehtiyata buraxılmaq müddəti deyil. Kişilərlə eyni vaxtda onlar pensiya hüququ qazana bilərlər. Yəni qadınların həqiqi hərbi xidmətdə olmasının yaş həddi ilə bağlı "Hərbi vəzifə və hərbi xidmət haqqında" Qanunla "Hərbi xidmətkeçmə haqqında" Əsasnamə arasında ziddiyyətin aradan qaldırılması, gender bərabərliyinin silahlı qüvvələrdə də təmin edilməsi məqsədi ilə qadınların həqiqi hərbi xidmətdən ehtiyata buraxılmasının son yaş hədləri kişi hərbi qulluqçularla bərabərləşdirilir.

Digər məsələ. Qanun layihəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları, gizirlər və miçmanlar üçün dinc dövrdə həqiqi hərbi xidmətdə olmanın son yaş həddinin 45-dən 48-ə artırılması təklif olunur. Bu dəyişikliyin məqsədi adıçəkilən hərbi qulluqçuların hərbi qulluqçu kimi pensiyaya çıxmaq üçün minimum xidmətkeçmə müddəti 25 təqvim ili ərzində hərbi xidmətdə olmalarının təmin edilməsi, habelə onların təcrübəsindən daha

səmərəli və uzun müddət yararlanmaqdır. Burada da MAXE deyilən müddətdən artıq xidmətkeçənlərlə bağlı müəyyən suallar vardı. Onların xidmətdə olmalarının son yaş həddi əvvəllər 45 yaş idi, indi 48-ə keçəndən sonra fəaliyyətlərini daha geniş davam etdirmələri üçün onlara kiçik leytenant rütbəsinin verilməsi Müdafiə Nazirliyi və digər qurumlar tərəfindən nəzərdə tutulur.

Qanun layihəsində yuxarıda qeyd olunan dəyişikliklərlə yanaşı, dövlət tərəfindən yetişdirilməsinə zaman və resurs sərf edilmiş hərbi qulluqçuların formalaşmış təcrübəsindən daha uzun müddət istifadə etmək məqsədi ilə hərbi qulluqçu kimi pensiyaya çıxmaq üçün minimum hərbi xidmətkeçmə müddətinin 20 təqvim ilindən 25 təqvim ilinə çatdırılması təklif olunur. Qeyd olunan dəyişiklik hərbi qulluqçuların pensiya təminatında hər hansı azalmanı istisna etməklə, bir sıra qurumların hərbi qulluqçularının pensiya artımını nəzərdə tutur. Belə ki, minimum xidmət müddətinin artırılması ilə yanaşı, həmin dövrə qulluq stajına görə faizin 50-dən 65 faizə qaldırılması təklif edilmişdir. Buna da kiçik bir izahat vermək istəyirəm. Əvvəllər 20 tam təqvim ili stajı olan hərbçi artıq son məvacibinin 50 faizini qazanmış hesab edilirdi və əlavə də xidmət etdikcə o, qurumdan asılı olaraq hər ilə görə pensiyasına 3 və yaxud 2 faiz əlavə olunurdu. İndi 25 xidmət ili olandan sonra əmək haqqının tam şəkildə 65 faizini əldə edir və bundan sonra əlavələr üçün, – indi Müdafiə Nazirliyi ona izahat verər, – bəzi qurumlarda 3 faiz, bəzilərində də digər faizlər hesablana bilər.

Qanun layihəsinin 2024-cü il yanvarın 1-dən qüvvəyə minməsi nəzərdə tutulur.

Bundan başqa, layihəyə əsasən qeyd etdiyim kimi, əgər hərbi qulluqçunun bu gün 17 təqvim ili varsa, 20 il ona şa-

mil olunur. Hətta yanvar ayının 3-də bunun 21 ili tamam olubsa, o həmin 20 illə təqaüdə çıxmaq hüququna malikdir. Bu halda "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 2024-cü il yanvarın 1-dək qüvvədə olan normativləri tətbiq edilir. Bu normalar hərbi qulluqçuların qazanılmış hüquqlardan istifadəsinə hərtərəfli imkan verəcəkdir.

Yəni hər iki komitədə buna baxılıb. Eyni zamanda, Müdafiə Nazirliyinin, Siz də qeyd etdiyiniz kimi, xanım sədr, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nümayəndələri suallara geniş cavab veriblər.

Xanım sədr, bir də qeyd etmək istəyirəm, artıq bizim elektron poçtumuza da suallar gəlir və bu sualların da, demək olar ki, hamısının cavabı məhz o komitələrdə verilib. Təbii ki, geniş təbliğat, təşviqat işinə də mütləq şəkildə yanaşmaq lazımdır. Bununla bağlı Müdafiə Nazirliyi də, digər qurumlar da hüquqi müstəvidə çalışan işçilərinə belə tapşırıq vermişlər.

Qanun dövlət, dövlətçiliklə, eyni zamanda, ordumuzun komplektləşməsi ilə bağlıdır. Azərbaycan Ordusunun və digər hərbi qurumların inkişafına müsbət təsir edən bir qanundur. Təklif edərdim ki, qanuna müsbət səs verəsiniz.

**Sədrlik edən.** Çox sağ olun, Arzu müəllim. Hörmətli həmkarlar, qanun layihəsinə Əmək və sosial siyasət komitəsində də baxılıb. Komitənin rəyini bildirmək üçün, Musa müəllim, mən Sizə söz verirəm. Buyurun.

**M.Quliyev.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Hörmətli millət vəkili, həmkarımız Arzu Nağıyev qanun barəsində olduqca ətraflı məlumat verdi, bütün detalları, demək olar ki, izah etdi. Deyilən bütün fikirlərlə biz şərikik. Eyni zamanda, bizim komitənin də bu qanun layihəsi ilə bağlı fikirlərini diqqətinizə çat-

dırmaq istəyirəm.

Əsas məqam ondan ibarətdir ki, belə bir qanunun hazırlanmasına zərurət nədən yaranıbdır və qanunun konsepsiyası, konseptual baxımdan əsaslandırılması barədə komitənin mövqeyini diqqətinizə çatdırmaq istəyirəm.

Hörmətli həmkarlar, 2020-ci ildəki 44 günlük Vətən müharibəsi və ondan sonrakı 3 il xalqımızın tarixinin ən şərəfli, ən qürurlu səhifələridir. Məhz bu illərdə cənab Ali Baş Komandanın rəhbərliyi altında müzəffər Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etdi, ərazi bütövlüyümüzü təmin etdi və bütün ölkənin ərazisində suverenliyimizi bərpa etdi. Bu şanlı tarixi qələbələr üçün biz ilk olaraq qəhrəman şəhidlərimizə və qazilərimizə borcluyuq. Xalq və lider birliyindən güc alan müzəffər silahlı qüvvələrimizə minnətdarıq.

Döyüş meydanında darmadağın olan, kapitulyasiya aktını imzalayan Ermənistan, təəssüf ki, hələ də ağlını başına yığmır, Qərbdəki imperialist ağaların vədlərinə şirnikərək müxtəlif bəhanələrlə sülh danışıqlarından yayınır, bölgədə hərbi, siyasi gərginliyi artıran manevrlər etməkdədir. Ermənistanın revanşist xəyallarından əl çəkməyərək bölgədə sülhə təhlükə yaratdığı bir zamanda biz milli təhlükəsizliyimizi və milli maraqlarımızı təmin etmək üçün silahlı qüvvələrimizin döyüş və müdafiə qabiliyyətinin daha da artırılması üçün sistemli tədbirlər görürük və bundan sonra da görəcəyik.

Hər bir ordunun qüdrəti onun hərbi-texniki təminatı ilə birlikdə, həm də ən əsası peşəkar kadrlarla komplektləşdirmə səviyyəsi ilə bağlıdır. Bilikli, bacarıqlı, peşəkar və təcrübəli kadr isə bir günün, bir ayın, bir ilin içərisində yetişmir. Onların formalaşması üçün illərlə vaxt, əmək və büdcə vəsaiti sərf olunur. Bir çox peşələr kimi hərbçi

peşəsi də ənənələr üzərində formalaşır, qabaqcıl beynəlxalq nümunələrin öyrənilməsi, yerli xüsusiyyətlərə və tələbatlara uyğunlaşdırılaraq tətbiq edilməsi, habelə əvvəlki nəsillərin təcrübəsinin sonrakı nəsillərə ötürülməsi yolu ilə inkişaf edir və zənginləşir.

Bu gün müzakirənizə təqdim edilən qanun layihəsi də ordumuzun daha da gücləndirilməsi, silahlı qüvvələrimizin bilikli, bacarıqlı, hazırıqlı kadrlarla komplektləşdirilməsi, hərbçilərin təhsil, xidmətkeçmə, sosial müdafiə və pensiya təminatları sahəsində hüquqi bazanın möhkəmləndirilməsi məqsədi ilə hazırlanmışdır.

Əsas sual doğuran məsələlərdən biri xidmətdə olanların son yaş həddinin 45-dən 48-ə qaldırılması ilə bağlıdır. Yəni bu 3 illik yaş həddi, bütövlükdə, hərbi xidmətdə olan, hərbi rütbələr daşıyan və hərbi vəzifələr tutan şəxslərə aid edilmir. Yalnız MAXE-lərə, yəni müddətdən artıq hərbi xidmət edənlərə, gizirlərə və miçmanlara şamil edilir. Qalan rütbələrdə isə orada olmanın son yaş həddi olduğu kimi saxlanılır.

Digər bir məsələ, pensiyaya çıxmaq üçün minimum xidmətkeçmə tələbinin 20-dən 25 təqvim ilinə çatdırılması ilə bağlıdır. Bu da qeyd etdiyim kimi, peşəkar, səriştəli, bilikli hərbçilərin təcrübəsindən daha çox yararlanmaq və hərbiyə yeni cəlb olunan gənclərin də bu təcrübədən öyrənərək yenidən formalaşması üçün əsaslar yaratmaqla bağlıdır.

Burada hörmətli Arzu müəllim izahat verdi. Pensiya təminatında, əksinə, artımlar olacaq. Çünki pensiyaya çıxmaq üçün lazım olan təminat xərclərinin hesablanmasında 50 faizdən 65 faizə qaldırılır. Eyni zamanda, kimsə xidmət dövründə 25 ildən artıq qalıb qulluq edəcəksə, onların həmin təminat xərclərinə 65 faizin üzərinə 2 və ya 3

faizlik əlavələr də olacaqdır.

Eyni zamanda, onu da qeyd etmək istəyirəm ki, bu qanun yanvarın 1-dən qüvvəyə minir. Ancaq yanvarın 1-nə qədər 17 il və daha çox xidmət etmiş şəxslər istədiyi vaxt ordudan tərxis olunub pensiyaya gedə bilərlər.

Göründüyü kimi, burada heç bir hüquq məhdudlaşdırılmasından söhbət getmir. Milli maraqlarımızı təmin edən, ordumuzu gücləndirən və peşəkar kadrlarla komplektləşdirməni artıran bir hüquqi baza yaradılır. Hörmətli millət vəkili həmkarlarımdan qanun layihəsini dəstəkləmələrini xahiş edirəm. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Musa müəllim, ətraflı məlumat verdiniz. Əslində, Sizin keçirdiyiniz komitə iclasında da bütün bu məsələlər, mən bilirəm ki, çox aydın şəkildə müzakirə olunub. Ziyafət müəllim, Sizin də komitənizdə, mən burada yox idim, ancaq mənə dedilər ki, məsələlər çox ətraflı müzakirə olunubdur. Arzu müəllim də burada, əslində, hətta verilməyən suallara da cavab verdi. İndi isə müzakirələrə keçirik. Razi Nurullayev. Buyurun.

**R.Nurullayev.** Təşəkkür edirəm, xanım sədr. Hörmətli deputatlar, hərbi xidmət müddətinin 20 ildən 25 ilə qədər qaldırılması hərbçilər arasında müəyyən narahatlıq yaradıb. Təklif edirəm ki, 5 il birdəfəyə tətbiq edilməsin. Ən azından yaşa görə əmək pensiyasına tətbiq olunan düstur kimi bu müddət hər il 6 ay artırılmaqla həyata keçirilsin. Hərbçilərin köhnədən qalan problemləri var və istəməzdik ki, yeni problemlər də müəyyən narahatlıqlar yaratsın. Müharibə dövründə qismən səfərbərliklə döyüşmək üçün orduya çağırılmış əsgər və zabitlərimiz müharibədən sonrakı aylarda da, hətta mart ayına qədər xidmətlərini davam etdirmiş, işğaldan azad olunmuş ərazilərimizdə antiterror əməliyyatlarına cəlb edilmiş, bəzi

rayonların müdafiə və mühafizəsində iştirak ediblər. Mənə müraciət etmiş zabitlərin və əsgərlərin hərbi biletlərini nəzərdən keçirəndə aydın olur ki, bu zabitlər Müdafiə Nazirliyinin şəxsi heyətinə daxil edilmiş, təyinat aldıqları hərbi hissələrdə döyüş tapşırıqları almış, Füzuli, Cəbrayıl və Zəngilan rayonlarının işğaldan azad olunmasında, Laçın və Qubadlının müdafiə və mühafizəsində iştirak etmiş, əsgərlərin yüksək döyüş hazırlığının təmin olunmasında, döyüş tapşırıqlarının yerinə yetirilməsində, eləcə də maddi-texniki təminatın təmin olunmasında yaxından iştirak etmişlər. Bu zabitlərin göstərdikləri xidmətin mənəvi, psixoloji təminat, maddi-texniki təminat meyarlarına uyğun olmasına baxmayaraq, Müdafiə Nazirliyi müharibə başa çatandan sonra imzaladığı 2021-ci il 4 mart tarixli əmri ilə N saylı hərbi hissələri (bunlar 10 hərbi hissədir) tamamlama mərkəzi adlandırdığından həmin hərbi hissələrdə xidmət etmiş hərbi qulluqçulara müharibə veteranı adının verilməsi faktiki olaraq mümkünsüz olub. Halbuki hərbi sahədə olan qanunvericilik aktlarında "tamamlama" termini barədə bir kəlmə belə yoxdur. Yəni bu N saylı hərbi hissələr döyüşən hərbi hissələrin təminatı üçün yaradılmış və hətta döyüş əməliyyatları üçün vəzifəyə təyin olunub. Bir faktı da qeyd edim ki, zabitlərin arasında səfərbərliklə çağırılıb tibbi təminat göstərən həkim zabitlər də veteranlıq adını ala bilməyiblər.

Bundan başqa, müharibənin qızğın çağında komandirlərin əmrinə tabe olub ezamiyyə vərəqəsiz döyüş tapşırıqlarını yerinə yetirmiş çoxsaylı zabitlərimiz ezamiyyə vərəqələrini təqdim edə bilmədiklərindən bu gün müharibə veteranı adını ala bilməyiblər. Belə ki, müharibə dövründə, yəni sentyabrın 27-dən noyabrın 10-dək olan tarixlərdə bu zabitlər ezamiyyə vərəqəsiz ön cəbhəyə gön-

dərilsələr də, həmin dövrdə onların ön cəbhədə olduqları yeri sənədlə müəyyən etmək mümkün deyil. Buradan bir daha aydın olur ki, bu zabitlər döyüş meydanında olub.

Nəhayət, “Veteranlar haqqında” Qanun günümüzün reallıqlarını əks etdirmir və buna görə də təkmilləşdirilməlidir. Təəccüblüdür ki, müharibə veteranı adının verilməsinə dair meyarlar bu qanunda deyil, Nazirlər Kabinetinin 420 saylı qərarında yazılıb. Məncə, əksinə olmalı idi. Digər tərəfdən, qanunda “müharibə veteranı” anlayışının tərifi verilmədiyindən qeyri-müəyyənlik yaranıb. Belə ki, 1941–1945-ci illərdə keçmiş sovet ordusunda daxili işlər və dövlət təhlükəsizliyi orqanlarında hərbi xidmətdə olmuş, lakin döyüş əməliyyatlarında iştirak etməmiş hərbi qulluqçulara da bu qanunun 3-cü maddəsində müharibə veteranı adının verilməsi təsbit edilib. Onda sual olunur, müharibə veteranı kimlər hesab edilir? Qanunun 3-cü maddəsindən belə başa düşülür ki, müharibə veteranı adı həm döyüş əməliyyatlarında iştirak etmiş, həm də döyüş əməliyyatlarında iştirak etməmiş hərbi qulluqçulara verilə bilər. Əgər belədirsə, onda mənə müraciət etmiş zabit və əsgərlərə də müharibə veteranı adı verilə bilər. Lakin indiyə kimi onlara belə bir ad verilməyib. Bu da onların narazılığına səbəb olur.

Futbol oyunu üzrə sadə bir məntiq onu deməyə əsas verir ki, 11 nəfərlə meydanda mübarizə aparan komanda sonda qələbə çalıb kubok qazanırsa, bütün komanda üzvlərinə mükafat verilir. Eləcə də mənə müraciət edən zabitlər səfərbərlik dövründə ordu sıralarına cəlb edilərək müharibədə döyüşmək üçün çağırılmışdılar. Onlar vətənin müdafiəsinə qalxmışdılar. Düşmən hər an onları hədəfə ala bilərdi. Bu halda onlar şəhid və ya qazi ola bilərdilər. Müdafiə Nazirliyinin indiki yanaşmasına görə yenə də

onlara heç bir ad verilməzdimi? Bu baxımdan onlara müharibə veteranı adının verilməməsi, sadəcə, təəssüf və məyusluq doğurur. Bu zabitlərin bir adı var, o da müharibə iştirakçısı adıdır.

Hörmətli Sahibə xanım, əgər mümkünsə, xahiş edirəm, bu məsələdə tam olaraq qanunvericiliyin müddəalarının ortaya çıxarılması üçün Milli Məclisin müvafiq komitə və şöbələrinə göstəriş versəniz, bu məsələləri araşdırıb bəlkə də mənim dediklərimdən daha dolğun və yaxud əksini çıxarıb ortaya qoya bilərdilər. Bunun da əsasında müəyyən işlər görülsün. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Fazil Mustafa. Buyurun.

**F.Mustafa**. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, media nümayəndələri. Düşünürəm ki, hərbçilərimizlə bağlı Azərbaycanda, əslində, son illərdə, xüsusi ilə də Qarabağda Ali Baş Komandanın rəhbərliyi ilə qazandığımız qələbədə cəmiyyətdə birmənalı bir münasibət var və hərbçilər Azərbaycanın ən əhəmiyyətli, ən dəyərli bir işini görmüşlər. Hətta ölkə Prezidenti də Xankəndidə Azərbaycan Ordusunun rəsmi paradını qəbul edərkən belə bir ifadə işlətdi ki, bu qələbənin əsas memarı Azərbaycan əsgəridir, Azərbaycan Ordusudur. Yəni belə olan halda Azərbaycan Ordusunun vəziyyətini yaxşılaşdıran, onların hüquqlarını genişləndirən hər bir addım, təbii ki, təqdirlə qarşılanmalıdır. Mənim fikrimcə, ya bu hüquqlar genişləndirilməlidir, ya da bu hüquqlara toxunmamaq lazımdır.

Bu qanunda kifayət qədər ciddi məsələlərə toxunulur. Təbii ki, pensiya hüququnun artması müsbət hal kimi sayıla bilər. 50 faizdən 65 faizə qaldırılır və hərbçilərə bir stimul verir. Amma hərbi xidmətə gedənlər əsasən kimlərdir? İki kateqoriya olur. Biri doğuşdan, ailə mühitindən gələn bir ənənə var, kimsə hərbçi olmaq istəyir, könüllü

olaraq bu peşəni seçir. Bir də müddətdən artıq hərbi xidmətə çox sayda o insanlar gedir ki, başqa sahələrdə iş tapa bilmirlər. Məşğulluq problemini həll edə bilmirlər və onlar maaş almaq, normal, düzənli bir sosial təminat əldə etmək üçün hərbiyə gedirlər. Yəni bunlar bir az da könüllükdən deyil, məcburiyyətdən, həyatın məcbur etdiyi şərtlərdən hərbi sahəyə gedirlər. Təbii ki, bu kateqoriyaların hamısının eyni qaydada dözümlü şəkildə 20 il xidmət etməsi böyük bir çətinlik yaradır. Məsələn, Türkiyədə bu barədə problem olmur. Türk ordusunda rotasiya sistemi elə işləyir ki, hamı 2 il Ankarada, İstanbulda, Diyarbəkirdə, başqa yerlərdə işləyən bu xidməti keçir. Bizdə bu rotasiya prinsipi bir çox hallarda gözlənilmədiyinə görə, 25 il uzadanda 25 il Bakıda şad-xürrəm, rahat şərtlərdə xidmət edən adam üçün problem yaratmır. Amma döyüş bölgəsində, çətin şəraitdə xidmət edənlər bunun xeyli əziyyətini çəkirlər və bu, elə bir peşədir ki, burada insanın psixoloji və fiziki cəhətdən tez sıradan çıxması mümkün olur.

Ona görə də bu müddətin 20 ildən 25 ilə qaldırılması məntiqi cəhətdən ciddi əsaslandırılmalıdır və ictimaiyyətə açıqlanmalıdır. Digər tərəfdən, qadınlarla kişilərin gender bərabərliyini əsas götürərək xidmət müddətinin bərabərləşdirilməsi. Biz pensiya yaşında bunu bərabərləşdirmirik, başqa şeylərdə bərabərləşdirmirik və burada hansı bir əlahiddə vəziyyət yaranır ki, qadınları da çətin hərbi xidmət şərtlərində kişilərlə eyni vəziyyətə gətirib çıxarırıq. Gender bərabərliyini bizim daha çox başqa sahələrdə gözləməyimiz məntiqli olar.

Təhsillə bağı məsələdə çox ciddi bir problem var. Məncə, burada yuxarı rəhbərliyin, müvafiq icra orqanının razılığı o deməkdir ki, bu, birinci növbədə, müəyyən dərəcədə korrupsiyaya yol aça biləcək bir məsələdir. Kimə

icazə veriləcək, kimə verilməyəcək. Bu, sual doğurur. İkinci, bu razılığı ancaq xarici təhsil müəssisəsinə şamil etmək olar. Çünki hərbi sirri bilən hərbçidir, xarici ölkədə təhsil alması problem yaradar, Türkiyə istisna olaraq. Amma hərbçinin təhsil hüququ, oxumaq hüququ. Bu, gələcəkdə 45 yaşdan sonra pensiyaya çıxdı, harada isə bir ixtisas əldə edib işləmək istəyir. Bu, necə olacaqdır, necə tənzimlənəcəkdir? Bu, sual olaraq qalır.

Digər tərəfdən, bizim dissertasiyalar kimi. İndiyə qədər də icazə verilmir, hüquq mühafizə orqanında işləyən, dövlət məmuru olan şəxslər müdafiə etməkdən məhrum olublar. Bu, insan hüquqlarının pozulduğu bir sahədir. Ona görə də təhsil hüququna bu cür müdaxilə məsələsi də, açığı, bir az narahatlıq doğuran məsələlərdən biri hesab oluna bilər. Burada 5 ildən 10 ilə artırma məsələsində də yenə könüllülük prinsipini qismən tətbiq etmək daha doğrudur. Yəni bir var zorən kimsə müddət gözləyir ki, 10 il, bu, yaxşı, keyfiyyətli xidmət etməyəcəkdir. Bunu, heç olmasa, müəyyən dərəcədə stimullaşdırmaq üçün 10 ilə qədər xidmət edənlərə daha böyük avantaj, daha böyük hüquq, daha böyük imkanlar, perspektivlər açmaq lazımdır ki, könüllü şəkildə hərbi xidməti davam etdirməkdə insan özü maraqlı olsun. Yoxsa, narazı, şikayətçi halda müəyyən sosial problemlərin içində qala-qala bunu etmək olmur. Bir də hərbçilərin bir prosesinə də diqqət etmək lazımdır.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Bəli, Fazil müəllim, 5 dəqiqəyə keçmişik. Fikrinizi bitirin.

**F.Mustafa.** Hərbçilər ayrı-ayrı yerlərdə xidmət etdiyinə, dislokasiya dəyişdiyinə görə, əslində, uşaqlarının təhsili natamam olur. Bunların ailə problemləri böyük

olur. Çünki kimsə şəhərdən rayona getmək istəmir, bölgələrə getmək istəmir. Ona görə də bu kateqoriyadan olan insanların bütün həssaslığını ciddi araşdıraraq qanunda dəyişiklik etsək, məncə, onlara daha böyük bir töhfə vermiş olarıq. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Qüdrət Həsənquliyev. Buyurun.

**Q.Həsənquliyev**. Təşəkkür edirəm, hörmətli sədr. İlk öncə onu qeyd etmək istəyirəm ki, dünyanın bütün ölkələrində ordu cəmiyyətin ən elitar təbəqəsi sayılır. Bu, Azərbaycanda da belədir. Orduya o şəxslər gedirlər ki, onlar yüksək ali dəyərlərə sahib insanlardırlar, öz həyatlarını vətən üçün, torpaq üçün qurban verməyə hazırdırlar və buna onların fiziki imkanları yol verir. Azərbaycanda da peşəkar ordu qurulmalıdır. Bu barədə mən çox danışmışam və doğrudan da, Azərbaycan Ordusu axırıncı döyüşlərdən ay yarım qabaq sentyabrın 20-də çıxıb. Müharibə hələ bitməyib, sülh sazişi imzalanmayıb. Bu gün Fransa Ermənistanı silahlandırır və Ermənistan bizim işğal altında qalan 8 kənddən öz qoşunlarını çıxarıb, həmin əraziləri azad etmək istəmir. Ona görə də qarşıda bizi yeni hərbi toqquşmalar gözləyə bilər. Çox təəssüf ki, belə reallıqlar qorunub saxlanır. Ona görə də, qalib ordunun zabitləri ilə, müddətdən artıq hərbi qulluq keçən insanlarla bu tezlikdə onların sosial hüquqlarının bu formada məhdudlaşdırılması ilə bağlı qanun layihəsinin təqdim olunması, doğrudan da, mənim üçün şəxsən başa düşülən olmadı. Uzun müddət idi bu istiqamətdə müzakirələr gedirdi.

Baxın, bizim Şuşada xüsusi təyinatlılar hansı şücaət göstərdilər. Onlar yarım metr qarın içərisində, meşədə çiyinlərində böyük bir yük o dağları dırmaşdılar, o meşələrdən keçdilər, Şuşanı azad etdilər.

Dünyada 35 yaşdan yuxarı bir peşəkar idmançı göstərin. Yəni bunlar təsadüflərdir, barmaqla göstərilə bilər. Ona görə ki, insan yaşlandıqca onun çevikliyi azalır, fiziki imkanları məhdudlaşır. Ona görə də 20 il xidmətdən sonra bizim bu müddətdən artıq xidmət edən zabitlərin ehtiyata çıxmaq hüquqları olmalıdır və onlar pensiya ala bilməlidirlər.

Burada məruzəçilərin heç biri tərəfindən qeyd olunmadı ki, biz təkcə hərbi xidmət müddətini artırmırıq, həm də onların mənzil almaq hüququnu da əllərindən alırıq. 20 il xidmətdən sonra onlar mənzil ala bilirdilər. İndi o hüquq da onların əlindən alınır. Yəni o hüquq saxlanılmır ki, 25 il xidmət et, amma 20 ildən sonra mənzil al. Ümumiyyətlə, bu gün ehtiyata çıxan zabitlər 3-5 il ərzində mənzillə təmin olunurlar. Tələb olunandan hər il ən azı 500 ədəd az mənzil tikilir. Müdafiə Nazirliyinin nümayəndəsi burada oturub, əgər mən bu rəqəmlərdə yanlışlığa yol verirəmsə, qoy, özü desin ki, onlar ehtiyata çıxandan sonra nə qədər müddətə mənzillə təmin olunurlar.

Orduya xüsusi diqqət lazımdır, orduya qayğı lazımdır. Bu müddətlərin artırılması, onların təhsil aldıqları dövrün, əgər bir ildən artıq müddətə təhsil alırlarsa, o müddətin staja hesablanmaması, yəni bunların hamısı sosial hüquqların məhdudlaşdırılmasıdır. Hörmətli sədr, mən bunu şəxsən düzgün hesab etmirəm.

Çoxlu sayda hərbçilər var. Bilirsiniz, hərbçilər elə bir kateqoriya insanlardır ki, kollektiv şəkildə etiraz etmək, ümumiyyətlə, onlara qanunla qadağandır. Fərdi qaydada da bir çox hallarda onlar bunu etmirlər. Amma millət vəkillərinə söyləyirlər. Biz cəmiyyətdə yaşayırıq, onların ailə üzvləri, yaxınları bizimlə söhbət edirlər. Mən əminəm, əminliklə də burada sizlərə də söyləyirəm ki, bu, onlar

arasında da birmənalı qarşılanmayıb, narazılıqla qarşılanır. Hesab edirəm ki, bu məsələ, ümumiyyətlə, gündəmdən çıxarılmalıdır. Gələcəkdə peşəkar ordu quruculuğuna keçiləndə, ola bilsin ki, bu məsələlər orada müzakirə oluna bilər.

İndi insanların çoxu Müdafiə Nazirliyi ilə müqavilə bağlayıblar. Müdafiə Nazirliyi ilə müqavilə bağlayanda onlar elə hesab edirdilər ki, 20 ildən sonra ehtiyata çıxa və mənzil ala biləcəklər. Amma indi birdən-birə biz bunların bu hüququnu əlindən alırıq. Yalnız əgər 17 il xidmət edibsə, o şəxslər üçün bu hüquq saxlanılır. Bəs digərləri? Bu qanun, heç olmasa, o şəxslərə şamil olunmalıdır ki, onlar bu qanun qəbul olunandan sonra müqavilə imzalayacaqlar. Həmin şəxslərə şamil oluna bilər, artıq müqavilə imzalamış şəxslərə yox. Ümumiyyətlə, hesab edirəm, doğrudan da, orduda da islahatlara ehtiyac var və Azərbaycanda peşəkar orduya keçməyin vaxtı çatıb. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Vüqar Bayramov. Buyurun.

**V.Bayramov**. Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Mən də konseptual olaraq bir sıra məqamları təqdim etmək istərdim. Əvvəla, hərbi qulluqçuların sosial təminatının gücləndirilməsi Azərbaycanda müzəffər Ali Baş Komandanımızın diqqətində olan məsələlərdəndir və bütün rəqəmlər göstərir ki, həm mənzil təminatında, həm də hərbi qulluqçularımızın əmək haqlarının artmasında praktik olaraq hər il biz artımları müşahidə etmişik və son artımlar, Zəfər gününə təsadüf etdi. Sonra xəbər verilir ki, hərbi qulluqçularımızın sosial təminatının gücləndirilməsi praktik olaraq prioritetdir və bu, prioritetliyini qoruyub saxlayacaq.

Qanun layihəsi ilə bağlı bir sıra konseptual məsələləri qeyd etmək, həm də bir iqtisadçı olaraq bəzi məsələlərə

aydınlıq gətirmək istərdim. Əvvəla, bəzi çıxışlarda qeyd olunurdu, sosial təminat hüququnun məhdudlaşdırılması. Bu qanun layihəsi sosial təminat hüququnu heç bir halda məhdudlaşdırmır. Niyə məhdudlaşdırmır? Çünki biz mövcud qanuna baxsaq, – indi həmin qanunda dəyişiklik edirik, – mövcud qanuna əsasən hərbçimiz pensiyaya çıxan zaman onun təminat xərclərinin 50 faizi nəzərə alınmaqla pensiyası hesablanır. Yəni bu, o deməkdir ki, mövcud qanunla hərbçimiz 20 ildən sonra pensiyaya çıxmaq hüququ əldə edir, o zaman onun pensiya məbləği 50 faiz nəzərə alınmaqla hesablanır. Əgər o, işinə davam etsə, 25 il işləsə, o zaman hər il üçün pensiyasına 2 faiz əlavə olunur. Yəni bu, o deməkdir ki, 25 il işlədiyi halda maksimum 60 faiz təminat xərci ilə onun pensiyası və digər əlavələr nəzərə alınmaqla pensiya məbləği hesablanacaq. İndiki qanuna təklif edilən dəyişikliklərlə nə baş verir? Bu halda hərbçimiz 25 il qulluq etdikdən sonra onun pensiya məbləği 60 faiz deyil və ya 20 ilə 50 faiz deyil, 65 faiz hesablanacaq. Hətta yəni 2 faiz əlavəni nəzərə alsaq belə, 25 il qulluq göstərmiş hərbçimizin pensiya məbləği 65 faiz, əvvəl hesablanmış məbləğdən 5 faiz çox olacaq. Yəni bu, əslində, onu göstərir ki, qanunda edilən dəyişiklik sosial təminat hüququnu məhdudlaşdırmır, əslində, genişləndirir.

Qanunda edilən dəyişiklik büdcədə hansı isə bir qənaət yaratmır. Əslində, pensiya məbləğinin artırılmasına xidmət etdiyi üçün bu, hərbçilərimizin sosial təminatının genişləndirilməsinə və daha yaxından müdafiə edilməsinə imkan yaradır. Çünki nəticə etibarı ilə burada həm də məqsəd hərbçilərimizin pensiya yaşı tamam olduqdan sonra pensiya məbləğinin artırılmasıdır. Eyni zamanda, təbii, artıq 25 il qulluq etdiyi halda illik olaraq 2 faiz, digər hərbçilərimiz üçün 3 faiz əlavələr hesablanacaq və nəticə

etibarı ilə imkan verəcək ki, mövcud qanunla müqayisədə bu dəyişikliklər qəbul edildikdən sonra hərbçilərimiz daha yüksək pensiya almaq imkanına malik olsunlar.

Digər məqam, təhsil hüquqlarının məhdudlaşdırılması ilə bağlı qeydlər də var idi, eyni zamanda, sosial şəbəkələrdə. Amma burada təhsil hüquqlarının məhdudlaşdırılmasından söhbət getmir. Çünki mövcud qanun hərbçilərimizə yalnız qiyabi təhsil almaq hüququ verir. Amma bizim dəyişikliklər hərbçilərimizə həm də əyani təhsil almaq hüququ verir. Yəni bu, təhsil hüququnu genişləndirir. Bu, nəticə etibarı ilə təhsil hüququnun məhdudlaşdırılması anlamına gəlməməlidir və hərbçilərimizə imkan və şərait yaradılır ki, bu dəyişiklik qəbul ediləndən sonra hərbçilərimiz əgər əyani təhsil almaq istəyirlərsə, hətta ölkə daxilində və ölkə xaricində həmin hüquqdan istifadə edə biləcəklər. Mövcud qanunvericilik hərbçilərimizə bu hüququ vermir. Amma dəyişikliklər bu hüququ hərbçilərimiz üçün yaradacaq.

Mənzil hüququ ilə bağlı qeyd etmək istəyərdim ki, mənzil hüququ bu gün bizim müzakirə etdiyimiz qanunvericilik aktları ilə tənzimlənmir. Mənzil hüququnda hər hansı bir dəyişiklik yoxdur. Mənzil hüququ digər qanunvericilik aktları ilə tənzimlənir və bu gün bizim müzakirə etdiyimiz dəyişikliklər hərbçilərimizin mənzil hüququna heç bir təsir göstərmir. Onların mənzil hüquqları necə var, digər qanunvericilikdə necə tənzimlənirsə, indi necə tənzimlənirsə, bu dəyişiklik qəbul edildikdən sonra da həmin qaydalarla tənzimlənəcək. Yəni bu dəyişikliklərlə mənzil hüququnda hər hansı bir dəyişikliyin olması və ya məhdudlaşmanın tətbiq edilməsi nəzərdə tutulmur, əksini tapmır.

Ümumiyyətlə, bu gün müzakirə etdiyimiz qanun la-

yihələri hərbçilərimizin mənzil hüququ ilə bağlı hər hansı bir öhdəlik yaratmır. Ona görə mən hörmətli millət vəkillərimizdən xahiş edərdim ki, qanun layihəsini dəstəkləsinlər. Çünki bu, sosial təminat, təhsil, mənzil təminatı hüququnun genişləndirilməsi baxımından vacib bir layihədir və birmənalı şəkildə hərbçilərimizin sosial təminatının daha yaxından dəstəklənməsinə imkan verəcək. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Vüqar müəllim. Əslində, Sizin çıxışınızda bir çox suallara cavab verildi, çox sağ olun. Bizim hörmətli jurnalistlər oradadır, mən xahiş edirəm, Siz iclasdan sonra onlarla da əlaqə saxlayın. Sualları ola bilər və bu açıqlamaları da verin. Həmçinin Musa müəllim, mən Sizi də çağırıram. Ziyafət müəllim, Arzu müəllim. Yəni bu məsələlərlə bağlı, indi onlar bizə qulaq asırlar. Xahiş eləyərdim ki, siz cəmiyyətimizə bununla bağlı daha geniş məlumatlar verin. Siyavuş Novruzov. Buyurun, Siyavuş müəllim.

**S.Novruzov**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar. Mən də qanun layihəsinə səs verəcəyəm. Doğrudan da, vacib olan qanun layihələrindən biridir. Orduya diqqət, orduya qayğı həmişə Ali Baş Komandanımız tərəfindən göstərilibdir. Ümummilli Liderimiz Azərbaycanda ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra, elə birinci dəfədə də həmişə ordu ilə maraqlanıbdır. Açılan məktəblərə nəzər salsaq, istər Naxçıvanski adına, istər Ali komandirlər məktəbi, ondan sonrakı dövrdə azərbaycanlıların ayrı-ayrı hərbi məktəblərə oxumağa göndərilməsi, bütün bu tarix hamısı Ümummilli Liderin və ondan sonra da cənab Prezidentin adı ilə bağlıdır. Orduya daim yeni texnikalar alınır, orduda çalışan zabitlərin təhsili, sosial təminatı daim həll olunur və onlar ayrı-ayrı

xarici ölkələrə təhsil almağa göndərilirlər. NATO-nun proqramlarında iştirak eləyirlər və bu gün də Azərbaycanın kifayət qədər savadlı, qabiliyyətli hərbçiləri yetişibdir, formalaşıbdır.

Burada qaldırılan bir neçə məsələyə mən öz fikrimi bildirmək istəyirəm. Birinci məsələ ondan ibarətdir ki, dövlət kifayət qədər hər bir zabitə xərc çəkir, onu oxudur, yetişdirir, müəyyən mərhələyə çatdırır. Təbii ki, zabit də bu dövr ərzində çalışmalıdır, işləməlidir ki, digərlərini formalaşdırsın. Zabitlərimiz tək döyüşçü deyil, eyni zamanda, döyüşə rəhbərlik edəndir.

İkinci bir tərəfdən, ölkəmiz kifayət qədər yeni texnika alır, yeni texnologiya alır. Bu texnologiyaların işlənməsinə, başqa nəsillərə ötürülməsinə zaman, vaxt lazımdır. Əgər bir şəxs öyrədilirsə, bu sahədə mütəxəssis kimi yetişdirilirsə, bir mühəndis kimi yetişdirilirsə, lap onların təmiri ilə bağlı olsun, sonradan onların xidmət keçməsinə vaxt lazımdır. İndi biz götürək ki, hərbçi ali məktəbə girdi, 21 yaşında qurtardı. 20 il qulluq eləyəndən sonra olur 41, 42 yaşı. 42 yaşında bu insan gedir təqaüdə və təqaüdə də getməyinin səbəbi nədən ibarətdir. Ən çoxu, – hamımız o zabitlərlə söhbət edirik, – qorxur ki, gələcəkdə hansısa bir səhvə yol verdiyinə görə ordudan uzaqlaşdırılsın və o, təqaüdü ala bilməsin. Amma belə baxanda bütün o işləyən, fəaliyyət göstərən insanların hamısı təqaüdünü də alır.

Mənə üç nəfər müraciət edibdir, üçü də həm İkinci Qarabağ müharibəsində – Vətən müharibəsində, həm də Aprel döyüşlərində iştirak ediblər, 43 yaşları var. Onlardan biri ali hərbi məktəb qurtarıb. Fərqli fərmanla bunu yola salıblar, pensiyaya çıxıbdır. Deyir, indi ikinci iş axtarıram, böyük marketlərdə mənə deyirlər, get, balıq təmizlə. Mən mayor rütbəli adamam, necə gedib balıq

təmizləyim, mənim əsgərlərim gəlib görəcəklər ki, onların komandiri balıq təmizləyir. Yəni bax, bu qanunun mahiyyətinin biri ondadır ki, insan öz işi ilə, sənəti ilə bağlı olsun, zabitdirsə, zabit funksiyasını yerinə yetirməlidir. Bizim komandirimiz general-polkovnik Sovet İttifaqı Qəhrəmanı Qromovun bir sözü var idi, qeyd edirdi ki, əsgərin belindən kəmər düşdü, o zabit öldü. Yəni əsgərin kəməri həmişə belində olmalıdır. Bəli, biz istəyirik ki, bizim əsgərlər, zabitlər bax, belə olsun.

Sonra dislokasiya ilə bağlı, hörmətli Fazil müəllim qeyd elədi. Fazil müəllim, bu, Türkiyə, Amerika deyil e, gün bir tərəfdən çıxanda o birisi tərəfdə batır. Azərbaycanın eni ilə uzunu üç top mərmisi atəşi boydadır. Üç top mərmisi dalbadal atılsa, gedib o birisinin başına çıxacaq. Ya bir raket atılsa. Ona görə də Azərbaycanda müxtəlif qüvvələr müxtəlif dislokasiyada yerləşir. Artilleriyaçını aparıb ön cəbhəyə qoya bilməzsən ki, sən get, burada qulluq elə və yaxud pilotu gətirib başqa bir yerdə yerləşdirsin.

İkinci bir tərəfdən, dağlıq zonada qulluq eləyənlərin hər birinin əmək haqqına da 30 faiz, 25 faiz əlavələr olunur. Yəni Bakıda əməkhaqqı alanla dağlıq zonada əməkhaqqı alan, ezamiyyə pulu alan eyni deyil, fərqlidir. Elə yerlər var, ikiqat əməkhaqqı verirlər və onlar yeməklə təmin olunurlar. Ezamiyyələri və kirayə pulları var. Bəli, biz istəyirik ki, bunlar daha çox olsun, artıq olsun, həmişə əsgərlərimiz də, zabitlərimiz də diqqətdə olsunlar. Mən bu qanun layihəsinə səs verəcəyəm, həmkarlarımı da səs verməyə çağırıram.

**Sədrlik edən.** Sağ olun, Siyavuş müəllim. Zahid Oruc.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Hamı yazılıb, hamıya da mən söz verəcəyəm. Sonra elə deyilməsin ki, bu məsələ ilə bağlı kiməsə

söz verilmədi. Zahid Oruc. Buyurun.

**Z.Oruc.** Təşəkkür edirəm. Hörmətli sədr, hörmətli millət vəkilləri. İndiyə qədər çıxış edən həmkarlarımızın, məncə, artıq mövqeyini belə ümumiləşdirə bilərik ki, bu gün parlamentin müzakirəsinə çıxarılan layihə əsla hərbi qulluqçularımızın, onların on illər ərzindəki xidmətinin, Vətən müharibəsində savaşdakı qəhrəmanlığının, fədakarlığının əleyhinə deyil, onu qətiyyən görməzdən gəlmir. Bu ətrafda bir sıra hallarda ordu əleyhinə olan, hakimiyyətlə siyasi dava aparan qüvvələrin son bir həftə ərzində bu layihəni hələ bütöv görmədən, onun ayrı-ayrı müddəalarını təhrif eləyərək media məkanında dövlətə və hakimiyyətə hücumlarının əsası yoxdur. Əsas yalnız o mənada olar, mən hörmətli Qüdrət müəllimin mövqeyini orada bölüşürəm ki, qeyri-müəyyənlikdən, təqdimatların sona qədər olmamasından, ümumiyyətlə, qanunvericilik sisteminin Azərbaycan vətəndaşlarının münasibətlərinin hər zaman ikinci, üçüncü şəxslərin dilindən eşitməyə meyilli olduğundan, xüsusi ilə də pensiya hüquqlarının hesablanmasında həmişə müxtəlif riyazi modellər olduğuna görə, müəyyən ehtiyatlanmalar, narahatlıqlar var. Əminəm, bu gün parlamentdə təmsil olunan bizim media təmsilçilərimiz sərlövhəyə onu çıxaracaqlar ki, indiki layihə, gerçəkdən də, ordumuzun, onun təhlükəsizliyinin güclənməsinin, sosial hüquqlarının xeyrinədir, ziyanına deyil. Mən buna əmin olmasam, inan ki, çıxış etməzdim.

Prinsipial məsələ. Birinci növbədə, 20 il xidmət keçmiş və güzəştli şərtlərlə pensiya hüququ qazanan şəxslərin hüquqları əlindən alınırmı, izah olundu ki, xeyr. Onlar əgər 17 il xidmət ediblərsə, 3 ildən, 18 ildirsə, 2 ildən, 19 ildirsə, 1 ildən sonra məhz indi qüvvədə olan, hüquqi sistemimizə tam daxil olmamış, 2024-cü ildə gözlədiyimiz layihə ilə

deyil, indiki şərtlərlə o hüququ əldə eləyəcəklər və burada buna problem yaradacaq heç bir müddəa yoxdur.

İkincisi, mənzil hüququ ilə bağlı məsələ. Nə yaxşı ki, bu gün biz həm də büdcə müzakirələrinin sonuncusunu etmişik və masamız üzərində belə bir kitab var, bunun 34-cü səhifəsində yazılır, – bu, gələn ilə yönəlik vurğulanıbdır, – 20 il və daha çox xidmət keçmiş şəxslərin, ehtiyatda olan hərbi qulluqçuların mənzillə təminatı, zəruri xərcləri üçün 35 milyon manat vəsait nəzərdə tutulur. Göründüyü kimi, qətiyyən mənzil hüququnun 20 ildən 25 ilə artırılması ilə də bağlı bir mövqe yoxdur.

Əlbəttə, biz fərqindəyik ki, ordu bütün dünyada həssas bir təbəqədir. Xüsusən də müharibə etmiş, qan tökmüş, qələbə qazanmış və bu gün dövlətimizin, millətimizin qürur yeri olan qüvvələr üçün atdığımız hər bir addım yalnız sosial, pensiya, digər təminatlar mənasında qəbul olunmur, həm də onun təhlükəsizlik mənası meydana çıxır. O üzdən qəti şəkildə Azərbaycan dövləti belə bir mövqe tutmaz ki, bu gün müvafiq qanunvericilik təşəbbüsü subyekti adından, ölkə rəhbəri adından, Ali Baş Komandan adından ordumuzun mənafelərinə mənfi mənada toxunan bir addım atılsın. Ona görə də mən ümidvaram ki, qarşıdakı günlərdə, – burada deyildi, – layihənin təqdimatı üçün həm də Müdafiə Nazirliyinin nümayəndələri çox fəal bir şəkildə media məkanına çıxa bilərlər. Bəli, onların müəyyən bir hissəsi qapalı strukturdur. Yüz minlərcə ordu heyətinin bir hissəsi, onun hərbi qulluqçuları mümkündür ki, qapalı sistemdədir, onların sayını on minlərcə elan eləyək, amma onların içərisində maarifçiliyə, bu cür məsələlərin təqdimatına, informasiya məkanında fəaliyyətə cavabdehlik daşıyan insanlar var. Onlar da bu məsələni fəal şəkildə təqdim etməlidirlər. Ona görə də hörmətli sədr, mən bu

sənədə səs verəcəyəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Zahid müəllim. Mən yenə də üzümü tuturam Musa müəllimə, Vüqar müəllimə, Zahid müəllimə, Siyavuş müəllimə, Ziyafət müəllimə, Arzu müəllimə. Bax, orada bizim müsahibə üçün otağımız da var, jurnalistlər də oradadırlar. İstəyirsiniz dəyirmi masa ətrafında burada səsləndirdiyiniz fikirləri, xahiş edirəm, elə orada da cəmiyyətə açıq təqdim edin. Biz millətin, Azərbaycan xalqının burada təmsilçiləriyik. Ona görə də, xahiş edirəm, bu fürsətdən də istifadə eləyin, iclas qurtarsın, gedin, oturun orada müsahibələrinizi də, açıqlamalarınızı verin. Etibar Əliyev. Buyurun.

**E.Əliyev.** Çox hörmətli Sahibə xanım, hörmətli deputatlar. "Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik çox vacibdir və əsas məqamlardan biri müddətdən artıq həqiqi hərbi xidmət keçən hərbçilərin təhsil almaq imkanlarını genişləndirməyə imkan yaradır. Hərb peşəsi zaman keçdikcə yeni bilik və bacarıqlar tələb edir. Məzmun da sürətlə dəyişir. Bu, onu söyləməyə əsas verir ki, hərb sahəsində təhsil yaşdan asılı olmayaraq, fasiləsiz xarakter daşımalıdır. Müasir dövrdə hərb sahəsində texnoloji yeniliklərin getdikcə daha çox tətbiq olunması, "ağıllı silah" sistemlərinin istifadəyə verilməsi, hərbi əməliyyatların kompüterlə idarə olunması kimi dəyişikliklər tələb edir ki, hərbçilər daha savadlı və bacarıqlı şəxslərdən seçilsinlər.

Sovetlər vaxtı hərbi kafedralar fəaliyyət göstərirdi. Həmin kafedraların bir neçəsinin ali məktəbdə bərpasına ehtiyac var. İndi hərbi mütəxəssislərimizin sayı həddindən artıq çoxdur. Onlar sırf ixtisaslaşmış hərbi təhsil müəssisələri ilə yanaşı, həmin kafedralarda da çalışa bilərlər. Məsələn, Texniki Universitetdə və Mühəndislik

Universitetində belə kafedraların yaradılması vacibdir. Həm də hərb sahəsində mütəxəssis hazırlığı üçün rəqabət mühiti yarana bilər. Birinci Qarabağ müharibəsində universitetlərin hərbi kafedralarının yüzlərcə məzunu döyüşlərdə iştirak etdilər, çünki hərbi biliklərə malik idilər.

Bu yaxınlarda belə bir tədqiqatla tanış oldum. Alimlər əsgərləri irəli aparan, cəsur edən, ölümdən qorxmayan amilləri öyrəniblər. Bəlli olub ki, ölkəsinə sevgi ilə yanaşı, digər insani və bəşəri amillər də burada mühüm rol oynayır, hətta fərdi amillər də. Məsələn, döyüş yoldaşlarının gözündən düşməmək kimi bir düşüncə. Bu, şəxsi ləyaqət hissidir, bu, dəyərdir. Biz 44 günlük Vətən müharibəsində və lokal antiterror əməliyyatında bunun şahidi olduq. Orduda fərari olmadı.

Bununla yanaşı, onların qayğısına qalmaq olduqca vacibdir. Müzəffər Ali Baş Komandan hörmətli İlham Əliyev hərbçilərin ən yaxın dostudur və Prezidentin qəbul etdiyi qərarlar onların ölkəyə olan sevgisini dərinləşdirir.

Dövrümüz süni intellekt dövrüdür. Əşyaların intellekti, robototexnika dövrüdür. Birinci Qarabağ müharibəsində müharibə, əsasən, yerdə gedirdi. İkinci Qarabağ müharibəsində isə müharibə, əsasən, göydə getdi. Bu baxımdan təhsil almaq istəyənlərin yaşından asılı olmayaraq, hərbi təhsilin məzmunu mükəmməl olmalıdır. Burada qiyabi təhsil anlayışı götürülür. Ancaq qiyabi təhsilin distant təhsillə əvəz olunması praktikası bütün dünyada çox geniş tətbiq olunur. Burada distant təhsilin də nəzərə alınması vacibdir və qanunvericilik bunu qadağan etmir, buna icazə verir. Məhz distant təhsilin də tətbiqi həm də əyaniliyi gücləndirə bilər. Təşəkkür edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Qanun layihəsinə səs verəcəksiniz?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Amma distant. Bilirəm, həmişə səs vermir, ya da bizimlə burada mübahisə edir. Etibar müəllim, düz deyirsiniz, distant təhsil burada çox böyük kömək ola bilər. Mən bu məsələdə Sizinlə tam razıyam. Rəşad Mahmudov. Buyurun, Rəşad müəllim.

**R.Mahmudov.** Çox hörmətli xanım sədr, çox dəyərli millət vəkilləri. Əslində, hamımıza məlumdur ki, bu, sosial mediada da, insanlar arasında da çoxlu müzakirələrə səbəb olan, bəzən fikir ayrılıqları yaradan bir mövzudur. Bu mövzu ilə əlaqədar beynəlxalq tədqiqatın nəticələrini sizinlə paylaşaraq bəzi məqamları diqqətinizə çatdırmaq istəyirəm.

Müharibə dövründən də bizim hamımıza məlumdur ki, müharibə başlayan andan Azərbaycan vətəndaşları kiçikdən böyüyə qədər nə sosial təminat, nə də başqa bir məsələ barədə düşünmədən ölkəsinin təhlükəsizliyi üçün hər şeyi ortaya qoyduğunu göstərdi və bu, çox gözəl milli birliyimizin olduğunu bizə yaşadan bir reallıqdır. Bir az əvvəl də millət vəkillərimizin dedikləri ilə mən birmənalı razıyam ki, bir hərbi qulluqçunun professional hazırlanması üçün lazım olan müddət və ona dövlətin çəkmiş olduğu xərcləri də nəzərə aldığımız zaman bu mövzuya bir az fərqli yanaşmaq lazımdır. Ölkəmiz artıq milli təhlükəsizlik məsələsində əvvəlkindən bəlkə də daha çox ehtiyatlı, hər birimiz isə daha təmkinli davranmalıyıq.

Bir tədqiqata diqqətinizi yönəltmək istəyirəm. İngiltərədə aparılmış bu tədqiqatda 30 yaşından 90 yaşına qədər insanların malik olduğu bilgi, bacarıq və təcrübələrin hansı illərdə daha effektiv olduğunu təyin edən bir retrospektiv tədqiqat elmi jurnallarda dərc olunub. Həmin elmi araşdırmanın nəticəsinə görə, bacarıq və bilgiyə ehtiyacı

olan və uzun illər üzərində işlənilmiş ixtisasçıların həyatındakı ən effektiv fəaliyyətin olduğu onilliyin 60-70 yaş, ikinci onilliyin 70-80 yaş, üçüncü onilliyin isə 50-60 yaş olduğu bildirilir. Bu fikir bəlkə insanlarda çaşqınlıq yarada bilər. Burada diqqətə çatdırmaq istədiyim məsələ odur ki, əslində, uzun illər dövlətin hazırladığı yüksək ixtisaslı kadrların erkən dönəmdə pensiyaya çıxmalarının bir baxımdan ölkə təhlükəsizliyi üçün də, beynəlxalq səviyyədə də uyğun olmadığı qəbul olunan bir həqiqətdir. Mən bunu sizinlə paylaşmağı özümə borc bildim.

Digər bir məsələ. Əlbəttə, qanun layihəsinə birmənalı olaraq mən də səs verəcəyəm və bu qanun layihəsində olan, bir az əvvəl Arzu müəllimin də dilə gətirmiş olduğu həkimlərin xüsusən bir problemini söyləmək istəyirəm.

Bilirsiniz ki, hərbi həkimlər 6 illik tibb təhsilini bitirdikdən sonra rezidenturaya daxil olurlar. Bu gün ölkəmizdə, əfsuslar olsun ki, "Ali təhsil haqqında" Qanuna uyğun bir şəkildə onlara, sadəcə, 400 manatlıq bir maaş verilir. Bu da haradasa minimum meyarlara, ehtiyaclara yaxın bir rəqəmdir. Halbuki Azərbaycanın qanunvericiliyində, ən başda Əmək Məcəlləsinin bir çox müddəalarında həm hərbi həkimlər, həm də mülki həkimlər üçün keçərli olan rezidentura mütəxəssislərinin haqlarının bilmədən pozuntusuna yol verilir. Onların maddi və sosial problemləri gün keçdikcə daha da artır.

Düşünürəm, həm "Ali təhsil haqqında" Qanunda, həm də Əmək Məcəlləsində olan müddəaların aidiyyəti qurumlar tərəfindən daha da dərindən, diqqətlə araşdırılmasına ehtiyac var. Çünki müharibə vəziyyətində də gördük ki, bizim hərbçilər qədər həmin hərbçilərə xidmət edə biləcək, xüsusi yetişdirilmiş həkimlərimizə də ehtiyac var. Bu kadrların bu sahədə daha həvəslə fəaliyyət göstərmələri üçün, şəraitin

daha da yaxşılaşdırılması üçün görüləcək işlər var.

Mən bir daha imkan yaratdığınıza görə təşəkkür edirəm. Bütün millət vəkillərini qanun layihəsinə səs verməyə dəvət edirəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Rəşad müəllim. Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Xahiş edirəm, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 14.01 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bununla da iclasımız başa çatdı. Mən hamıya təşəkkür edirəm. Növbəti iclasımız ayın 8-də olacaq. Sağ olun.

**ALTINCI ÇAĞIRIŞ**
**AZƏRBAYCAN RESPUBLİKASI**
**MİLLİ MƏCLİSİNİN**
**XIV SESSİYASI İCLASININ**

# PROTOKOLU № 153

*Milli Məclisin iclas salonu.*
*8 dekabr 2023-cü il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 104 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 96 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşlar:**

**Məmməd Abbasbəyli**, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəisi.

**Cəfər Babayev**, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti rəisinin müavini.

**Tural İsmayılov**, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti Aparatının rəhbəri.

**Səbuhi Sadıqov**, Azərbaycan Respublikası Dövlət Ehtiyatları Agentliyi İdarə Heyətinin sədri.

**Hidayət Əzimov**, Azərbaycan Respublikası Dövlət Ehtiyatları Agentliyi İdarə Heyəti sədrinin müavini.

**Fərid Əhmədov**, Azərbaycan Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini.

**Nazim Ziyadov**, Azərbaycan Respublikası Dövlət Mülki Aviasiya Agentliyi direktorunun müavini.

**Elmin Məmmədov**, Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Hüquq şöbəsinin müdiri.

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. "Azərbaycan Respublikası Milli Məclisi komitələrinin sədrlərinin seçilməsi haqqında" Azərbaycan Respublikası Milli Məclisinin Qərarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Milli Məclisinin qərarının layihəsi.

2. "Azərbaycan Respublikası Milli Məclisi komitələrinin sədr müavinlərinin seçilməsi haqqında" Azərbaycan Respublikası Milli Məclisinin Qərarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Milli Məclisinin qərarının layihəsi.

3. Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

4. Qiymətləndirmə fəaliyyəti haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

5. Dövlət ehtiyatları haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

6. "Antiinhisar fəaliyyəti haqqında", "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında", "Mülki müdafiə haqqında", "Taxıl haqqında", "Milli təhlükəsizlik haqqında", "Dövlət sirri haqqında", "Azərbaycan Respublikasında sə-

fərbərlik hazırlığı və səfərbərlik haqqında" və "Qiymətli metallar və qiymətli daşlar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

7. Aviasiya haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

8. "Polis haqqında", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" və "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

9. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

10. Arbitraj haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

11. "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikası qanunlarının icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

12. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

13. "Məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

14. "Mühasibat uçotu haqqında" və "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişik-

lik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

15. Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

16. "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

17. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

18. Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

19. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

20. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

21. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

22. "Dəniz limanları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

23. "Milli təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

24. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Ceyhun Məmmədov, Fəzail Ağamalı, Musa Qasımlı, Qüdrət Həsənquliyev, Elman Nəsirov, Zahid Oruc, Siyavuş Novruzov, Aydın Hüseynov, Ziyafət Əsgərov, Vüqar Bayramov, Bəhruz Məhərrəmov, Azər Badamov, Tahir Kərimli, Razi Nurullayev, Elşad Mirbəşir oğlu, Kamal Cəfərov, Elşən Musayev

**Təklif:** Gündəlik qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.08 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**1. "Azərbaycan Respublikası Milli Məclisi komitələrinin sədrlərinin seçilməsi haqqında" Azərbaycan Respublikası Milli Məclisinin Qərarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Milli Məclisinin qərarının layihəsi.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qərar qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.56 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 3 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

**2. "Azərbaycan Respublikası Milli Məclisi komitələrinin sədr müavinlərinin seçilməsi haqqında" Azərbaycan Respublikası Milli Məclisinin Qərarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Milli Məclisinin qərarının layihəsi.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qərar qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.57 dəq.) |
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

**3. Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili

**Təklif:** Məcəllə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.03 dəq.) |
| Lehinə | 94 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.03 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

**4. Qiymətləndirmə fəaliyyəti haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.07 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

**5. Dövlət ehtiyatları haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.10 dəq.) |
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihənin adı, preambulası, 1–8-ci maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.11 dəq.) |
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**Təklif:** 9–11-ci maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.11 dəq.) |
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**Təklif:** 12-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.12 dəq.) |
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |

| | |
|---|---|
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 13-cü və 14-cü maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.12 dəq.) |
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.12 dəq.) |
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

**6. "Antiinhisar fəaliyyəti haqqında", "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında", "Mülki müdafiə haqqında", "Taxıl haqqında", "Milli təhlükəsizlik haqqında", "Dövlət sirri haqqında", "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" və "Qiymətli metallar və qiymətli daşlar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Tahir Mirkişili, Ziyafət Əsgərov, Tahir Rzayev, Əli Hüseynli

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.15 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci və 2-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.15 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**Təklif:** 3-cü və 4-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.16 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**Təklif:** 5-ci və 6-cı maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.16 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 89 |

Nəticə: Qəbul edildi

**Təklif:** 7-ci və 8-ci maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.16 dəq.) |
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.17 dəq.) |
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**7. Aviasiya haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Elnur Allahverdiyev, Soltan Məmmədov, İltizam Yusifov, Sabir Rüstəmxanlı

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.22 dəq.) |
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihənin adı, preambulası, 1–9-cu maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.33 dəq.) |
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**Təklif:** 10–16-cı maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.33 dəq.) |
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**Təklif:** 17–22-ci maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.34 dəq.) |
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**Təklif:** 23–30-cu maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.34 dəq.) |
| Lehinə | 94 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 31–47-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.34 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 48–58-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.34 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 59–66-cı maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.35 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 67-ci və 68-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.35 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.36 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

**8. "Polis haqqında", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" və "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli, Bəxtiyar Əliyev

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.37 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 1-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.38 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.38 dəq.) |
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**Təklif:** 3-cü maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.38 dəq.) |
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.39 dəq.) |
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**9. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Məsimli

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.41 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.42 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 95 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.42 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 4 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**10. Arbitraj haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nizami Səfərov, Vüqar Bayramov, Qüdrət Həsənquliyev

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.53 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |

Nəticə: Qəbul edildi

**11. "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikası qanunlarının icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli, Tahir Mirkişili, Fəzail İbrahimli, Şahin İsmayılov, Fazil Mustafa

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.59 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**12. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Bəhruz Məhərrəmov, Əminə Ağazadə

| | |
|---|---|
| **Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 13.08 dəq.) |
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

**13. "Məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Kamal Cəfərov

| | |
|---|---|
| **Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 13.09 dəq.) |
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

**14. “Mühasibat uçotu haqqında” və “Dövlət sirri haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Məşhur Məmmədov, Kamal Cəfərov, Ziyafət Əsgərov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.12 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

**15. Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev, Hicran Hüseynova, Əli Məsimli, Aydın Hüseynov, Aqil Abbas

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.27 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |

Nəticə: Qəbul edildi

**16. "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.32 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**17. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Kamal Cəfərov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.32 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 91 |

Nəticə: Qəbul edildi

**18. Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan**

**Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Anar Məmmədov, Əli Hüseynli

| | |
|---|---|
| **Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 13.40 dəq.) |
| Lehinə | 83 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 84 |
| Nəticə: Qəbul edildi | |

**19. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Əli Hüseynli, Kamal Cəfərov

| | |
|---|---|
| **Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 13.41 dəq.) |
| Lehinə | 83 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 84 |
| Nəticə: Qəbul edildi | |

**20. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişdir:** Əli Hüseynli

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.41 dəq.) |
| Lehinə | 83 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 84 |

Nəticə: Qəbul edildi

**21. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişdir:** Əli Hüseynli

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.41 dəq.) |
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |

Nəticə: Qəbul edildi

**22. "Dəniz limanları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Əli Hüseynli, Anar Məmmədov

| | |
|---|---|
| **Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 13.42 dəq.) |
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

**23. "Milli təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Əli Hüseynli, Ziyafət Əsgərov

| | |
|---|---|
| **Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 13.42 dəq.) |
| Lehinə | 83 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 84 |
| Nəticə: Qəbul edildi | |

**24. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişdir:** Əli Hüseynli

| | |
|---|---|
| **Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 13.42 dəq.) |
| Lehinə | 84 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 85 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

## *MİLLİ MƏCLİSİN İCLASI*

*8 dekabr 2023-cü il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik edir*

**Sədrlik edən.** Hörmətli deputatlar, hörmətli media nümayəndələri, hamınızı xoş gördük. Hörmətli qonaqlar, sizi də xoş gördük. Hörmətli deputatlar, xahiş edirəm, qeydiyyatdan keçin. Buyurun.

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
| İştirak edir | 96 |
| Yetərsay | 83 |

Çox sağ olun, yetərsay var, iclasa başlaya bilərik.

Hörmətli həmkarlar, bildiyiniz kimi, dünən Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyev "Növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərinin elan edilməsi haqqında" Sərəncam imzalamışdır. Bununla əlaqədar mən bir neçə məqama diqqəti cəlb etmək istəyirəm.

Bu gün hamıya aydındır ki, 2020-ci ilin payızında 44

günlük Vətən müharibəsi və 2023-cü ilin sentyabrında bir günlük antiterror tədbirləri nəticəsində dövlətimizin ərazi bütövlüyünün və suverenliyinin bərpa olunması həm regionda, həm də ölkəmizdə yeni reallıqlar yaratmışdır.

2024-cü il fevralın 7-də təşkil ediləcək növbədənkənar Prezident seçkiləri bu reallıqların təsbitidir və müstəqil Azərbaycanın tarixində ilk dəfə olaraq seçkilər ölkəmizin bütün ərazisində keçiriləcək.

Hörmətli həmkarlar, növbədənkənar Prezident seçkilərini Zəfər seçkiləri də adlandırmaq olar. Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyev xalqa verdiyi bütün vədləri tam yerinə yetirmişdir. Ümummilli Liderimiz Heydər Əliyevin ən böyük arzusu həyata keçirilmiş və Azərbaycan torpaqlarının 30 illik işğalına son qoyulmuşdur. Bu gün Azərbaycanın üçrəngli bayrağı Xankəndidə, Şuşada, Xocalıda, Laçında, Kəlbəcərdə, Cəbrayılda, Zəngilanda, Füzulidə və digər rayonlarda qürurla dalğalanır.

Ulu Öndər tərəfindən təməli qoyulmuş inkişaf strategiyasını yeni çağırışlar şəraitində layiqincə davam etdirən möhtərəm cənab İlham Əliyev heyrətamiz şəxsi keyfiyyətləri, vətən və dövlət qarşısında müstəsna xidmətləri ilə xalqımızın tükənməz hörmət və məhəbbətini qazanmışdır.

Onun rəhbərliyi ilə 20 il öncə həyata keçirilməyə başlanan uzaqgörən daxili və xarici siyasət Azərbaycanı dünyanın ən dinamik inkişaf edən dövlətləri sırasına çıxarmışdır. İlham Əliyevin siyasət sənətinin incəliklərinə dərindən bələdliyi, fenomenal liderlik qabiliyyəti və yaradıcı dövlətçilik təfəkkürü, yenilməz əzmi və iradəsi ölkəmizin müasir simasını müəyyənləşdirməklə yanaşı, Cənubi Qafqaz bölgəsinin geosiyasi mənzərəsini kökündən dəyişmişdir. Milli və dövlətçilik maraqlarımızın qorunması və irəli aparılması, ölkəmizin potensialının artırılması üçün

görülən ardıcıl tədbirlər Azərbaycanı öz tarixinin ən qüdrətli dövlətinə çevirmişdir.

Hörmətli həmkarlar, bunu da qeyd etməliyəm ki, növbədənkənar seçkilərin keçirilməsi dünyada qəbul olunmuş siyasi bir praktikadır. Seçkilər bəzi hallarda, məsələn, hərbi və fövqəladə vəziyyətlərdə təxirə salınır, bəzi hallarda isə vaxtından əvvəl keçirilir. Azərbaycan Respublikasının Seçki Məcəlləsi növbəti Prezident seçkilərinin keçirilməsi ilə növbədənkənar Prezident seçkilərinin keçirilməsi arasında hər hansı prosedur, yaxud müddət fərqi müəyyən etmir. Seçkilər növbədənkənar keçirildiyindən vətəndaşlarımız siyasi iradələrini, sadəcə olaraq, vaxtından əvvəl ifadə edəcəklər.

"Qarabağ Azərbaycandır!" şüarı dilindən düşməyən xalqımız uzun illər ağır zəhmət hesabına bu şüarı gerçəkliyə çevirmiş ölkə rəhbərinin yeni seçkilərdə, əminəm ki, yanında olacaq, onun xarici və daxili siyasətini, o cümlədən Qarabağda, Şərqi Zəngəzurda və ölkənin digər bölgələrində həyata keçirilən quruculuq işlərini fəal şəkildə dəstəkləyəcək.

Düşünürəm ki, növbədənkənar Prezident seçkiləri regionda tam müstəqil bir dövlətin olmasını və Azərbaycanın qələbəsini həzm edə bilməyən dövlətlərin təxribatlarının qarşısını almaq üçün siyasi sistemin daha da güclənməsini təmin edəcəkdir.

Hörmətli həmkarlar, əminliklə söyləmək olar ki, gələn il fevralın 7-də şəffaf şəraitdə keçiriləcək azad və ədalətli Prezident seçkiləri ölkəmizdə demokratiyanın təntənəsinə çevriləcək, Azərbaycan xalqı indiyə qədər olduğu kimi, bu seçkilərdə də öz müdrik qərarını verəcəkdir.

Hörmətli deputatlar, bir məqama da istəyirəm, nəzər salam. Bildiyiniz kimi, Vətən müharibəsində qələbədən

sonra Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə Ermənistanla sülh danışıqları aparılmaqdadır. Artıq bu gün söyləmək olar ki, bu danışıqların müsbət nəticələri vardır. Dünən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Ermənistan Baş naziri Aparatının birgə bəyanatı dərc edilmişdir.

Hər iki tərəf belə bir fikrə şərik olduğunu bildirmişdir ki, regionda çoxdan gözlənilən sülhə nail olmaq üçün tarixi imkan yaranmışdır. Suverenlik və ərazi bütövlüyü prinsiplərinə hörmət əsasında münasibətləri normallaşdırmaq və sülh müqaviləsi bağlamaq niyyəti təsdiq edilmişdir. Bəyanatda sülh sazişini yaxınlaşdıran bir sıra addımlar nəzərdə tutulmuşdur. Hesab edirəm ki, bu addımların davamını biz yaxın zamanda müşahidə edəcəyik.

Hörmətli həmkarlar, 105 il bundan əvvəl, 1918-ci il dekabrın 7-də Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti fəaliyyətə başlamışdır. Son dərəcə mürəkkəb şəraitdə bu günün parlamentarizm modelinə uyğun gələn qanunvericilik orqanının təsis edilməsi xalqımızın demokratik düşüncəyə və həyat tərzinə, ümumbəşəri dəyərlərə bağlı olduğunu göstərən tarixi bir hadisə olmuşdur. Mən bu tarixi gün münasibəti ilə sizin hamınızı təbrik edirəm.

İndi isə, hörmətli həmkarlar, xahiş edirəm, gündəliyin qəbul olunmasına münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.08 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, gündəlik qəbul edildi.

Hörmətli deputatlar, gündəlikdə və gündəmdə olan məsələlər barəsində kimsə çıxış etmək istəyirsə, xahiş edirəm, yazılın. Ceyhun Məmmədov. Buyurun.

**C.Məmmədov.** Hörmətli xanım sədr, hörmətli deputatlar, hörmətli media nümayəndələri. Bu gün dünyamız heç zaman olmadığı qədər ağır və mürəkkəb bir mərhələyə daxil olub. Dünya nizamı artıq pozulub. Yeni nizamın qurulması isə görünən odur ki, hələ bir müddət çəkəcək. Bu da reallıqdır ki, bu gün beynəlxalq təşkilatların fəaliyyətində ədalətsizlik, dünyada baş verən hadisələrə ikili standartlarla yanaşma getdikcə daha da geniş vüsət alır. Bu gün, təəssüf ki, haqsızlığa və təcavüzə məruz qalan dövlətlər deyil, təcavüzkar və terror törədən dövlətlər dəstəklənir.

30 il ərzində biz bunu açıq-aydın gördük. Ancaq bütün haqsızlıq və ədalətsizliklərə baxmayaraq, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı bütün çətinliklərə sinə gərərək öz möhtəşəm qələbəsini təmin etdi.

Təəssüf ki, hər zaman olduğu kimi, bu gün də eyni ədalətsizlik və haqsızlıqlarla Azərbaycan üz-üzədir. Heç nə dəyişməyib, ancaq bütün bunlar bizi haqq yolundan və başladığımız müqəddəs missiyadan çəkindirə bilməz. Bu gün bizim qarşımızda çox ciddi missiya və hədəflər durur. Biz dövlətçiliyimizi, müstəqilliyimizi və qələbəmizi daha da möhkəmləndirməli, Qarabağda həyata keçirilən böyük abadlıq və quruculuq işlərini sürətləndirməliyik. Heç şübhəsiz ki, Azərbaycan bu missiyanın da öhdəsindən hər zaman olduğu kimi, Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla və ləyaqətlə gələcək.

2020-ci ildə Azərbaycan Prezidenti İlham Əliyevin

rəhbərliyi ilə nəinki xalqımız bölgədə, bütövlükdə, dünyada yeni reallıq yaratdı. Bu qələbənin və uğurun əsas səbəbkarı məhz Prezident İlham Əliyevdir. Bütün bunlar nəzərə alınaraq, ölkəmizdə yeni Prezident seçkilərinin keçirilməsi barədə qərarın qəbul edilməsi Prezident İlham Əliyevin növbəti müdrikliyinin və uzaqgörənliyinin parlaq təzahürüdür. Biz təhlükəsizliyimizi, birlik və həmrəyliyimizi daha da gücləndirməliyik.

Heç şübhəsiz ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə bizi irəlidə hələ daha böyük qələbələr gözləyir. Azərbaycan xalqı hər zaman bütün sınaqlardan ölkə rəhbərliyi ətrafında sıx birləşərək çıxıb. Bu dəfə də xalqımız böyük müdriklik və uzaqgörənlik nümayiş etdirərək növbəti dəfə öz liderlərinə sadiqliklərini nümayiş etdirəcəklər. Diqqətiniz üçün təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Fəzail Ağamalı. Buyurun.

**F.Ağamalı.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, media təmsilçiləri. Mən ilk növbədə, hörmətli xanım sədr, Sizin Prezident seçkiləri ilə bağlı fikirlərinizlə tamamilə şərikəm və düşünürəm ki, kifayət qədər lakonik şəkildə əsaslandırılmış formada bu məsələnin izahını verə bildiniz. Bəzi qeydləri demək istəyirəm.

Əlbəttə, deyildiyi kimi, Azərbaycan artıq qalib dövlətdir, müharibədə qalib gəlmiş olan bir xalqıq və 44 günlük müharibədən, eyni zamanda, antiterror əməliyyatından sonra Azərbaycanda yeni reallıq əmələ gəlmişdir. Unutmayaq ki, 2018-ci ildə cənab Prezident xalqımızın etimadını qazanıb dövlət başçısı seçildikdən sonra qarşıya qoyduğu bütün hədəflərə çatdı. Xüsusi olaraq Azərbaycanı bütövləşdirdi, Azərbaycanda erməni işğalına son qoydu, eyni zamanda, uzun illər boyu, 100 ildən çox Azərbaycan xalqını narahat edən, dövlətçiliyimizə, xalqımıza böyük

problemlər yaradan separatçı yuvanı yerlə bir elədi. Beləliklə, Azərbaycan həm bütövləşdi, həm də özünün bütün ərazisində suverenliyini təmin etdi. Deməli, başlıca missiya cənab Prezident tərəfindən yerinə yetirildi.

Digər sahələrdə də, təbii ki, uğurlar göz önündədir. İndi yeni zaman önümüzdədir, yeni çağırışlar var. Bu yeni çağırışlara və yeni zamana uyğun olaraq, daha böyük zaman qazanaraq, növbəti illərdə milli çağırışlara uyğun olaraq, dövlətimizi daha yüksək səviyyəyə qaldırmağa ehtiyac var və bu bütün proseslərin məntiqinə söykənir. Ona görə də 7 fevralda keçiriləcək Prezident seçkiləri tamamilə məntiqidir. Düşünürəm ki, Azərbaycan xalqının iradəsinə söykənir və yeni çağırışların məntiqi belə seçkilərin bu zamanda keçirilməsini önə çəkir.

Bütün zamanlarda olduğu kimi, əminəm ki, qarşıdan gələn Prezident seçkilərində də Azərbaycan xalqı bir daha yüksək siyasi fəallıqla dövlət başçısına, cənab İlham Əliyevə səs verəcək və ona növbəti illər üçün Azərbaycanı daha ciddi uğurlara aparmaq üçün imkanlar yaradacaqdır.

Eyni zamanda, bu gün ən müxtəlif şəkildə bu sərəncama qarşı çıxan radikal qüvvələrə deyirəm ki, meydan açıqdır. Buyurun, fevralın 7-də əgər özünüzdə siyasi iradə və güc bilirsinizsə, belə bir imkanınız varsa, bu seçkilərdə iştirak edin.

Sonda demək istərdim ki, Ana Vətən Partiyası öz ənənələrinə sadiq qalaraq fevralın 7-də bir daha İlham Əliyevin namizədliyini verəcək və Azərbaycan xalqı ilə bərabər bu seçkilərdə fəal iştirak edəcək. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Musa Qasımlı. Buyurun.

**M.Qasımlı.** Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Bu gün bizim bütün millətimiz cənab Prezidentimiz İlham Əliyevin növbədənkənar Prezident seçkilərinin

keçirilməsi ilə bağlı sərəncamı ilə tanışdır. Bu sərəncam tarixi bir sərəncamdır və zərurətdən irəli gəlib. O zərurət nədir? Açıq söyləmək lazımdır.

1991-ci ildə dövlət müstəqilliyimiz bərpa edildikdən sonra heç bir vaxt həm Prezident, həm parlament, həm də bələdiyyə seçkiləri Xankəndidə, Xocalıda, Kəlbəcərimizdə, Laçınımızda, Şuşamızda, Qubadlıda, Zəngilanda, Cəbrayılda keçirilməyib, ərazi olaraq keçirilməyib. Vətəndaşlarımız, sakinlərimiz digər yerlərdə, səpələnmiş halda Azərbaycan ərazilərində səs veriblər. Bu gün isə tamam fərqli bir gerçəklik yaranıb.

Hörmətli xanım sədr çox mükəmməl bir təqdimat etdi. O gerçəklik ondan ibarətdir ki, ilk dəfə olaraq bizim bütün ərazilərimizdə dövlət suverenliyimiz bərqərar oldu. Ona görə də bu seçkilərin yeni şəraitdə, yeni gerçəkliyə uyğun olaraq, ölkəmizin bütün ərazisində keçirilməsi həm Konstitusiyamıza, həm də beynəlxalq praktikaya uyğundur. Digər ölkələrin təcrübəsində də növbədənkənar seçkilərlə bağlı onlarca misal çəkmək olar.

Söyləmək istədiyim ondan ibarətdir ki, ilk dəfə olaraq vətəndaşlarımızın böyük əksəriyyəti doğma yerlərində səs verəcək. Bu bizim ölkəmizin həyatında yeni bir mərhələnin açılması deməkdir.

Əsası Ulu Öndər, görkəmli dövlət və siyasi xadim Heydər Əliyev tərəfindən qoyulmuş və cənab Prezidentimiz İlham Əliyev tərəfindən davam etdirilən siyasətin alternativi yoxdur.

Millətimizə və dövlətimizə xeyirli, uğurlu olsun. Diqqətinizə görə təşəkkür edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Qüdrət Həsənquliyev. Qüdrət müəllim, buyurun.

**Q.Həsənquliyev.** Təşəkkür edirəm. Hörmətli sədr, hörmətli həmkarlar, media nümayəndələri. Doğrudan da, yeni seçkilərin elan olunmasını mən ölkəmizdə sabitliyə, təhlükəsizliyə töhfə verəcək, islahatlara və inkişafa yol açacaq bir hadisə kimi qiymətləndirmək istərdim. Ümid edirəm ki, bu seçkilərdən sonra Azərbaycan inkişafının yeni mərhələsinə qədəm qoymaq imkanı əldə edəcək.

Hörmətli sədr, Sizin söylədiyiniz digər bir məsələyə də münasibət bildirmək istəyirəm. Bu da Ermənistanla bizim aramızda olan müəyyən razılaşmanın əldə olunması, hərbi əsirlərin geri qaytarılması məsələsidir. Mən də bunu çox müsbət hadisə kimi qiymətləndirirəm və hesab edirəm ki, bu, doğrudan da, Ermənistanla bizim aramızda sülh sazişinin imzalanmasına töhfə verə bilər.

Amma bizim Konstitusiyaya görə, Azərbaycan Respublikasının Milli Məclisi sülh sazişinə razılıq verməlidir. Yəni Azərbaycan Respublikasının Prezidenti Konstitusiyanın 109-cu maddəsinin 17-ci bəndinə görə dövlətlərarası və hökumətlərarası müqavilələr imzalaya bilər. Amma bu sülh sazişi beynəlxalq müqavilənin xüsusi növü olduğuna görə, bunun əhəmiyyəti nəzərə alınaraq, Konstitusiyada bunun Milli Məclisin razılığı ilə edilməsi nəzərdə tutulub. Ona görə təklif edirəm ki, yaxın vaxtlarda bizim Xarici İşlər Nazirliyinin, Prezident Administrasiyasının nümayəndələrinin də iştirakı belə müzakirələr keçirilsin və biz Azərbaycan Respublikasının Prezidentinə sülh sazişi imzalamaq səlahiyyəti verək. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Elman Nəsirov. Buyurun.

**E.Nəsirov.** Hörmətli xanım sədr, hörmətli həmkarlar, media nümayəndələri. Ölkəmizdə 2024-cü il fevralın 7-də növbəti növbədənkənar Prezident seçkiləri keçiriləcək və artıq müstəqil Azərbaycanın tarixində, sadəcə, ikinci də-

fədir ki, belə bir hadisə baş verir.

2018-ci il aprel ayının 11-də keçirilən Prezident seçkiləri də növbədənkənar idi. Həmin ilin oktyabr ayında Prezident seçkiləri keçirilməli idi və 6 ay əvvələ atıldı. Bunun da çox ciddi səbəbləri var idi və ölkə Prezidenti cənab İlham Əliyev 2018-ci ildə ölkəmizdə hərtərəfli, geniş, irimiqyaslı islahatların keçirilməsinin anonsunu verdi və o zamankı reallıqlar növbədənkənar seçkiləri labüd etmişdi. Təbii, sual yaranır ki, indiki məqamda, yəni 2024-cü il fevralın 7-də növbədənkənar seçkilərin keçirilməsini şərtləndirən amillər hansılardır.

Hörmətli xanım sədr, Siz çıxışınızda bu məsələlərə çox əhatəli toxundunuz. Sadəcə, mən onu söyləmək istəyirəm ki, indiki reallıqda artıq qarşımızda yeni hədəflər dayanıb. Köhnə hədəflərə biz çatmışıq. Cənab Prezidentin strateji xəttinin ana istiqaməti o idi ki, torpaqlarımızı işğaldan azad edək, ərazi bütövlüyümüzü və suverenliyimizi tam, qəti şəkildə və əbədi olaraq təmin edək. Bütün bu strateji vəzifələr artıq yerinə yetirilib. Təbii ki, belə olan vəziyyətdə daha 1 il 2 aya qədər gözləməyin mənası yoxdur. 2025-ci ili gözləməyin mənası yoxdur.

Nəzərə alsaq ki, 2024-cü ildə bir çox dövlətlərdə seçkilər olacaq, Rusiyada seçkilər olacaq, Avropa İttifaqında parlament seçkiləridir, Birləşmiş Ştatlarda noyabr ayının 5-də seçkilərdir, Tayvanda da seçkilərdir. Yəni seçkilər ilidir və onun yaratdığı geosiyasi reallıqları da... Mən vaxtın azlığından çox dərinə getmək istəmirəm. Təbii ki, bu seçkilərin də yaratdığı özünəməxsus reallıqlar var və belə olan vəziyyətdə 2024-cü il fevral ayının 7-də seçkilərin keçirilməsi daha məqsədəuyğundur.

Çıxışımda, eyni zamanda, fürsətdən istifadə edib, mən müxalifət nümayəndələrinə üzümü tutub söyləmək istə-

yirəm ki, gəlin, seçkilərdə iştirak edin. Gəlin, göstərin ki, sizin nə qədər sosial bazanız var. Ümumiyyətlə, müxalifət gecə-gündüz bildirir ki, seçkilər, seçkilər, seçkilər. Bu da seçkilər. Gəlin, iştirak edin, doğrudan da, elektoratınız varsa, doğrudan da, sosial bazanız varsa, onu göstərin. Partiyanın qeydiyyata alınması üçün 5 min səsi güc-bəla ilə toplayan müxalif siyasi dairələrin seçkilərdə 40 min nəfərin səsini toplayıb prezidentliyə namizəd kimi qeydiyyatdan keçməsi çox...

**Sədrlik edən.** Çox sağ olun, Elman müəllim. Ancaq hansı isə ölkələrdə prezident seçkilərinin keçirilməsinin bizim 2024-cü ildə keçiriləcək seçkilərə nə dəxli var? Zahid Oruc. Buyurun.

**Z.Oruc**. Qlobal sarsıntılar və təhlükələr dövründə Prezident seçkilərinin 2024-cü il fevral ayının 7-nə təyin edilməsi Vətən müharibəsində Azərbaycana məğlub olan qüvvələrin müdaxilə və planlarından ölkəmizi qorumaq üçündür. Seçkilərin vaxtının irəli çəkilməsi üçüncü dövlətlərin planlarının pozulması və erməni təxribatlarına cavab olaraq sentyabrın 27-də verilən qərarla eyni mənaya malikdir.

Bəllidir ki, İlham Əliyevin siyasi nüfuzu nəinki ölkə daxilində, yaxud islam-türk coğrafiyasında, eləcə də dünya liderləri arasında ən güclü dövrünü yaşayır və 44 gündə Prezidentin çağırışına verilən milyonlarca səs əsl ümumxalq referendumu idi. Yəni müqəddəs müharibədə qazanılan qələbə azad, ədalətli, demokratik, legitim seçki hadisəsi idi. Zəfər seçkilərinin hansı tarixdə keçirilməsi İlham Əliyevə veriləcək milyonlarca səsi dəyişmir. Müstəqillik tarixində Ulu Öndər Heydər Əliyevin 1993-cü ildəki mütləq qələbəsi kimi Vətən müharibəsindən sonra prezidentin kimliyi və seçkilərin nəticələri təqvimin ilin-

dən və günündən asılı deyil. Növbədənkənar seçkiləri hakimiyyətin ömrünü saxta yolla uzatmaq adlandıranlar uzun illər siyasətdə olan, torpaqların itirilməsində məsuliyyət daşıyan və Qarabağ Zəfəri ilə prezidentliyə gedən yolları birdəfəlik bağlanan şəxslərdir. O üzdən ötən seçkilərdə baş verən hər hansı neqativ halın, kənar müdaxilə və pozuntuların 2024-cü il fevral ayının 7-də təkrarlanması Ermənistanın özünü demokratiya adası kimi bizdən üstün tutmasına rəvac verən qəsd, ölkəmizdə qanlı inqilablar və xarici iradədən asılı hökumətlər formalaşdırmaq istəyənlərin xeyrinə ediləcək siyasi cinayət olardı. Ərazisi və suverenliyi bütöv ölkənin Prezident seçkiləri də halal və müqəddəs olmalıdır.

3 il əvvəl dünyaya nümayiş olunan milli həmrəylik və birlik fevralın 7-də də minlərcə məntəqədə, siyasi səngərdə təkrarlanacaq. Biz 2 ay sonra təkcə birinci şəxsi deyil, həm də millətimizin 200 illik bənzərsiz qələbəsini, Pənahəli xandan Heydər Əliyevə qədər bütün rəhbərlərin ideallarını qorumağa səs verəcəyik. Əsrlərcə yaşadığımız köçkünlüyə və işğala səbəb olan şəxslərə, siyasətə "yox" deyəcəyik.

İlham Əliyevin yeni seçki platforması 44 günlük Vətən müharibəsində xalq və ordu ilə birlikdə döyüş meydanlarında yazılıb. 7 fevral Böyük Qayıdışın təminatçısı, millətimizin silahsız, dinc səsi ilə düşmənə qalib gələcəyi gündür. Kim əksinə düşünürsə, o, işğalın, məğlubiyyətin yanındadır və 26 sentyabra dönmək istəyir. 7 fevral tarixi 8 noyabr Zəfər, 20 sentyabr bütövlük gününün davamıdır və sülh müqaviləsinin imzalanmasını sürətləndirəcək. Ali Baş Komandanın şəksiz nüfuzundan və qələbəmizin misilsiz dəyərindən bəhrələnən hər kəs bilməlidir ki, əgər Azərbaycanda kim isə dövlətdən narazıdırsa, onu həmin

adamlar yaradıb. Seçkilər 2019-cu ildəki kimi, hakimiyyətin bütün qollarında aparılan kadr və struktur dəyişikliklərinin, gələcəkdə parlament, məhkəmə və bələdiyyə institutlarında xalqın səsi...

**Sədrlik edən.** Sağ olun. Siyavuş Novruzov. Buyurun.

**S.Novruzov**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar. Hörmətli xanım sədr, Siz bu məsələni əsaslı şəkildə təqdim etdiniz və hesab edirəm ki, o təqdimatdan o qədər kənara çıxmağa da ehtiyac yoxdur. O seçkilərin mahiyyəti təqdimatda bilavasitə öz əksini tam şəkildə tapdı və bu gün Azərbaycanda olan reallığın əksidir. Yəni Azərbaycanda bu gün seçki keçirmək üçün seçki mühiti var, Azərbaycanda ictimai-siyasi sabitlik var, Azərbaycan öz ərazi bütövlüyünü təmin edibdir. Azərbaycanın bütün ərazisində Prezident seçkilərinin keçirilməsi bu gün Prezidentin iradəsindən asılı olaraq təqdim edilibdir ki, istənilən şəxs gəlsin, namizədliyini versin və alternativ, yaxud rəqabət şəklində seçkilərdə iştirak etsin. Hər bir şəxs üçün şərait yaradıbdır. O baxımdan da, mən hesab edirəm ki, burada başqa bir cəhət axtarmağa ehtiyac yoxdur. Hansı ölkədə nə keçirilirsə, o həmin ölkənin daxili işidir, biz onların daxili işlərinə qarışmırıq.

Azərbaycanda isə fevral ayının 7-də azad, ədalətli, demokratik seçki keçiriləcəkdir, Prezident seçkiləri. Bundan sonra isə qarşıda çox böyük vəzifələr durur, ölkənin işğaldan azad olunmuş ərazilərinin bərpası var. Azərbaycan regionun aparıcı dövlətidir, Azərbaycan artıq sülh müqaviləsi imzalandıqdan sonra Şərqlə Qərbi birləşdirən bir nəqliyyat dəhlizinə çevriləcəkdir. Burada qarşıda çox böyük məsələlər var və bu məsələlərin həll olunması üçün, doğrudan da, bu gün o seçkilərin keçirilməsinə ehtiyac var. O seçkilər keçirildikdən sonra da Azərbaycanda bu

proseslər davam olunacaqdır ki, bizim məcburi köçkünlərimiz artıq öz yurdlarına, yuvalarına köçsünlər, orada abadlıq işləri, infrastrukturun qurulması və investisiyaların qoyulması davamlı olsun.

Bir məsələyə də toxunmaq istəyirəm. Hörmətli həmkarım Qüdrət müəllim burada məsələ qaldırdı. Cənab Prezidentə səlahiyyəti xalq verir, seçəndə xalq veribdir bu səlahiyyəti. Biz hər hansı bir müqaviləni, sazişi təsdiq edə bilərik. Bu, Konstitusiyada göstərilibdir. Biz kimə isə konstitusion qaydada səlahiyyət verə bilmərik ki, getsin, bu danışığı aparsın. Bununla bağlı aidiyyəti strukturlar var. O strukturlar bu danışığı aparır, hələ bunun nəticəsi nə olacaq, ortaya nə gəlib çıxacaq, necə olacaq, bu, tamam başqa bir məsələdir.

Sonda onu qeyd etmək istəyirəm ki, bir daha Azərbaycan xalqı da, burada olanlar da cənab Prezidentə fevral ayının 7-də gəlib səs verəcəklər və yenidən uzun müddət...

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, telefonlarınızı söndürün, ya da səsini alın. Aydın Hüseynov. Buyurun.

**A.Hüseynov**. Hörmətli xanım sədr, həmkarlarımın da qeyd etdiyi kimi, Sizin çıxışınızda fevralın 7-də keçiriləcək Prezident seçkiləri ilə bağlı, onun siyasi, hüquqi, ictimai əsasları ilə bağlı bütün fikirlər çox arqumentli şəkildə səsləndi. Hər birimizə məlumdur ki, Prezident seçkilərinin tarixi direktiv sənədlərlə müəyyənləşdirilir. Ancaq seçən seçicidir, xalqdır, xalq öz iradəsini ortaya qoyur, xalq öz seçimini edir.

Axırıncı 30 il ərzində biz iki ən mürəkkəb Prezident seçkilərinin şahidi olmuşuq. Biri 1993-cü ildə Azərbaycan dövlətçiliyinin məhv olduğu bir vaxtda xalq öz seçimini etdi, Heydər Əliyevi, Ulu Öndərimizi özünə rəhbər seçdi

və müstəqil Azərbaycan dövlətinin əsasları quruldu.

İkinci bizim ən mürəkkəb Prezident seçkilərimizin dövrü onda oldu ki, Ulu Öndərimizdən sonra, yəni xalqın iradəsini ifadə edəcək, sonrakı mərhələləri və hədəfləri müəyyənləşdirəcək Prezident seçkilərimiz 2003-cü ildə oldu ki, yenidən xalq Heydər Əliyev siyasi kursunu, bütövlükdə, dəstəklədi və cənab İlham Əliyevi Prezident seçdi. Bu illər ərzində bizim nailiyyətlərimiz, böyük qələbələrimiz, hər biri haqqında çoxlu söhbətlər açmışıq və faktlar bunu göstərir. Bu illər ərzində biz nəyə nail olduq? İqtisadiyyatımız böyüdü. Bu illər ərzində biz nəyə nail olduq? Qarabağımızı azad etdik.

Ən nəhayət, 2003-cü ildə ölkə Prezidenti Heydər Əliyevin siyasi kursunu davam edəcəyini birmənalı olaraq dedi və bunu da etdi. Onu da qeyd edim ki, həmin dövrdə Heydər Əliyevin siyasi kursunu davam edəcəyini qətiyyətlə demək o qədər də asan deyildi. Burada xarici qüvvələr var idi, daxildə özünü azərbaycanlı adlandırıb Azərbaycanın milli maraqlarına həmişə zidd olan mərkəzlərin də olduğu gizlin deyildi. Bütün bu mərhələlərin hər birini Prezident İlham Əliyev çox məharətlə keçdi.

Ən nəhayət, 2003-cü ildə "bütün Azərbaycan vətəndaşlarının Prezidenti olacağam" fikri ilə, tezisi ilə çıxış etdi. Çox mürəkkəb, çox məsuliyyət tələb edən bir tezis idi. Hamı fikirləşirdi ki, elə mən də, hər bir kəsin Prezidenti olmaq olarmı? Bəli, İlham Əliyev, cənab Prezidentimiz, Ali Baş Komandanımız sübut etdi ki, hər bir azərbaycanlının Prezidenti olmaq olar. Çünki hər bir azərbaycanlının istəyi Qarabağın azad olunması idi. Bu istəyi yerinə yetirərək biz iqtisadi, siyasi, digər nailiyyətlərimizi dedik, ancaq ən başında isə hər birimizin istəyimiz Qarabağ...

**Sədrlik edən.** Sağ olun. Ziyafət müəllim, yazılmısınız. Sualınız var Sizin?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Təklifiniz, buyurun.

**Z.Əsgərov**. Çox sağ olun, hörmətli xanım sədr. Bu mövzu ilə bağlı bir balaca replikam var. İcazənizlə, mümkündürsə, seçkilərlə bağlı, Konstitusiyaya uyğunluq nöqteyi-nəzərindən fikrimi bildirmək istərdim.

Hörmətli xanım sədr, artıq Siz qeyd etdiniz və tamamilə haqlı olaraq çox hərtərəfli əsaslandırdınız ki, növbədənkənar seçkilər ərazi bütövlüyümüzün və suverenliyimizin təsbiti deməkdir. Söhbət nədən gedir? Bizim Konstitusiyamızın 1-ci və 2-ci maddələrində göstərilir ki, Azərbaycanda hakimiyyətin mənbəyi xalqdır və suverenliyin daşıyıcısı xalqdır. İş burasındadır ki, indiyə qədər keçirdiyimiz Prezident seçkilərində Qarabağ və ona bitişik rayonlar həmişə işğal altında olub. Deməli, bizim orada ərazi bütövlüyümüz və suverenliyimiz təsbit olunmayıb və 1995-ci ildə ilk Konstitusiyamız qəbul ediləndə də belə idi. Bəli, de-yure o ərazilər hamısı bizim idi, amma indi ərazimiz işğaldan azad olunub və möhtərəm cənab Prezident xalqa müraciət edir ki, bu Prezident seçkilərini keçirməklə sizin haqqınız var, öz suveren hüququnuzdan, – çünki suverenliyin daşıyıcısı sizsiniz, mənim əziz xalqım və hakimiyyətin mənbəyi də sizsiniz, – istifadə edib Prezidenti seçəsiniz və orada Azərbaycanın hakimiyyəti tam, həm de-yure, həm də de-fakto bərpa olunsun. Düzdür, onsuz da aprel və sentyabr hadisələrindən sonra, Xankəndi də azad olunduqdan sonra orada bizim hakimiyyətimiz bərpa olunub. Amma iş burasındadır ki, Konstitusiya xalq tərəfindən qəbul olunduğuna, 1995-ci ildə bizim ərazi bütövlüyümüzə xalq səs verdiyinə

və xalq da öz suveren hüququnu Prezidenti seçməklə həyata keçirdiyinə görə və Prezidentin də orada hakimiyyətinin tam bərqərar olması üçün xalqın iradəsi çox vacibdir. Bax, qısaca, Konstitusiya hüququ, mahiyyət bundan ibarətdir. Yəni burada hansı isə şübhəli məqam axtarmaq, sadəcə, düşmənçilikdir. Söz verdiyinizə görə təşəkkür edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Vüqar Bayramov. Buyurun.

**V.Bayramov**. Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Hörmətli xanım sədr, mən çox ətraflı təqdimata görə Sizə təşəkkür edirəm. Eyni zamanda, qeyd etmək istərdim ki, növbədənkənar seçkilərin keçirilməsi dünyada qəbul edilmiş siyasi təcrübələrdən biridir və mən növbədənkənar seçkilərlə bağlı bir sıra ölkələrin, eləcə də ittifaqların təcrübəsinə diqqət yetirdim. Yalnız Avropa İttifaqının üzvü olan ölkələrin 15-dən çoxunda fərqli illərdə növbədənkənar seçkilər keçirilib. Eyni zamanda, yalnız inkişaf etməkdə olan ölkələrdə deyil, inkişaf etmiş ölkələrdə belə, o cümlədən Kanadada, Yaponiyada bu praktikadan istifadə olunub. Yəni bu, əslində, ondan xəbər verir ki, bu, dünyada qəbul edilmiş bir praktikadır. Təbii ki, Azərbaycanda növbədənkənar seçkilərin keçirilməsinin özünün, eyni zamanda, yerli kontekstdən də qiymətləndirilməsinə ehtiyac var. Qeyd olunduğu kimi, növbəti ildə keçiriləcək seçkilər zəfər seçkiləridir və gələn il fevralın 7-də keçiriləcək növbədənkənar seçkilər Azərbaycanın müstəqilliyi tarixində ilk dəfə olaraq Azərbaycanın bütün ərazilərində keçiriləcək. Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam bərpa olunub. Ona görə, təbii ki, növbədənkənar seçkilərin keçirilməsi zəruri idi. O cümlədən, təbii ki, mən də işğaldan azad olunmuş rayonu Milli Məclisdə təmsil edirəm və artıq

uzun müddət, 30 il işğal altında qalan Füzuli şəhəri bu gün bərpa olunub. İlin sonuna qədər iki min nəfər vətəndaşımız Füzuli şəhərində məskunlaşacaq və Füzuli şəhərində də artıq növbəti il fevral ayının 7-də seçkilər keçiriləcək.

Bu, müstəqillik tarixində ilk seçki olacaq ki, işğaldan azad olunmuş Füzuli şəhərində olan vətəndaşlar, seçicilər öz siyasi iradələrini nümayiş etdirə biləcəklər. Təbii ki, Azərbaycan qalib ölkədir və qalib ölkənin qalib rəhbəri var. Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə əldə etdiyimiz Zəfər həm də bizi yeni zəfərlərə aparacaq. O baxımdan, təbii ki, növbəti il keçiriləcək növbədənkənar seçkilər həm də, bütövlükdə, əldə edilən uğurların, həm siyasi, həm hərbi, həm də iqtisadi sahədə əldə edilən uğurların dayanıqlığı, davamlılığı baxımından çox vacibdir. Bu gün, təbii ki, bütün Azərbaycan vətəndaşlarının dəstək olduğu və daim dəstəklədiyi cənab Prezident məhz bu dayanıqlığı təmin edəcək şəxsdir. Ona görə də növbədənkənar seçkilər həm də, təbii ki, iqtisadi sahədə islahatların dərinləşməsi, siyasi müstəvidə islahatların davam etdirilməsi və çox fərqli sektorlarda yeni uğurlara imzanın atılması baxımından vacibdir. Ona görə, o baxımdan əminəm ki, gələn il fevral ayının 7-də təşkil ediləcək növbədənkənar seçkilər həm də Azərbaycan üçün iqtisadi-siyasi inkişaf baxımından yeni bir mərhələnin başlanğıcı olacaq. Çox təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Bəhruz Məhərrəmov. Buyurun.

**B.Məhərrəmov**. Hörmətli Sədr, əziz həmkarlar. Qafqaz kimi mürəkkəb regionda nə qədər gözlənilməz olsa da, artıq sülhün addım səsləri eşidilir. Daha doğrusu, qətiyyəti ilə işğala, separatizmə son qoyub Azərbaycanı tarixinin ən güclü dövlətinə çevirən siyasi iradə indi də regionda sülhü bərqərar etməkdədir.

Üç il əvvələ qədər “yeni müharibə və yeni torpaqlar” iddiaları ilə lərzəyə gələn region bu gün, nəhayət ki, xoş niyyət təzahürlərinə və humanizm dəyərlərini rəhbər tutan etimad quruculuğu istiqamətində razılığa şahidlik edir.

Azərbaycanı “rəngli inqilablar”ın dağıdıcı təsirindən müdafiə etməyi bacaran cənab İlham Əliyev indi də regionu qütblərarası toqquşma nöqtəsi olmaqdan qorudu. Bilirsiniz, Qafqaz mürəkkəb tarixi inkişaf yolu keçib, amma etiraf edək ki, tarixinin heç bir dövründə Azərbaycan bu regionun lokomotivi ola bilməyib. Amma bu gün Heydər Əliyev siyasi kursu regionda yeni dövr başladır. Ona görə də Şərqin, Qərbin, Şimalın, Cənubun təsiri altında yazılmış, bu xalqa xainləri, fərariləri lider kimi sırıyan saxta tarix kitablarını atıb, yeni tarixi yazmaq vaxtıdır. Daha doğrusu, cənab İlham Əliyev artıq bu tarixi yazıb, sadəcə, yazılanı dürüst şəkildə kitaba köçürməyin zamanıdır.

Biz real müstəqilliyimizin 30-cu ilində ali konstitusion niyyətimizə əsaslanaraq, nəhayət, bəyan edə bilirik ki, Azərbaycan bütün aspektlərdə müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü təmin etmiş dövlətdir və tariximizdə ilk dəfə ərazi bütövlüyümüz çərçivəsində seçki keçirməyə hazırlaşırıq.

Bu mənada Konstitusiyanın 101-ci maddəsinin I hissəsinin 2-ci cümləsini rəhbər tutaraq fevralın 7-nə müəyyənləşən növbədənkənar Prezident seçkiləri, əslində, bizim qürur tariximizin mühüm bir həlqəsi olacaq.

Aydındır ki, Zəfərimizdən doğan yeni reallıq tələbləri də dəyişib, hədəflərimiz də 3 il əvvəlki hədəflər deyil və 2017-ci ildən start verilən, böyük uğurlara aparan islahatların yeni mərhələsində olduğu kimi, cənab İlham Əliyev bu dəfə də islahatı zirvədən başlayır. Bu, əslində, siyasi mədəniyyətin zirvəsi deməkdir.

Necə ki, böyük Heydər Əliyev topsuz, tüfəngsiz, ordusuz, yalnız xalqa – ona canı-qanı ilə dəstək olmağa hazır olan milyonlara güvənərək müasir Azərbaycan dövlətini qurdu, cənab İlham Əliyev də tam yeni Azərbaycanın quruculuğunda məhz xalqın etimadına güvənərək erkən seçkilərə gedir. Bu, eyni zamanda, xalq üçün bir fürsətdir ki, 20 ildir bizi qələbədən-qələbəyə daşıyan, Azərbaycanı qalib dövlətə çevirən müzəffər liderinə özünün minnətdarlığını çatdırsın. Çünki bu ölkəyə ən azı son 105 ildə xəyanətkarı da, acizi də, torpaq satanı da, məğlubu da, fərarisi də rəhbərlik edib, amma biz ilk dəfədir ki, bütün suveren ərazilərimizi əhatələyəcək seçkilərdə qalib sərkərdəyə səs verəcəyik. Qalibləri seçmək bu xalqın haqqıdır!

Bu məsələni şərh etmək isə bir zamanlar çevrilişlə hakimiyyətləri zəbt etmiş pozucu dairələrin, yaxud siyasi nihilistlərin başı üçün olan məsələ deyil. Xalq yaxşı anlayır ki, bu siyasətin alternativi yoxdur və fevralın 7-də bunu bir daha dünyaya nümayiş etdirəcək.

**Sədrlik edən.** Sağ olun. Azər Badamov. Buyurun.

**A.Badamov.** Hörmətli xanım sədr, hörmətli həmkarlar! Dünən ölkəmizin ictimai-siyasi həyatı üçün vacib, regional münasibətlərin inkişafına yeni bir impuls verəcək və xalqımızı sevindirən 3 xəbərin şahidi olduq. Birinci xəbər gələn il fevralın 7-də ölkəmizdə keçiriləcək növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri ilə bağlıdır. Elan olunmuş növbədənkənar seçkilər müstəqil dövlətimizin son 33 illik tarixində bütün ərazilərində suverenliyi təmin edilərək keçirilən ilk seçkilərdir. Bu gün Azərbaycan dövləti qalibdir və ölkəmizi bu yüksək zirvəyə qaldıran Prezident İlham Əliyev və xalq–iqtidar birliyidir.

Keçiriləcək növbədənkənar seçkilər regionda yaratdığımız yeni reallığın zəfər seçkiləridir. Seçkilərdə iştirak et-

mək istəyən hər bir şəxs üçün tam demokratik mühit mövcuddur. Bu seçkilər Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin özünə inamının, xalqın siyasi dəstəyinə əminliyin ən bariz göstəricisidir. Mən əminəm ki, xalqımız bu seçkilərdə də qalib sərkərdə İlham Əliyevi dəstəkləməklə ölkəmizdəki monolit birlik və həmrəyliyini bütün dünyaya bir daha nümayiş etdirəcəkdir.

Digər sevindirici xəbər Ermənistanda əsirlikdə olan iki əsgərimizin azad edilməsi ilə bağlıdır. Bu, Ali Baş Komandanın hər bir Azərbaycan əsgərinin taleyini düşündüyünün göstəricisidir. Eyni zamanda, əsgər valideynlərinin dövlətimizin başçısına etdikləri müraciətə verilən yüksək dəyər və onların dərdinə şərik olmağın əyani sübutudur. Prezident İlham Əliyev bu təşəbbüslə hər bir vətəndaşın Prezidenti olduğunu bir daha təsdiq etmiş oldu. Bu hadisə həm də Azərbaycanla Ermənistan arasında etimad mühitinin yaradılması baxımından çox əhəmiyyətlidir. Regionda sülh və əməkdaşlıq yaratmaq, hərbçiləri azad etmək təşəbbüsləri Prezident İlham Əliyevə məxsusdur. Müvafiq qurumlar arasında birbaşa danışıqların aparılması yolu ilə razılaşmaların əldə olunması həm də ölkələrimiz arasında münasibətlərin yeni bir müstəviyə çıxmasına yol açır.

Üçüncü tarixi hadisə COP29-a evsahibliyində Ermənistanın öz namizədliyini geri götürərək Azərbaycanı dəstəkləməsi ilə bağlıdır. Bu, Ermənistanın da regionda yaratdığımız yeni reallığı qəbul etməsi deməkdir. İnanırıq ki, belə hadisələr Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanmasını, qonşuluq münasibətlərinin formalaşmasını və mübahisəli məsələlərin həllini sürətləndirəcəkdir. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Tahir Kərimli. Tahir müəllim, sualınız var. Buyurun.

**T.Kərimli.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar, mən də növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərini alqışlayıram və hesab edirəm ki, inşallah, bu, fevraldan sonra yeni bir dövlət quruculuğu erasının başlanğıcı olacaq. Çox böyük ümidlə yanaşıram, alqışlayıram və partiyamız da müvafiq qərar qəbul edəcəkdir. Sadəcə olaraq, istəyirəm burada olan bir balaca mübahisəyə aydınlıq gətirəm.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndinin mənasına görə, əgər dövlətlərarası münasibətlərdən və Azərbaycan Respublikasının qanunlarından kənar müddəalar olarsa, həmin anda Azərbaycan Respublikasının Prezidenti həmin müqaviləni, bağlanmış sazişi Azərbaycan Respublikası Milli Məclisinə təsdiq olunması və ya ləğv olunması üçün göndərir. Yəni hələ sülh müqaviləsi bağlanmayıb...

**Sədrlik edən.** Sağ olun.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Qüdrət müəllim, Siz yazıldınız indi. Buyurun.

**Q.Həsənquliyev**. Təşəkkür edirəm. Həmkarlarımdan üzr istəyirəm, əslində, reaksiya vermək istəmirdim. Bu, Konstitusiyanın 109-cu maddəsinin 30-cu bəndinin tələbidir ki, Azərbaycan Respublikası Prezidenti Milli Məclisin razılığı ilə müharibə elan edir və sülh bağlayır. Yəni bu, konstitusion tələbdir. Ona görə də istəyirəm ki, həmkarlarım bunu nəzərə alsınlar. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Mən düşünürəm ki, Siz onu işçi qaydada da sonra bir-birinizlə danışa bilərdiniz. Burada heç bir mübahisə də yoxdur. Razi Nurullayev. Buyurun.

**R.Nurullayev**. Hörmətli xanım sədr, hörmətli deputatlar, media nümayəndələri. Fevral ayının 7-də növbədən-

kənar Prezident seçkilərinin keçirilməsi təmsil etdiyim Milli Cəbhə Partiyası üçün məqbuldur və biz partiya olaraq Azərbaycanın siyasi həyatında hər zaman fəal mövqe sərgiləməyin tərəfdarı olmuşuq və mövqeyimizi saxlayırıq. Növbədənkənar Prezident seçkilərinin keçirilməsi təmsil etdiyim partiya üçün həm də o cəhətdən önəmlidir ki, suverenliyini bərpa edən Azərbaycan üçün xalqın öz siyasi və seçim mövqeyini bildirməsini vacib bilirik. Bizim partiya üçün bu səbəb onunla xarakterizə olunur ki, dünyada Azərbaycana münasibət bəzən birmənalı olmur və xeyli qərəzli münasibətlər ortaya çıxır. Növbədənkənar seçkilərin keçirilməsi bizim beynəlxalq aləmə, Azərbaycana qərəzli və qərəz üzərindən qurulan fərqli baxışlara verilən bir cavab olmalıdır və inanıram ki, olacaq.

Bu seçkilərin tam ədalətli və şəffaf olması, bütün iştirakçılara bərabər hüquqların və yanaşmaların tətbiq edilməsinin həm də ölkəmizə qarşı yönələn antidemokratik çağırışlara və yanaşmalara cavab olacağını düşünürəm. Bununla bərabər, ərazi bütövlüyümüzü və suverenliyimizi bərpa edəndən sonra Azərbaycanın yaratdığı yeni reallıqlar fonunda demokratik və azad seçkilərin keçirilməsi ölkəmizin beynəlxalq nüfuzuna da müsbət təsir göstərmiş olacaqdır. Bu seçkilər Milli Cəbhə Partiyası üçün həm də ona görə önəmlidir ki, fevralın 7-dən sonra cəmiyyətimiz daha iç-içə, daha mehriban və siyasi qüvvələr də daha real düşüncələrə malik olacaqdır. Çünki ölkəmizdə yaranan vəziyyət elə münasibdir ki, əlavə şübhəli fikirlərə meydan vermir və verə bilməyəcəkdir. İnanıram ki, bu seçkilər ölkəmizin inkişafında yeni müsbət meyillər yaradacaqdır.

Sonda isə, hörmətli xanım sədr, bir məsələyə münasibət bildirmək istəyirəm. Gördüyünüz kimi, mənim bu çıxışım heç də seçkilərin keçirilməsini əsaslandırmaq çıxışı deyil-

dir. Siz seçkilərlə bağlı izahat verdiniz, müəyyən məqamları dediniz. Buna görə Sizə təşəkkür edirəm. Bəzi həmkarlarımın çıxışları və olacaq çıxışlarla bağlı bir mövqe sərgiləmək istəyirəm ki, seçkilərlə bağlı qərarın verilməsi Prezidentin səlahiyyətindədir və bizim heç kimin qarşısında öhdəliyimiz və izah etmək borcumuz yoxdur. Əsaslandırmaq borcumuz yoxdur ki, biz kiminsə qarşısında bunu edək. Bu seçki keçirilir, Prezident bu qərarı verib. Xalq gələcək, səs verəcək və buna görə bizim heç kimin qarşısında izahat vermək borcumuz yoxdur. Qoy bunu hər kəs bilsin. Mən hesab edirəm ki, Azərbaycan oturuşmuş bir dövlətdir, güclü bir dövlətdir və bu bizim müstəsna hüququmuzdur. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Ancaq mən də izahat verməmişəm, Siz onu gərək düzgün ifadə edəydiniz. Spiker olaraq, həmişə olduğu kimi, burada sizin fikirlərinizi ifadə eləyərək vacib məsələlərlə bağlı mən də hansısa bir söz demişəm. İzahat sözü düzgün deyil. Elşad Mirbəşir oğlu. Buyurun.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Mənim çıxışıma izahat demək düzgün deyil, qalanlarını özünüz bilərsiniz. Buyurun.

**E.Mirbəşir oğlu.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar. Azərbaycanda birinci dəfə Prezident seçkiləri keçiriləndə ölkəmizin ərazisində artıq separatçı rejim yaradılmışdı. Müvafiq olaraq da həmin ərazilərdə biz faktiki suverenlik hüququmuzu da itirmişdik. Yəni ilk dəfə olaraq bütün ərazilərimiz boyunca, suverenliyimizin etibarlı və dönməz şəkildə təmin olunduğu bir şəraitdə seçkilər keçiriləcəkdir. Müvafiq olaraq da yeni tarixi şəraitdə ilk dəfə məhz Prezident seçkilərinin keçirilməsi həm məntiqlidir, həm də ədalətlidir. Nəzərə

almaq lazımdır ki, vətəndaşların əsas hüquqlarından biri də seçki hüququdur və müstəqilliyimiz tarixi boyunca Azərbaycan vətəndaşlarının bir qismi öz doğma yurd-yuvalarından kənarda seçki hüquqlarını həyata keçirirdilər. Nəhayət, hesab edirəm ki, bu Prezident seçkilərinin təyin edilməsi həm də cəmiyyət üzvlərinin məhz öz tarixi torpaqlarında seçki hüquqlarını təmin etməyə imkan verəcəkdir. Bu da Azərbaycan tarixinin çox vacib, çox önəmli bir səhifəsidir.

Ayrıca olaraq, unutmaq olmaz ki, dünyada çox gərgin proseslər cərəyan etməkdədir. Titanik dəyişikliklər gözlənilir və müvafiq olaraq, dövlətimiz digər dünya ölkələri kimi, həm də çox vacib strateji regionda yerləşməklə yeni çağırışlar qarşısındadır. Hesab edirəm, 2024-cü ilin fevral ayına təyin edilən seçkilərin tarixi əhəmiyyəti həm də ondan ibarət olacaqdır ki, Azərbaycan yeni çağırışlara öz yeni obrazında, yəni ərazi bütövlüyünün tam təmin olunduğu obrazda daha səmərəli cavab vermək imkanına malik olacaqdır, bu da çox vacibdir. Ayrıca olaraq, ölkə Prezidenti də dəfələrcə vurğulayıbdır ki, Azərbaycanın qarşısında yeni inkişaf vektorları mövcuddur. Təbii ki, Azərbaycan həm beynəlxalq siyasi münasibətlər, həm də beynəlxalq iqtisadi əməkdaşlıq sistemində ərazi bütövlüyünü təmin etməklə yeni imkanlarla iştirak etməkdədir. Müvafiq olaraq, Prezident seçkilərinin keçirilməsindən sonra Azərbaycan dövləti, hesab edirəm ki, öz yeni obrazında həm siyasi, həm də iqtisadi münasibətlərini daha səmərəli qurmaq imkanına sahib olacaqdır. Hesab edirəm ki, 2020-ci ildəki həmrəyliyimiz 2024-cü il Prezident seçkilərində də bir daha dünyaya nümayiş etdiriləcək. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Kamal Cəfərov. Buyurun.

**K.Cəfərov**. Çox sağ olun, hörmətli xanım sədr. Bu il oktyabrın 18-də Azərbaycan müstəqilliyinin bərpasının 33-cü ilinə qədəm qoyduq. 33 il mühüm yaşdır və bu yaş Azərbaycan üçün böyük gələcəyin başlanğıcıdır. Məşhur Amerika sosioloqu Rendall Kollinzin irəli sürdüyü nəzəriyyəyə əsasən, dövlətlərin inkişaf tarixi yüzilliklərlə deyil, 33 illə müqayisə olunmalıdır. Çünki tarixi araşdırmalar göstərib ki, hər 33 ildən bir dövlətlər yeni inkişaf mərhələsinə qədəm qoyur, böyük yaradıcılığa başlayır. Bizim də xalq olaraq böyük gələcək üçün nəhəng təməllərimiz var.

Birincisi, fəxrlə deyə bilərik ki, azərbaycançılıq ideologiyası, Azərbaycanın əsl müstəqilliyinin, böyük Zəfərimizin siyasi, hərbi, iqtisadi və hüquqi təməlləri Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub.

İkincisi, Azərbaycan 33 yaşına kimi natamam olub. Məhz 2023-cü il oktyabrın 15-də müzəffər sərkərdə İlham Əliyevin Xankəndidə, Xocalıda, Xocavənddə bayrağımızı ucaltması ilə Azərbaycan bütövləşdi. Sosial-iqtisadi inkişaf baxımından son 20 ildə illik sosial müdafiə xərcləri 20 dəfədən çox artıb. Bu dövrdə minimum əmək haqqı 38 dəfə, orta aylıq pensiya 18 dəfə, orta aylıq əmək haqqı 12 dəfə artıb. Son 20 ildə ümumi daxili məhsulumuz 6,2 milyard ABŞ dollarından 78 milyard ABŞ dollarına qədər çatıb. Strateji valyuta ehtiyatlarımız 1 milyard ABŞ dollarından 66,1 milyard ABŞ dollarına qədər yüksəlib. Son 20 ildə Azərbaycan iqtisadiyyatı neft sənayesindən qeyri-neft sənayesinə uğurla transformasiya edilib. 2024-cü ildə dövlət büdcəsinin gəlirlərinin yarısından çoxu qeyri-neft sektorundan daxilolmaların hesabına formalaşacaq.

Təbii sərvəti olan ölkələr çoxdur. Onların müstəqilliyi və sosial və iqtisadi vəziyyətləri də göz qabağındadır.

Bizim Zəfərimizin də, uğurlarımızın da səbəbi İlham Əliyev idarəetməsinin nəticəsidir.

Xarici siyasətdə dünyanın bu mürəkkəb zamanında Azərbaycan heç bir regional alyansa qoşulmadan, tərəf tutmadan, Avropa İttifaqına üzv 9 ölkə ilə strateji tərəfdaşdır. Regionda Azərbaycan kimi qonşu dövlətləri ilə yüksək praktiki əməkdaşlığa malik olan digər bir ölkə yoxdur. Prezident İlham Əliyev Azərbaycanı türk dövlətləri birliyinin episentrinə çevirdi. Bu gün Azərbaycan Avrasiyada enerji və nəqliyyat xəritəsini dəyişə biləcək söz sahibinə çevrilib. Azərbaycan tarixdə olmadığı qədər güclü və müstəqildir.

Əziz həmkarlar, son 20 ildə nailiyyət indikatorları çoxdur. Bütün bunlardan çıxarmalı olduğumuz yeganə nəticə odur ki, Azərbaycanın rifahı həmişə Əliyev irsi ilə bağlı olub. Bu irs bizim bəxtimizdir, milli sərvətimizdir və gücümüzdür. Məhz bu irslə Azərbaycanın müstəqilliyinin və rifahının qarantı İlham Əliyevlə zəfər seçkisindən sonra da yeni Azərbaycandan güclü Azərbaycana əmin addımlarla həmişə irəliləyəcəyik. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Son çıxış. Elşən Musayev. Buyurun.

**E.Musayev.** Təşəkkür edirəm, xanım sədr. Burada deyilən bütün fikirləri bölüşürəm. Eyni zamanda, o məntiqlə razıyam ki, mövcud seçkinin başqa hansı ölkədə olan situativ vəziyyətlə və ya seçki ilə heç bir əlaqəsi yoxdur, bu, konstitusion hüquqdur, səlahiyyətdir. Cənab Prezident də nəyi, necə, nə vaxt edəcəyini gözəl bildiyi üçün ən doğru qərarı verib.

Mən bir dəfə də söyləmişdim ki, İlham Əliyevi müdafiə eləmək bu gün, əslində, milli mövqedir. Bəlkə də zaman-zaman yalnız siyasi mövqe olub. Amma bu gün milli

mövqedir. İlham Əliyevin adı milli mövzudur, milli yoldur və milli bütövlüyümüzün rəmzidir.

Mən, eyni zamanda, bir məqama da xüsusi diqqət çəkmək istəyirəm. Dünəndən etibarən artıq bəzi qüvvələr ürək bulandırmağa başlayıblar. Söhbət o qüvvələrdən gedir ki, siyasi meydan dedikdə yalnız sosial şəbəkələri nəzərə alırlar. Siyasi kontingent dedikdə, elektorat dedikdə yalnız öz ətraflarındakı trolları, daha doğrusu, o trol sürülərini nəzərə alırlar. Söhbət o insanlardan gedir ki, "Siyasi partiyalar haqqında" Qanun qəbul olunandan sonra 5 min üzvü belə zorla, Allah bilir, bəlkə də Allah da bilmir, şeytan bilir, nə cür, hansı yollarla əldə elədilər. Manipulyasiya ilə məşğuldurlar və nəhayət, özlərini "ana müxalifət" adlandırırlar və həmin "ana müxalifət"in ətrafında olan tör-töküntülər, qaragüruh yığını 30 ildir, atalarını axtarıb tapa bilmirlər. Gedəcəklərmi seçkiyə, inanmıram. Çünki öz güclərinə də, kəramətlərinə də bələddirlər. Amma əgər getsələr, o zaman mübarizə Şuşanı işğaldan azad edənlə Şuşanı satanların arasında olacaq və belə bir məqamda, heç şübhəsiz ki, xalq üçün də seçim etmək heç bir çətinlik yaratmayacaq. Eşq olsun İlham Əliyevə! Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Çox sağ olun, Elşən müəllim. Hörmətli həmkarlar, bizim ayırdığımız vaxt bitdi və 15 nəfər də çıxış etdi. Mən hamıya təşəkkür edirəm və biz gündəliyin məsələlərinə keçirik. Bildiyiniz kimi, – gündəlik sizdə var, – biz bu gün 24 məsələni müzakirə eləməliyik. İlk iki məsələmiz Milli Məclisin qərar layihələridir. Gündəliyin 1-ci məsələsi "Azərbaycan Respublikası Milli Məclisi komitələrinin sədrlərinin seçilməsi haqqında" Milli Məclisin Qərarında dəyişiklik edilməsi barədə qərar layihəsidir. Layihə sizə paylanıb, əgər başqa fikir yoxdursa, xahiş

edirəm, münasibət bildirin. Buyurun.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.56 dəq.) |
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 3 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, Milli Məclisin qərarı qəbul edildi. Fazil müəllim, mən Sizi təbrik edirəm və gələcək işinizdə də uğurlar arzulayıram.

Hörmətli həmkarlar, biz gündəliyin 2-ci məsələsinə keçirik və bu məsələ "Azərbaycan Respublikası Milli Məclisi komitələrinin sədr müavinlərinin seçilməsi haqqında" Milli Məclisin Qərarında dəyişiklik edilməsi barədə qərar layihəsidir. Bu layihə də sizdə var. Xahiş edirəm, əgər başqa fikir yoxdursa, səsə qoyaq. Razısınız səsə qoymağa?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Buyurun, bu məsələyə münasibət bildirin.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.57 dəq.) |
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, Milli Məclisin qərarı qəbul edildi. Ülviyyə xanım, mən Sizi də təbrik edirəm, işinizdə uğurlar arzulayıram.

Hörmətli həmkarlar, qeyd edim ki, növbəti 2 məsələmiz üçüncü oxunuşda olan qanun layihələridir. Beləliklə, gündəliyin 3-cü məsələsi Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında qanun layihəsidir. Qeyd edim ki, məsələnin müzakirəsi ilə əlaqədar bizim dəvət olunan qonaqlarımız var. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəisi hörmətli Məmməd Abbasbəyli, rəis müavini hörmətli Cəfər Babayev və Aparat rəhbəri hörmətli Tural İsmayılov. İclasımızda onlar iştirak edirlər. Sizi yenə də salamlayırıq.

Hörmətli həmkarlar, qanun layihəsinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Ona görə də mən hörmətli Tahir müəllimdən xahiş edirəm, Tahir müəllim, komitənin rəyini bildirin. Buyurun, məlumat verin.

**T.Mirkişili,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli həmkarlar, 12 fəsil və 84 maddədən ibarət olan Rəqabət Məcəlləsi həm Milli Məclisin komitə iclasında, həm plenar iclaslarda, həm də bütövlükdə, ictimai sektor tərəfindən geniş və peşəkar şəkildə müzakirə edilmişdir. Birinci və ikinci oxunuşlarda qəbul olunan layihənin üzərində iş getmiş, həm Milli Məclis deputatları tərəfindən, həm də ekspertlər tərəfindən bizə daxil olmuş bütün təkliflər və şərhlər araşdırılmış və onların bir hissəsi qanunvericilik təşəbbüskarı subyekti ilə təhlil edilərək artıq layihədə öz əksini tapmışdır. İcazənizlə, ikinci oxunuşda qəbul etdiyimiz qanun layihəsində hansı dəyişikliklərin edildiyini elan etmək istəyərdim.

Birincisi, qanun layihəsinə edilən dəyişikliyə görə layi-

hə iyul ayının 1-dən qüvvəyə minəcəkdir. İkincisi, mövcud qanun layihəsində “müvafiq bazarın sərhədləri” ifadəsi “müvafiq bazarın məhsul və coğrafi sərhədləri” ifadəsi ilə əvəz olunmuşdur. Çünki məhsul və coğrafi sərhədlər tamamilə bir-birindən fərqli olan ifadədir. Digər məsələ, qanun layihəsində “təsərrüfat fəaliyyəti” sözləri “sahibkarlıq fəaliyyəti” ifadəsi ilə əvəz edilmişdir ki, müvafiq qanunvericilikdə, digər qanunlarda işlədilən ifadədir.

Digər mühüm dəyişikliklərdən biri 43.1.2-ci maddədə “dərc olunan” sözlərindən sonra “yayımlanan” sözünün əlavə olunmasıdır. Çünki bəzi hesabatlar elektron formada yayımlandığı üçün qanun layihəsində bunu əks etdirməyə ehtiyac yaranmışdır. Digər mühüm dəyişikliklərdən biri də yeni təqdim olunmuş qanun layihəsinin 53.1-ci maddəsində “zəruri hallarda tərcüməçi dəvət oluna bilər” ifadəsindən “zəruri hallarda” sözlərinin çıxarılmasıdır. Bu zaman tərcüməçinin dil bilməyən sahibkarlarla bağlı məsələdə iştirak etməsi qanunun mühüm tələbidir.

Qanunun digər tələblərindən biri hörmətli deputatlar tərəfindən də qaldırılmışdı. Bu, “Baxış və götürmə zamanı video çəkilişdən istifadə” adlanan 54-cü maddədə video çəkilişin olması ilə bağlı olan bir tövsiyə və xahiş idi. Qanunda bu, artıq öz əksini tapmışdır. Belə ki, bundan sonra 54.1-ci və 54.2-ci maddələr üzrə yoxlama keçirilərkən rəqabət orqanı tərəfindən hər hansı baxış və götürmə vasitəsi video çəkiliş formasında aparılacaqdır.

Digər mühüm dəyişiklik 60.2-ci maddə ilə bağlıdır. Bildiyiniz kimi, 60.2-ci maddədə sahibkarlar tərəfindən tələb olunan məlumatların təhrif və ya düzgün olmaması halında sahibkarlara maliyyə sanksiyasının tətbiq olunması ilə bağlı bir tələb vardı. Artıq yeni təqdim olunmuş layihədə sahibkara qarşı bu maliyyə sanksiyası tətbiq olunma-

mışdan qabaq ona 10 gün vaxt verilir. Bu 10 gün ərzində hansı məlumatın düzgün olmadığı və ya çatışmadığı izah olunur. Əgər 10 gün müddətinə sahibkar bu məlumatı təqdim etməzsə, o zaman maliyyə sanksiyasının tətbiq olunması qanunda öz əksini tapmışdır. Düşünürük ki, bu da kifayət qədər humanist bir addımdır.

Eyni zamanda, digər mühüm dəyişikliklərdən biri rəqabət komissiyasının nəticələrinə dair məlumatların rəqabət orqanlarının rəsmi internet səhifəsində dərc edilməsi ilə bağlı tələbdir ki, bu da qanunda öz əksini tapmışdır.

Digər mühüm dəyişiklik isə rəqabət qanunvericiliyinin pozulmasına dair 70-ci maddənin adı dəyişdirilir. O, "Rəqabət qanunvericiliyinin pozulması və məsuliyyət tədbirlərinin tətbiqinə dair qərarlar" adlanır.

Bundan başqa, 77.1.1-ci maddədə "bu Məcəllənin 60-cı maddəsi nəzərə alınmaqla" sözləri əlavə olunur.

Digər mühüm dəyişikliklərdən biri 77.2.3-cü maddədə "nisbi hökmran mövqe" ifadəsi "nisbətən yüksək bazar gücü" ifadəsi ilə əvəz olunur.

Bundan başqa, qanunda bir çox dəqiqləşdirici, o cümlədən istinad olunan maddələri dəqiqləşdirən düzəlişlər, redaktə və üslub xarakterli düzəlişlər edilmişdir.

Layihə ilə bağlı İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin rəyi müsbətdir. Biz düşünürük ki, Rəqabət Məcəlləsi üçüncü oxunuşda Milli Məclis tərəfindən qəbul olunması üçün tam hazırdır. Biz inanırıq ki, bu məcəllənin qəbul olunması ölkədə rəqabət mühitinin inkişaf etdirilməsi ilə iqtisadi inkişafa nail olmaq və özəl sektorun layiqli payına sahib olmaqda çox mühüm və yeni bir səhifənin açılması imkanı yaradacaqdır. Həmkarlarımdan səs vermələrini xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Bəli, üçüncü oxunuşdur.

Rəqabət Məcəlləsinin qəbul edilməsinə münasibət bildiririk. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.03 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, məcəllə üçüncü oxunuşda qəbul edildi.

İndi isə, hörmətli həmkarlar, Rəqabət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında qanun layihəsini mən səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.03 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Hörmətli həmkarlar, biz gündəliyin 4-cü məsələsinə keçirik. Bu məsələ Qiymətləndirmə fəaliyyəti haqqında qanun layihəsidir. Qeyd edim ki, bu layihəyə də İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Ona görə, Tahir müəllim, yenə də Sizə söz verirəm. Buyurun.

**T.Mirkişili.** Çox sağ olun, xanım sədr. Hörmətli həmkarlar, 6 fəsil, 27 maddədən ibarət olan bu qanun layi-

həsində də ikinci oxunuşdan sonra deputat həmkarlarım tərəfindən həm komitədə, həm də plenar iclasda səsləndirilən fikirlərlə bağlı həm müvafiq nazirlik, həm də qanunvericilik təşəbbüsü subyekti ilə tərəfimizdən aparılan müzakirələr nəticəsində bir sıra dəyişikliklər edilmişdir. Bu dəyişiklikləri də sizin diqqətinizə çatdırmaq istərdim.

İlk öncə, qanunda bir neçə dəqiqləşdirici xarakterli düzəliş edilmişdir. Belə ki, 1.1.4-cü maddədə “maddi və qeyri-maddi nemətlər” ifadəsi “maddi və ya qeyri-maddi əmlak” ifadəsi ilə əvəz edilmişdir. Çünki bildiyiniz kimi, qiymətləndirmə fəaliyyətinin obyektlərindən biri olan riskləri qiymət saymaq doğru deyildir. Ona görə, qeyri-maddi əmlakla əvəz edilmiş və eyni zamanda, bu, İnzibati Xətalar Məcəlləsi və Mülki Məcəlləyə uyğunlaşdırılmışdır.

Digər mühüm dəyişiklik, qiymətləndirmə fəaliyyətinin istiqamətləri konkretləşdirilərək bir neçə fəaliyyət istiqaməti bir ümumi bənddə təqdim olunur. Belə ki, əvvəl bizim qəbul etdiyimiz layihədə 13 əsas və 7 alt istiqamət olmaqla 20 istiqamət göstərilirdisə, hazırda üçüncü oxunuşa təqdim olunmuş layihədə bu, 10 əsas istiqamət ilə əvəz olunmuşdur.

Digər mühüm dəyişikliklərdən biri qanunda qiymətli metal külçələrin qiymətləndirilməsi zamanı istisna edilməsidir. Çünki bu fəaliyyət növü tamamilə başqa bir qanunla tənzimləndiyinə görə onu burada istisna etmək zərurət yaratmışdır.

Eyni zamanda, 12.1.7-ci maddədə “qərəzsiz və düzgün” sözləri “obyektiv” sözü ilə əvəz edilmişdir ki, bu da qanunvericilik dilinə daha uyğundur.

Qanunda mühüm dəyişikliklərdən biri QHT-lərdə üzvlük könüllü xarakter daşıdığı üçün 18.3-cü maddədə “Qeyri-hökumət təşkilatları haqqında” Qanuna istinad

ləğv edilmişdir. Çünki qanuna görə qiymətləndirmə palatasının yaradılması nəzərdə tutulur. Qiymətləndirmə palatasının təşkilati-hüquqi forması qeyri-hökumət təşkilatı olacaq. Amma eyni zamanda, qiymətləndirmə palatasına üzvlük qanunda zəruri tələb kimi qoyulur. Amma bildiyiniz kimi, "Qeyri-hökumət təşkilatları haqqında" Qanunda üzvlüyün könüllü olması ilə bağlı şərt olduğuna görə bu qanunda "Qeyri-hökumət təşkilatları haqqında" Qanuna istinad ləğv edilmişdir.

20.1-ci maddədə isə çox mühüm məsələlərdən biri qiymətləndirmə palatasının rəyasət heyətinin sədrinin seçilməsinin hansı formada keçirilməsi ilə bağlıdır. Qanunda bunun açıq səsvermə şəklində olduğu göstərilmişdir. Amma aparılmış təhlillər və müzakirələr göstərmişdir ki, bəzi hallarda açıq səsvermənin keçirilməsi müəyyən münaqişə və qərəzli hallara səbəb olduğuna görə tərəfimizdən seçkinin açıq və ya gizli olması qanundan çıxarılaraq bu hüququn rəyasət heyətinin özünə buraxılması qərarına gəlinmişdir. Yəni seçkinin açıq və ya gizli olacağına rəyasət heyəti özü qərar verəcəkdir.

Bundan başqa, qanunda dəqiqləşdirici, texniki, redaktə xarakterli dəyişikliklər edilmişdir. Bütövlükdə, qanun layihəsi, düşünürük ki, üçüncü oxunuşda qəbul edilməsi üçün hazırdır. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin rəyi müsbətdir. Həmkarlarımı bu qanun layihəsinə səs verməyə çağırıram. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Heç kimin sualı, sözü yoxdursa, mən qanun layihəsini səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.07 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin növbəti 5 məsələsi ikinci oxunuşda olan qanun layihələridir. Gündəliyin 5-ci məsələsinə keçirik. Bu məsələ Dövlət ehtiyatları haqqında qanun layihəsidir. Onu da deyim ki, məsələnin müzakirəsi ilə əlaqədar Azərbaycan Respublikasının Dövlət Ehtiyatları Agentliyi İdarə Heyətinin sədri hörmətli Səbuhi Sadıqov və sədrin müavini hörmətli Hidayət Əzimov iclasımızda iştirak edirlər. Sizi də salamlayırıq.

Hörmətli həmkarlar, bu qanun layihəsinə də İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Tahir müəllim, məlumatı özünüz verirsiniz?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Buyurun, məlumat verin.

**T.Mirkişili.** Çox sağ olun, xanım sədr. Hörmətli həmkarlar, qanun layihəsi haqqında mən birinci oxunuşda geniş təqdimat etmişdim. Düşünürəm ki, indiki halda qanun layihəsinin aktuallığı haqqında kifayət qədər fikir yürütmək olar. Çünki hazırda iqtisadi böhranların çox geniş tüğyan etdiyi, eyni zamanda, gözlənilməz hadisələrin olduğu bir dövrdə dövlət ehtiyatlarının formalaşması kifayət qədər vacibdir.

Qanun layihəsinin bir çox innovativ istiqamətləri vardır. Ən əsas istiqamətlərdən biri isə dövlət ehtiyatlarının formalaşmasında dövlətlə yanaşı, ölkədə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin də paralel olaraq iştirak

etməsi ilə bağlı imkanların yaradılmasıdır. Düşünürük ki, bu, kifayət qədər innovativ bir yanaşmadır və ölkədə dövlət ehtiyatlarının formalaşması adında "dövlət" sözü olsa da, amma, bütövlükdə, bu, milli təhlükəsizlik xarakteri daşıyır. Bu, hər birimizin, o cümlədən sahibkarlıq subyektlərinin mühüm missiyalarından biridir.

Bizim sizinlə birinci oxunuşda qəbul etdiyimiz qanun layihələrinə bir sıra dəyişikliklər edilmişdir. Bu dəyişikliklər də, bir daha qeyd etmək istərdim ki, Milli Məclis deputatlarının komitə və plenar iclaslarda səsləndirdikləri fikirlərin qanunvericilik təşəbbüsü subyekti ilə razılaşdırılması ilə həyata keçirilmişdir.

Hörmətli xanım sədr, mən fürsətdən istifadə edərək, artıq üçüncü qanundur ki, layihədə dəyişikliklərlə bağlı razılaşdırmanı elan edirəm. Hər birimizin adından mən qanunvericilik təşəbbüsü subyektinə, yəni Prezident Administrasiyasına xüsusi təşəkkür bildirmək istərdim ki, bu dövrdə biz qanunla bağlı hökumət, eyni zamanda, Milli Məclis və Administrasiya arasında kifayət qədər əlverişli və çox peşəkar müzakirələrlə nəticəyə nail oluruq.

Beləliklə, qanunda hansı dəyişikliklər edilmişdir. 5.1-ci maddədə strateji əhəmiyyətli malların siyahısının müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan tərəfindən təsdiq edilməsi öz əksini tapmışdır. Amma yeni dəyişikliyə görə həm də təsdiq olunan siyahıda minimal həcmlərin əks etdirilməsi tələbi öz əksini tapmışdır ki, bu da vacib bir məsələdir.

Digər mühüm məsələ, 6.1.2-ci maddədə strateji və fövqəladə ehtiyatların tədarükü və təchizatçıların seçilməsi sahəsində dövlətin vəzifələrinin səfərbərlik ehtiyatlarına şamil edilməsi də öz əksini tapmışdır.

Digər mühüm dəyişikliklərdən biri ehtiyatların saxlanıl-

dığı yerlərə baxış keçirmək hüququnun əvvəlki layihədə işçilərə, yəni istənilən işçiyə deyil, müvafiq səlahiyyətə malik nümayəndələrə həvalə edilməsi qanunda öz əksini tapmışdır.

Eyni zamanda, qanun layihəsində dəqiqləşdirici və texniki xarakterli 10-a yaxın düzəliş edilmiş, hazırlanmış qanun layihəsi ikinci oxunuş üçün deputatların diqqətinə çatdırılmışdır. Komitənin rəyi müsbətdir. Bu qanun layihəsinə ikinci oxunuşda səs verməyinizi sizdən xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Tahir müəllim. Hörmətli həmkarlar, bu, ikinci oxunuşdur, ona görə biz qanun layihəsini əvvəlcə əsas kimi qəbul etməliyik. Buyurun, qanun layihəsinə əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.10 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, əsas kimi qəbul edildi.

Mən görürəm, müzakirə üçün heç kim yazılmayıb. Ona görə də qanun layihəsini biz əvvəlcə maddələr üzrə səsə qoymalıyıq. Onu da qeyd edim ki, bu qanun layihəsi 4 fəsil, 14 maddədən ibarətdir. Mən hər biri fəsili ayrı-ayrı səsə qoyacağam. İndi isə xahiş edirəm, 1-ci fəsilə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.11 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, 1-ci fəsil qəbul edildi.
2-ci fəsili indi səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.11 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, 2-ci fəsil də qəbul edildi.
3-cü fəsili indi səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.12 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.
Nəhayət, 4-cü fəsilə, xahiş edirəm, səs verin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.12 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi, hörmətli həmkarlar, mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.12 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, 6-cı məsələyə keçirik. "Antiinhisar fəaliyyəti haqqında" Qanunda və digər 7 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Bu layihəyə yenə də İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün, Tahir müəllim, yenə də mən Sizə söz verirəm. Buyurun.

**T.Mirkişili.** Çox sağ olun, xanım sədr. Hörmətli həmkarlar, bu 8 qanunda edilən dəyişikliklərin yaranmasına əsas zərurət "Dövlət ehtiyatları haqqında" Qanunun qəbul olunması ilə bağlıdır. Belə ki, bundan sonra həmin 8 qanun layihəsindən "Dövlət ehtiyatları haqqında" Qanunla tənzimlənən məsələlər çıxarılır. Bu layihəyə də səs verməyinizi sizdən xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, qanun la-

yihəsinə 3 komitədə də baxılıb. Onda birinci, Ziyafət müəllim, mən Sizə söz verəcəyəm, çünki sizin komitənizdə baxılıb. Xahiş edirəm, məlumat verin.

**Z.Əsgərov,** *Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Bu qanun layihələrində 2 məsələdən söhbət gedir. Birincisi, terminlərin dəqiqləşdirilməsi, ikincisi isə "Dövlət ehtiyatları haqqında" Qanunla tənzimlənən məsələlərin bəzi qanunlardan çıxarılması. Bizim komitədə məsələyə baxılıb və müsbət qiymət verilib. Ona görə, xahiş edirəm, səsə qoyasınız.

**Sədrlik edən.** Ziyafət müəllim, çox sağ olun. Aqrar siyasət komitəsində də baxılıb. Ona görə mən komitənin sədri hörmətli Tahir Rzayevə söz verirəm. Tahir müəllim, buyurun.

**T.Rzayev,** *Milli Məclisin Aqrar siyasət komitəsinin sədri.*

Çox sağ olun, hörmətli sədr. Hörmətli sədr, komitənin rəyi müsbətdir, səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. 3-cü komitə Hüquq siyasəti və dövlət quruculuğu komitəsidir. Komitənin rəyini bildirmək üçün mən komitənin sədri, Milli Məclis sədrinin birinci müavini hörmətli Əli Hüseynliyə söz verirəm. Əli müəllim, buyurun, Siz də komitənizin rəyini bildirin.

**Ə.Hüseynli,** *Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Hörmətli xanım sədr, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin də rəyi müsbətdir.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. İndi, hörmətli həmkarlar, biz qanun layihəsini əsas kimi qəbul etməliyik. Buyurun, əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.15 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, əsas kimi qəbul edildi. Sualı, sözü olan yoxdur. Mən qanun layihəsinin səsverməsinə keçirəm. Hörmətli həmkarlar, ikinci oxunuşdur deyə, xatırladım, həmişə olduğu kimi, maddələr üzrə. Bu qanun layihəsi 8 maddədən ibarətdir. Mən onları iki-iki səsə qoyacağam.

1-ci və 2-ci maddələrə, xahiş edirəm, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.15 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Növbəti 2 maddə, bunlar 3-cü və 4-cü maddələrdir. Bunlara səs verin, xahiş edirəm.

| **Səsvermənin nəticələri** | (saat 12.16 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə 5-ci və 6-cı maddələrə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.16 dəq.) |
|---|---|
| Lehinə | 87 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

Sonuncu 2 maddəyə münasibət bildirin. Bunlar 7-ci və 8-ci maddələrdir. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.16 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə qanun layihəsini mən bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.17 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |

İştirak edir 91
Nəticə: Qəbul edildi

Qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, növbəti məsələyə keçirik. Bu, 7-ci məsələdir. Aviasiya haqqında qanun layihəsidir. Qeyd edim ki, məsələnin müzakirəsi ilə əlaqədar Azərbaycan Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini hörmətli Fərid Əhmədov və Dövlət Mülki Aviasiya Agentliyi direktorunun müavini hörmətli Nazim Ziyadov iclasımızda iştirak edirlər. Xoş gəlmisiniz.

İndi isə hörmətli həmkarlar, məlumat vermək üçün mən sözü hörmətli Elnur Allahverdiyevə verirəm. Çünki qanun layihəsinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Elnur müəllim, buyurun, Siz məlumat verin.

**E.Allahverdiyev,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Hazırda 2005-ci ildə qəbul edilmiş “Aviasiya haqqında” Qanun qüvvədədir. Keçən 18 il ərzində aviasiya sahəsində baş verən böyük texnoloji yeniliklər sahədə geniş tənzimləməyə ehtiyac yaratmış və yeni qanunun qəbul edilməsini şərtləndirmişdir.

Qanun layihəsi 15 fəsil və 68 maddədən ibarətdir. Layihə haqqında birinci oxunuşda geniş məlumat vermişik. İkinci oxunuş üçün təqdim edilən layihə haqqında aşağıdakıları bildirmək istərdim.

Əvvəlcə qeyd edim ki, layihə mülki aviasiya sahəsində beynəlxalq norma və prinsiplər, habelə mütərəqqi xarici təcrübə nəzərə alınmaqla, işlənib hazırlanmışdır. Layihədə aviasiya sahəsində dövlətin əsas məqsədi müəyyən edilmiş və dövlətin vəzifələrinə yeni müddəalar əlavə edilmişdir.

Təhlükəsizliyin gücləndirilməsi, icazələrin sadələşdirilməsi və şəffaflaşdırılması, hər kəs üçün bərabər imkanların yaradılması və ədalətli rəqabətin təmin edilməsi məqsədləri daha da gücləndirilmişdir. Belə ki, layihədə aviasiya sahəsində fəaliyyətə dair xüsusi tələbləri əhatə edən müddəalar əlavə olunmuş, icazələrin verilməsi, Azərbaycan Respublikasının hava məkanında uçuşların həyata keçirilməsi, icazə almadan dövlət sərhədini keçən hava gəmisinin məcburi qaydada yerə endirilməsi, hava gəmisinin məhvinə icazə verilməsi ilə bağlı hallar isə xüsusi tələblər üzrə ayrılmışdır.

Layihəyə "Hava limanları, aerodromlar və helekopter meydançaları" adlı yeni bir fəsil əlavə olunmuşdur. Axtarış və xilasetmənin təşkili, həmçinin ümumi tələbləri özündə əks etdirən "Axtarış və xilasetmə" adlı yeni bir fəsil də əlavə olunmuşdur.

Layihəyə beynəlxalq təcrübəyə uyğun olaraq, hava gəmilərinin dövlət uçotunun aparılması və qeydiyyat sertifikatlarının verilməsi ilə bağlı müddəalar da əlavə olunmuşdur. Aviasiya personalına dair tələblər beynəlxalq standartlara uyğun olaraq genişləndirilmiş və personalın əhatə dairəsi dəqiqləşdirilmişdir. Tələblərə dair dəyişikliklər personalın hazırlanması, onların peşəkarlığının artırılması, eyni zamanda, gələcəkdə yarana biləcək sosial problemlərin aradan qaldırılmasına şərait yaradacaqdır.

Hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsi ilə bağlı yeni maddə əlavə olunmuşdur. "Hava daşımaları" fəsli üzrə təkmilləşdirmə aparılmışdır. "Mülki pilotsuz uçuş aparatları" adlı yeni fəsil əlavə olunmuşdur ki, bu fəsildə mülki pilotsuz aparatların layihələndirilməsi və istehsalı, istismarı üçün ümumi tələblər müəyyən edilmiş, bu aparatlara nəzarətin təşkil edilməsi, onların uçuşuna

icazə veriləcək coğrafi zonaların müəyyən edilməsi və bunun üçün interaktiv xəritənin yaradılması məsələləri öz əksini tapmışdır.

Ümumi olaraq, layihə “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikası Konstitusiya Qanununun tələblərinə uyğun hazırlanmış və ICAO-nun, yəni Beynəlxalq Mülki Aviasiya Təşkilatının tələbləri normativ səviyyədə nəzərə alınmışdır. Qanun layihəsi İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin, Dövlət Mülki Aviasiya Agentliyinin nümayəndələrinin iştirakı ilə geniş müzakirə edilmişdir. Layihəyə komitənin rəyi müsbətdir. Həmkarlarımdan dəstəkləmələrini xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Elnur müəllim. Hörmətli həmkarlar, qanun layihəsini əvvəlcə əsas kimi qəbul etməliyik. Buyurun, qanun layihəsinə əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.22 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi əsas kimi qəbul edildi. Yazılanlar var və mən söz verirəm. Təklif var ki, 5 dəqiqəyə qədər. Soltan Məmmədov. Buyurun, Soltan müəllim.

**S.Məmmədov**. Təşəkkür edirəm, Sahibə xanım. Hörmətli xanım sədr, hörmətli deputatlar və media nümayəndələri. İlk növbədə qeyd edim ki, Aviasiya haqqında Azər-

baycan Respublikası qanununun layihəsi müasir dövrün tələblərinə uyğun hazırlanıb. Aviasiya sahəsində yeniliklər, xüsusi ilə təhlükəsizliklə bağlı bir çox məsələlər layihədə öz əksini tapıb. Bu baxımdan layihəni dəstəklədiyimi diqqətinizə çatdırmaq istərdim.

Birinci oxunuşdan sonra komitəyə yazılı formada təqdim etdiyim qeyd və təkliflər qanun layihəsinin subyekti tərəfindən ətraflı cavablandırılıb. Ona görə mən komitə rəhbərliyinə və nazirliyə təşəkkürümü bildirirəm. Eyni zamanda, bəzi məsələlərin dəqiqləşdirilməsinə də, hesab edirəm, ehtiyac var. Belə ki, layihənin 1.1.14-cü maddəsində "beynəlxalq hava daşıması – birdən artıq dövlətin ərazisi üzərindəki hava məkanından keçən hava daşıması" kimi təqdim olunur. Burada da redaktə xarakterli dəyişikliyə ehtiyac var. "Dövlətlərin hava məkanı" anlayışı aydındır və konkretdir. "Dövlətlərin ərazisi üzərindəki hava məkanı" anlayışı bir qədər qeyri-müəyyənlik yaradır, eyni zamanda, müvafiq bəndin strukturunu mürəkkəbləşdirir. Yəni "ərazisi üzərindəki" ifadəsini bu bənddən çıxarsaq, fikri daha dəqiq, sadə və aydın ifadə etmiş olarıq.

Bundan başqa, layihənin 1.1.14-cü maddəsində "beynəlxalq hava daşıması", 1.1.19-cu maddəsində "daxili hava daşıması", 1.1.23-cü maddəsində isə "hava daşıması" anlayışı göstərilir. Fikrimizcə, burada məntiqi ardıcıllığa riayət olunması daha doğru olardı. Anlayışın baza məzmununu vermədən ayrı-ayrı istiqamətlər üzrə növlərin məzmununu vermək nə dərəcədə düzgün və doğrudur?

Ən vacib məqamlardan biri bundan ibarətdir ki, 65.3-cü maddədə göstərilir ki, "baqaj və ya yük daşıyıcı tərəfindən daşımaya qəbul edildikdən sonra üç ay ərzində çatdırılmazsa, itirilmiş sayılır". Beynəlxalq praktikada bu, ən çoxu 21 gündür. Azərbaycanın 2014-cü ildə qoşulduğu

“Beynəlxalq hava daşımalarının bəzi qaydalarının unifikasiyası üçün Konvensiya”nın 17-ci maddəsinin 3-cü bəndində göstərilir ki, baqaj 21 gündən sonra çatmayıbsa, sərnişinin sərnişindaşıma müqaviləsindən irəli gələn hüquqlarını həyata keçirməsinə icazə verilir. Hesab edirəm ki, layihədə göstərilən bu müddət beynəlxalq təcrübəyə və iştirakçısı olduğumuz Konvensiyaya uyğunlaşdırılmalıdır. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. İltizam Yusifov. Buyurun.

**İ.Yusifov**. Təşəkkür edirəm, hörmətli Sahibə xanım. Hörmətli deputat həmkarlarım və media təmsilçiləri. Aviasiya haqqında yeni qanunun qəbulu, hesab edirəm ki, müasir günümüzün və dövrün tələbidir. Belə ki, bu sahədə dünyada gedən inkişaf, yeni texnoloji avadanlıqların, o cümlədən, yeni uçuş aparatlarının istismarının geniş vüsət aldığı bir zamanda istər hüquqi, istər texniki, istərsə də təhlükəsizlik baxımından yeni qanuna ehtiyac duyulur. Əvvəlcədən deyim ki, qanun layihəsini dəstəkləyirəm və lehinə səs verəcəyəm. Lakin layihə ilə bağlı bəzi fikirlərimi də bildirəcəyəm.

Birinci məsələ hava gəmilərinin nişanlarının təsviri ilə bağlıdır, 22-ci maddə. Burada hər şey aydındır. Lakin bir məsələyə toxunmaq istəyirəm. Təyyarələrə ad verilir. Məsələn, Xankəndi, Naxçıvan, Günnüt və sair. O cümlədən, tanınmış insanların adlarının da təyyarələrə verilməsi praktikası mövcuddur. Adətən, bildirilir ki, bu, aviaşirkətlərin öhdəsində olan bir məsələdir. Bu gün “AZAL” bizdə dövlət şirkətidir. Sabah bu şirkətin özəlləşdirildiyi, xarici investorların şirkətə rəhbərlik etdiyi halda, bir də gördün, təyyarələrin adı dəyişdirilib, bizə uyğun olmayan adlar qoyulub. Bəs onda necə olacaq? Təklif edirəm ki, bununla bağlı qanunda ümumi formatda, müvafiq icra

hakimiyyəti ilə razılaşma ilə bağlı bir maddə olsun.

Növbəti bir məsələ pilotsuz aparatlarla bağlıdır. 59-cu, 60-cı, 61-ci maddələr. Bu da yeni anlayışdır. Bununla da bağlı müəyyən aydınlığa ehtiyac vardır. Belə ki, qanuna görə pilot olmadan avtonom rejimdə havada qala bilən və ya məsafədən idarə edilə bilən istənilən aparat pilotsuz uçuş aparatı hesab edilir. Bundan əlavə, qanunda mülki və model pilotsuz uçuş aparatları anlayışı da verilmişdir ki, bunların da istismarı üçün xüsusi icazə və qeydiyyat olmalıdır, yaxud xüsusi icazə ilə fəaliyyət göstərən klub və assosiasiyalar daxilində istismarına icazə verilməlidir. Düzdür, uzaq məsafədə uçan, nisbətən böyük yük daşıya bilən, güclü videomüşahidə qurğusuna malik olan və sair tipli kopter, dron, digər pilotsuz uçuş aparatlarının qeydiyyatı, hesab edirəm ki, təhlükəsizlik baxımından mütləqdir və lazımdır. Onların layihələndirilməsi, istismarına icazə də müvafiq icra hakimiyyətinin səlahiyyətində olmalıdır. Lakin biz pilotsuz uçuş aparatları deyəndə yalnız hərbi sahədə istifadə olunan avadanlıq kimi qəbul etməməliyik. Müasir iqtisadiyyat innovativ və ekosistemlər üzərində qurulur. Kiçik pilotsuz uçuş aparatları, dronlar sənayedə, kənd təsərrüfatında, hətta kiçik ailə-fermer təsərrüfatlarında, o cümlədən insanların fərdi təşəbbüslərinin həyata keçirilməsində də istifadə edilir. Müasir iqtisadiyyatı bu cür cihazlarsız təsəvvür etmək mümkün deyil və Azərbaycanda da, hesab edirəm ki, bu sahəni, hətta həvəskar səviyyədə də inkişaf etdirmək lazımdır. Bu gün isə biz qanunda bunları birləşdirərək ümumi bir ad qoyuruq, "pilotsuz uçuş aparatı".

Biz, bir qrup deputat yaxın vaxtlarda "AZAL"ın rəhbərliyi ilə görüşdük. Çox əhəmiyyətli müzakirələrimiz oldu. Orada "AZAL"ın pilotlarının peşəkarlığından danı-

şıldı. Lakin məlum oldu ki, "AZAL"ın xərclərinin müəyyən bir hissəsi də xaricdən peşəkar pilotları cəlb etməyə sərf olunur. Aviasiyanın inkişafı məhz onun əlifbası olan həvəskar aviamodelizmdən başlayır. Əvvəllər aviamodelizm məktəblərdə, dərnəklərdə öyrədilirdi. Bu, mütəxəssislərin, pilotların, konstruktorların yetişdirilməsi üçün çox vacib idi. Düzdür, bu gün bizim çox gözəl, professional, yüksək səviyyəli Milli Aviasiya Akademiyamız var və burada aviamodelizmlə bağlı bir bölmə də var. Amma bu, ali təhsildir, yüksək pillədir. Mən hesab edirəm, bu işlər uşaq yaşlarında, məktəb formatında təbliğ və təşkil olunmalıdır ki, uşaqların bu sahəyə həvəsi olsun və ali təhsilə hazır olsunlar. Mən hesab edirəm ki, həvəskar aviamodelizmlə məşğul olmaq üçün bu işlər açıq və asan olmalıdır. Bu gün bizim təhlükəsizlik prizmasından baxdığımız bir məsələ həvəskar sahədə inkişaf etməməsi baxımından gələcəkdə, ola bilsin ki, bizim ümumi təhlükəsizliyimizin təmin olunmasına maneə yarada bilər. Nəzərə alsaq ki, biz həm də kosmik ölkələr cərgəsindəyik, mən hesab edirəm, aviasiyanı ümumi pilotsuz uçuş aparatları sahəsində inkişaf etdirmək üçün də burada dəqiqləşmə aparılmalıdır. Bu aparatlar çəkisinə, uçuş məsafəsinə, hündürlüyünə, təyinatına görə təsnifatlaşdırılmalı və kateqoriyalara bölünməli və bu sahənin inkişafına "yaşıl işıq yandırmaq" lazımdır. Bu qədər, sağ olun. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Sabir Rüstəmxanlı. Buyurun.

**S.Rüstəmxanlı**. Təşəkkür edirəm, hörmətli xanım sədr. Bu qanun çox vacib qanundur. Mənə elə gəlir ki, Azərbaycan müstəqillik əldə edəndən sonra aviasiya ilə bağlı bizim birinci belə qanunumuzdur.

Bu yaxında, doğrudan da, biz "AZAL"da çox maraqlı

bir görüş keçirdik. Millət vəkilləri ilə Azərbaycanın aviasiya sistemində, daha çox rəhbərlikdə çalışanlarla görüşdük. Orada həm millət vəkilləri öz təkliflərini səsləndirdilər, həm də biz "AZAL" rəhbərliyinin, ümumiyyətlə, bu qurumun mövcud çətinlikləri və uğurları ilə bağlı fikirlərini eşitdik. Məncə, bəzi qurumlarla, bəzi təşkilatlarla, xüsusi ilə o təşkilatlardan ki, narazılıq çoxdur, belə görüşlərin keçirilməsi çox vacibdir. Orada bizə bəzi şeylər aydın oldu. Bundan sonra bu qanunun qəbul olunmasına millət vəkilləri, təbii ki, həvəslə razılıq, səs verəcəklər.

Burada mənim çıxışımda sual xarakterli bir məqam və bir təklif var. Birinci odur ki, – əlbəttə, "AZAL" bu illər ərzində çox inkişaf eləyib, – vaxtı ilə təyyarələrdə, deməli, təyyarə bələdçilərinin danışığını özlərindən başqa heç kim başa düşmürdü. Yəqin bizim ana dilində normal danışan bələdçilər tapmaq çətin idi. Hər halda, təbii ki, təyyarə Azərbaycanın torpağıdır, elə bil ki, Azərbaycandır. Ora girəndən sonra orada oturan adamlar Azərbaycan dilində təmiz danışıq eşitmək istəyirlər. Danışa bilməyənlər üçün yazsınlar, onlar da səsləndirsinlər. Eybəcər bir dillə danışmaq olmaz. Bu, bir.

İkinci, burada terminlər var. 1.1.3-cü maddədə "aerodrom". Türklər Türkiyədə buna hava alanı deyirlər. Bizdə hava limanı var, aeroport. Bunların ikisinin də mənası təxminən eynidir. Bunların fərqi nədədir? Hava limanı ilə hava alanının fərqi nədədir? Aerodrom və aeroportun fərqi nədir? Burada qanunda kifayət qədər aydın göstərilmir. Məncə, gələcəkdə də bu, dolaşıqlıq yarada bilər. Bəlkə indi o sistemdə işləyənlər üçün aydındır. Amma bizim üçün o qədər də aydın deyil. Mənə elə gəlir, əgər bir halda ki, Azərbaycan dilində "hava limanı" ifadəsini işlədiriksə və "aerodrom" anlayışının işlənməsi çox vacibdirsə, onu

da elə biz hava alanı kimi qəbul eləyə bilərik. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Sabir müəllim. Dediklәriniz artıq götürüldü, mən düşünürəm ki, komitə də bununla bağlı sonra öz rəyini bildirər. Hörmətli həmkarlar, biz indi qanun layihəsinə maddələr üzrə səs verəcəyik. Layihədə 15 fəsil, 68 maddə var. Mən qanun layihəsini fəsillər üzrə qruplaşdırıb səsə qoyacağam. İndi isə xahiş edirəm, preambulaya, I və II fəsillərə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.33 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs verмədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

III və IV fəsilləri mən səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.33 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

V və VI fəsillərə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.34 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Bu fəsillər də qəbul edildi.

İndi isə VII və VIII fəsilləri mən səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.34 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Bu fəsillər də qəbul edildi.

IX və X fəsillərə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.34 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun.

XI və XII fəsilləri səsə qoyuram.

| **Səsvermənin nəticələri** | (saat 12.34 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.
XIII və XIV fəsillərə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.35 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.
Nəhayət, XV fəsili mən səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.35 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu fəsil də qəbul edildi.
İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.36 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, növbəti məsələyə keçirik. Bu, 8-ci məsələdir, "Polis haqqında", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" və "Ümumi təhsil haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Əli müəllim, mən sözü Sizə verirəm, buyurun, təqdim edin.

**Ə.Hüseynli**. Hörmətli sədr, adıçəkilən qanun layihələrində edilən dəyişikliklər Cinayət Məcəlləsinə uyğunlaşdırma xarakterlidir. Ona görə ikinci oxunuşda səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Əli müəllim, çox sağ olun. Bu layihəyə Elm və təhsil komitəsində də baxılıb. Ona görə mən komitə sədri hörmətli Bəxtiyar Əliyevə söz verirəm. Buyurun, Bəxtiyar müəllim.

**B.Əliyev**, *Milli Məclisin Elm və təhsil komitəsinin sədri.*

Hörmətli xanım sədr, hörmətli deputatlar. "Ümumi təhsil haqqında" Qanunda təklif edilən dəyişiklik uyğunlaşdırma xarakteri daşıyır. Belə ki, "Ümumi təhsil haqqında" Qanunun 27.2.5-ci maddəsi "Təhsil haqqında" Qanunun 36-1.2.5-ci maddəsinə uyğunlaşdırılır. Bununla da pedaqoji fəaliyyətlə məşğul olmasına icazə verilməyən şəxslərin dairəsi dəqiqləşdirilir. Qanun layihəsi komitədə müzakirə edilib, komitənin rəyi müsbətdir. Xahiş edirəm,

səsə qoyulsun. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Bəxtiyar müəllim. Hörmətli həmkarlar, biz qanun layihəsini əsas kimi qəbul etməliyik. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.37 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, əsas kimi qəbul edildi.

Çıxış etmək istəyən yoxdur və mən qanun layihəsini maddələr üzrə səsə qoyacağam. Bu qanun layihəsi 3 maddədən ibarətdir. Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.38 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, maddə qəbul edildi.

2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.38 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

İndi isə 3-cü maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.38 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

İndi isə qanun layihəsini bütövlükdə səsə qoyuram. Xahiş edirəm, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.39 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Növbəti məsələyə keçirik. “Mühasibat uçotu haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb və məsələyə dair məlumat vermək üçün mən

komitə sədrinin müavini hörmətli Əli müəllim Məsimliyə söz verirəm. Əli müəllim, buyurun.

**Ə.Məsimli**, *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin müavini.*

Çox sağ olun, hörmətli sədr. Hörmətli sədr, Mühasibat uçotu haqqında qanun layihəsi birinci oxunuşda müzakirə olunan zaman kifayət qədər geniş məlumat vermişdim. Ona görə də mən bu dəfə qanun layihəsi ətrafında 3 suala qısa cavab verməklə kifayətlənmək istəyərdim.

Birinci, bu dəyişikliyin mahiyyəti nədən ibarətdir? Bu layihədə mühasibat uçotunu məcburi qaydada elektron formada aparacaq mühasibat uçotu subyektlərinin, yəni dövlət üçün strateji əhəmiyyət kəsb edən iri və orta sahibkarlıq subyektlərinin dairəsinin müəyyən edilməsi məqsədi əsas götürülüb.

İkinci, bu qanunun qəbul edilməsindən gözləntilər nədən ibarətdir? Bu dəyişiklik Vergi Məcəlləsində təsbit olunan elektron auditin aparılmasına dəstək verəcək, həmçinin layihədə qeyd olunan vergi ödəyiciləri tərəfindən müvafiq məlumatların aidiyyəti üzrə təqdim edilməsi sahəsində operativliyi artıracaqdır.

Üçüncü, bu qanunun birinci oxunuşda müzakirəsinin nəticələri nədən ibarətdir? Bu qanun layihəsinin birinci oxunuşu zamanı deputatların irəli sürdükləri təkliflər qanunvericilik təşəbbüsü subyekti ilə razılaşdırılma mərhələsindədir. Hörmətli sədr, qəbul olunacağı təqdirdə, üçüncü oxunuş zamanı məlumat verəcəyik. Deputat həmkarlarımdan bu layihəni birinci oxunuşda olduğu kimi, ikinci oxunuşda da dəstəkləmələrini xahiş edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Hörmətli həmkarlar, əsas kimi qəbul etməliyik. Buyurun, qanun la-

yihəsinə əsas kimi münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.41 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, əsas kimi qəbul edildi.

Çıxış etmək istəyən yoxdur və mən qanun layihəsini maddələr üzrə səsə qoyacağam. Qanun layihəsi 1 maddədən ibarətdir. Xahiş edirəm, həmin maddəyə də səs verin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.42 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

İndi isə qanun layihəsinə bütövlükdə münasibət bildirək. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.42 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 4 |

İştirak edir 96
Nəticə: Qəbul edildi

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bizim 15 məsələmiz var və bu məsələlərin hamısı da birinci oxunuşda olan qanun layihələridir. Odur ki, bəri başdan mən xahiş edirəm ki, çıxışlar zamanı məhz birinci oxunuşun tələblərini nəzərə alasınız. Gündəliyin 10-cu məsələsinə keçirik. Bu məsələ Arbitraj haqqında qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin üzvü hörmətli Nizami Səfərova söz verirəm. Nizami müəllim, buyurun.

**N.Səfərov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Hörmətli xanım sədr, hörmətli deputatlar, Azərbaycanda yeni arbitraj təsisatının formalaşması dövlət başçısının rəhbərliyi altında həyata keçirilən hüquqi islahatların mühüm mərhələsidir, onun fundamental hüquqi əsasları var və bunları şərti olaraq iki qrupa bölmək olar. Bu sırada birinci olaraq daxili qanunvericiliyin inkişafı, onun müasir standartlara uyğunlaşdırılması və yeni təşkilati-hüquqi mexanizmin formalaşmasını qeyd etmək lazımdır. Yeni arbitraj təsisatının yaradılması iqtisadi fəaliyyət sahəsində meydana gələn mübahisələrin səmərəli alternativ üsul olaraq məhkəmələrin iş yükünün əhəmiyyətli dərəcədə azalmasına xidmət edərək, həmçinin mübahisə tərəflərinin sərbəst iradəsinə, dəqiq hüquqi tənzimləməyə əsaslanaraq çıxarılan qərarlara yüksək etimadı təmin edə bilər.

Müzakirəyə təqdim olunan qanun layihəsinin hazırlanması “Azərbaycan Respublikasında biznes mühitinin əl-

verişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli, 2199 nömrəli Sərəncamının həyata keçirilməsinə dair 2017-ci il iyulun 2-də təsdiq olunmuş tədbirlər planında "Müqavilələrin həyata keçirilməsi" adlanan 5.1.2-ci bəndində əksini tapmışdır. Həmin bənddə məhkəmə sistemi üzrə könüllü barışdırma və arbitraj prosedurlarının təkmilləşdirilməsi nəzərdə tutulmuşdur.

Qanunun qəbul edilməsini şərtləndirən ikinci mühüm faktor birbaşa beynəlxalq hüquqdan qaynaqlanır. Məlum olduğu kimi, Azərbaycan Respublikası arbitraj prosesinin tənzimlənməsi sahəsində regional, Avropa Şurası və universal, BMT səviyyəsində qəbul edilən hüquqi razılaşmaların iştirakçısıdır. Dövlətimiz 1996-cı il mayın 31-də 1961-ci il 21 aprel tarixli "Xarici ticarət arbitrajı haqqında Avropa Konvensiyası"na qoşulmuşdur.

İkinci mühüm hüquqi sənəd "Xarici arbitraj qərarlarının tanınması və icrası haqqında" 1958-ci il 10 iyun tarixli Nyu-York Konvensiyasıdır və Azərbaycan Respublikası 1999-cu il noyabrın 9-da qeyd etdiyim müqaviləyə qoşulmuşdur. Sonuncu konvensiyanın hazırda 160-dan çox iştirakçısı mövcuddur və onun əsas məqsədi arbitraj razılaşmalarının tanınması və icrası üçün ümumi qanunvericilik standartlarının müəyyən edilməsindən ibarətdir.

Hörmətli deputatlar, beynəlxalq xarakterli kommersiya mübahisələrində meydana gələn mübahisələrin həllində arbitrajın əhəmiyyətini, dövlətlərin fərqli sosial iqtisadi və hüquqi sistemlərə malik olmasını nəzərə alaraq, qeyd edilən təsisatın fəaliyyəti üçün səmərəli hüquqi çərçivəni formalaşdırmaq üçün Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının yardımçı orqanı olan BMT-nin Beynəl-

xalq Ticarət Hüququ üzrə Komissiyası 1985-ci il dekabrın 11-də beynəlxalq ticarət arbitrajı haqqında model qanun qəbul etmişdir və həmin sənədə 2006-cı ildə bəzi dəyişikliklər olunmuşdur. Model qanunun hazırlanması və Nyu-York Konvensiyasının iştirakçılarına onun model kimi tövsiyə edilməsində əsas məqsəd dövlətdaxili qanunvericilik sistemlərində ciddi fərqlərin olması və arbitraja aid qanunların müəyyən dərəcədə harmonizasiyasının təmin edilməsindən ibarətdir.

Müzakirəyə təqdim edilən Arbitraj haqqında Azərbaycan Respublikasının qanun layihəsi BMT-nin Beynəlxalq Ticarət Hüququ üzrə Komissiyasının qeyd etdiyim model qanunu əsasında hazırlanmışdır və müqayisəli praktika göstərir ki, 60-dan çox dövlətdə bu cür qanunlar qəbul edilib və arbitrajın tənzimlənməsi sahəsində iki müxtəlif model bir-birindən fərqlənir. Bəzi ölkələrin, məsələn, Almaniyanın, Avstriyanın, Fransanın, Lüksemburqun və sair mülki prosessual məcəllələrində arbitraja həsr olunan xüsusi fəsillər var. Əksər dövlətlər isə, məsələn, Türkiyə, Slovakiya, İrlandiya, İspaniya və sair arbitraj haqqında ayrıca qanunlar qəbul ediblər. Əslində, ikinci yanaşma, yəni müstəqil qanunun qəbul edilməsi hüquqi cəhətdən daha məqbul hesab edilə bilər. Çünki arbitraj ənənəvi mənada başa düşülən məhkəmə orqanı deyil, fəaliyyətinin spesifik hüquqi əsasları, spesifik yurisdiksiyası, tərkibinin formalaşması qaydası, xüsusi reqlament əsasında fəaliyyət göstərməsi mövcuddur. Hətta arbitraj məsələləri mülki prosessual məcəllələrlə tənzimləndikdə onlar öz avtonom xarakterini qoruyub saxlayır və mülki prosessual institutlar kimi tənzimlənmir.

Müzakirəyə təqdim edilən qanun layihəsi 59 maddəni əhatə edən 8 fəsildən və preambuladan ibarətdir. Arbitraj

prosesinin bütün mərhələlərini əhatə edir və beynəlxalq arbitraj təcrübəsinin prinsiplərini və mühüm aspektləri üzrə beynəlxalq konsensusu əks etdirir. Yeni təsisatın formalaşması Azərbaycanda iqtisadi mübahisələrin alternativ qaydada həll olunmasına mühüm töhfə verəcək və mən xahiş edərdim, qanun layihəsinin birinci oxunuşda qəbul edilməsinə səs verəsiniz.

**Sədrlik edən.** Çox sağ olun, Nizami müəllim. Müzakirəyə başlayırıq, yazılanlar var. Vüqar Bayramov. Buyurun.

**V.Bayramov**. Çox təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Mən də qanun layihəsini dəstəkləyirəm. Qanun layihəsi həm sahibkarlığın inkişafı, həm də biznesdə mübahisələrin daha qısa müddətdə həll edilməsi baxımından vacibdir. Konseptual olaraq, 3 məsələyə aydınlıq gətirilməsini xahiş edərdim.

Əvvəla, beynəlxalq model qanunda virtual ticarət, yəni dijital iqtisadiyyat ayrıca bir istiqamət olaraq götürülür və bu baxımdan mənim sualım ondan ibarətdir ki, bu qanun layihəsində virtual ticarətin ayrıca istiqamət olaraq götürülməməsinin səbəbi nədir? Eyni zamanda, bütövlükdə, sahibkarlıq münasibətləri çərçivəsində virtual ticari münasibətlərin tənzimlənməsi nəzərdə tutulurmu?

İkinci sualım yenə də bu model qanunda əksini tapan məsələlərdən biridir. Arbitraj yalnız sahibkarlar arasındakı mübahisələrin deyil, eyni zamanda, işçi ilə işəgötürən arasındakı mübahisələrin həllini özündə ehtiva edir və bizim qanun layihəsi belə bir hüququ tanıyırmı? Bu gün müzakirə etdiyimiz qanun layihəsində həm də işçi və işəgötürən arasında olan mübahisələrin arbitraj yolu ilə həlli mümkün olacaqmı?

Üçüncü məsələ beynəlxalq arbitraj qərarlarının inteqrasiyası ilə bağlıdır. Baxmayaraq ki, qanun layihəsində bu,

ayrıca olaraq qeyd olunan məsələlərdəndir və bütövlükdə, beynəlxalq arbitraj məhkəmələrinin qərarları, eyni zamanda, beynəlxalq arbitraj münasibətlərinə verilən qərarların inteqrasiyası və yerli səviyyədə qəbul edilməsi qanun qəbul ediləndən sonra necə öz həllini tapacaq? Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Qüdrət Həsənquliyev. Buyurun.

**Q.Həsənquliyev**. Təşəkkür edirəm, hörmətli sədr. İlk öncə, deputat həmkarım Nizami Səfərova öz minnətdarlığımı bildirirəm. Qanunu çox yüksək səviyyədə, ətraflı, geniş təqdim etdi. Bir çox məsələlərə aydınlıq gətirdi.

Hörmətli sədr, biz komitə iclasında da bu məsələni çox geniş müzakirə etdik və orada da mənim qaldırdığım bəzi məsələlər var idi, həmkarlarım da müəyyən təkliflərlə çıxış etdilər. Bu, ilk növbədə onunla əlaqədardır ki, qanunun adından da göründüyü kimi, bu, arbitraj haqqında qanundur, amma qanunun içərisində biz "arbitraj məhkəməsi" ifadəsini işlədirik. Biz bilirik, məhkəmələr dövlət adından qərarlar qəbul edirlər və məhkəmələrdə də hakimlər ədalət mühakiməsini həyata keçirirlər. Amma arbitrlər hakim sayılmırlar. Bizim "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun 54.2-ci maddəsində də qeyd olunur ki, "eyni terminlər bir mənada işlədilməli və vahid formaya malik olmalıdır". Yəni biz məhkəmə deyiriksə, bizim Konstitusiyada məhkəmə sisteminin dəqiq dairəsi bəlli olub ki, bu sistemə hansı strukturlar daxildir. Ona görə arbitrlər qeyri-kommersiya təşkilatıdır, qeyri-dövlət orqanıdır. Yəni buna arbitraj məhkəməsi demək, burada "məhkəmə" sözünü işlətmək yersizdir. Sadəcə olaraq, elə arbitrajlar kimi qeyd olunmalıdır. Mən baxdım ki, bu təklif nəzərə alınmayıb.

Bundan başqa, hakimlər mütləq Azərbaycan Respubli-

kasının vətəndaşları olmalıdırlar, amma arbitrlərlə bağlı bu tələb layihədə də öz əksini tapmayıb. Yəni onlar vətəndaşlığı olmayan şəxslər də, əcnəbilər də ola bilərlər. Əgər bu, qeyd etdiyim kimi, tutaq, iki, sahibkar arasında iqtisadi mübahisənin həlli ilə bağlıdırsa, biz onlara səlahiyyət verməliyik ki, inandıqları şəxsləri arbitr kimi cəlb etsinlər. Buna görə də xaricdən də arbitlərin Azərbaycana cəlb olunması qanunda, hesab edirəm, öz əksini tapa bilər. Vətəndaşlar xarici arbitraj orqanlarına, tutaq ki, Türkiyədəki, Rusiyadakı arbitrajlara müraciət edə bilərlər. Yəni bunlara bu səlahiyyət verilməlidir. Eyni zamanda, xarici ölkə vətəndaşlarının da Azərbaycandakı arbitrajlara müraciət hüququ, məncə, nəzərdə tutulmalıdır. Məsələyə bir az geniş baxmaq lazımdır.

Əlbəttə, birinci oxunuş olduğuna görə mən başqa konkret normalarla bağlı məsələlərə toxunmuram. Amma konseptual baxımdan, hesab edirəm ki, buna çox böyük bir ehtiyac var idi. Bizdə, doğrudan da, bəzən məhkəmələrdə bu süründürməçiliklər illərlə davam edirdi, buna da son qoyulacaq. Bu qanun, doğrudan da, sahibkarlığın inkişafına töhfə verəcək. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Daha çıxış etmək istəyən yox–dur və mən qanun layihəsini səsə qoyuram. Hörmətli həmkarlar, buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.53 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, növbəti məsələyə keçirik. 11-ci məsələdir. “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” və “Hədəfli maliyyə sanksiyaları haqqında” qanunların icrası ilə əlaqədar bəzi qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır və məsələyə dair, Əli müəllim, özünüz məlumat verəcəksiniz, eləmi? Buyurun, məlumat verin.

**Ə.Hüseynli.** Çox sağ olun, hörmətli xanım sədr. Xanım sədr, Sizin adlarını çəkdiyiniz qanunların, faktiki olaraq, tətbiqi ilə bağlı digər qanunlarda uyğunlaşdırma xarakterli əlavələr və dəyişikliklərdir. Bizim komitə “Əməliyyat-axtarış fəaliyyəti haqqında”, “Notariat haqqında”, “Vəkillər və vəkillik fəaliyyəti haqqında” qanunlarda təqdim edilmiş bu uyğunlaşdırma xarakterli düzəlişlərə müsbət rəy vermişdir. Səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, bu qanun layihəsinə 3 komitədə də baxılmışdır. Birinci komitə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsidir. Tahir müəllim, xahiş edirəm, Siz komitənin rəyini bildirin. Buyurun.

**T.Mirkişili**. Çox sağ olun, xanım sədr. Hörmətli Əli müəllim layihə haqqında məlumat verdi. Bizim komitənin də qanun layihəsinə rəyi müsbətdir. Səs verməyinizi xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Layihəyə İctimai birliklər və dini qurumlar komitəsində də baxılmışdır. Komitənin rəyini bildirmək üçün mən komitənin sədri, Milli Məclis sədrinin müavini hörmətli Fəzail müəllim İbrahimliyə söz verirəm.

Fəzail müəllim, buyurun.

**F.İbrahimli,** *Milli Məclis sədrinin müavini, İctimai birliklər və dini qurumlar komitəsinin sədri.*

Təşəkkür edirəm. Komitənin rəyi müsbətdir, səsə qoymaq olar.

**Sədrlik edən.** Çox sağ olun. Gənclər və idman komitəsinin rəyini bildirmək üçün mən komitə sədrinin müavini hörmətli Şahin müəllimə söz verirəm. Şahin İsmayılov. Buyurun.

**Ş.İsmayılov**, *Milli Məclisin Gənclər və idman komitəsi sədrinin müavini.*

Çox sağ olun, hörmətli xanım sədr. Əziz həmkarlar, sözügedən qanun layihəsi ilə bağlı Gənclər və idman komitəsinin rəyi müsbətdir. Səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Çıxış etmək istəyən var. Fazil Mustafa. Fazil müəllim, buyurun.

**F.Mustafa**. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Qanun layihəsinə keçməzdən öncə, hörmətli xanım sədr, icazə versəniz, həm öz adımdan, həm də Mədəniyyət komitəsinin sədr müavini seçilmiş hörmətli Ülviyyə xanım Həmzəyeva adından, – mənə müraciət etdi, – göstərdiyiniz etimada və millət vəkillərinə, dəyərli həmkarlara bu etimadınızı dəstəklədiklərinə görə minnətdarlığımı bildirmək istəyirəm. Hesab edirəm ki, ölkə Prezidenti cənab İlham Əliyevin müəyyən etdiyi mədəniyyət strategiyasının hərtərəfli həyata keçirilməsi və eyni zamanda, Milli Məclisdə mədəniyyət sahəsində qanunvericiliyin təkmilləşməsi istiqamətində imkan və bacarığımızı sərf edəcəyik. Bu istiqamətdə dövlətçilik nöqteyi-nəzərindən zərurət hansı addımların atılmasını tələb edirsə, onları da gerçəkləşdirəcəyik. Bir daha təşəkkürümü bildirirəm.

Qanun layihəsinə gəldikdə isə, burada çox müsbət bir

dəyişiklik nəzərdə tutulur, xüsusi ilə də dini qurumlarla bağlı, onların qanunsuz cinayət yolu ilə əldə edilmiş vəsaitlərinin leqallaşdırılması istiqamətində fəaliyyətinin nəzarətə götürülməsinin vacib olduğunu vurğulamaqla, bu müddəanın bura salınması çox önəmli idi. Amma bir məsələ ilə bağlı bir az sual qalır. Bu notariatla bağlı məsələ. Notariatlara belə cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə dair sənədlər təqdim olunur. Bu, demək, vətəndaşın hüquqlarının müəyyən dərəcədə pozulması istiqamətində müəyyən problemlərin ortaya çıxmasına səbəb ola bilər. Nədir? Vaxt məsələsi çox önəmlidir. Hansı isə şübhəli bir sənədə görə müvafiq quruma notariatlar xəbər verirlər. Qanunda nəzərdə tutulmuş müddətdə cavab verilməsi burada qeyd olunub. Digər qurumlarla bu problem çıxmır. Amma buna  ya dərhal cavab verilməsi, ya da müddət məsələsinin burada xüsusi olaraq göstərilməsi vacibdir ki, bəlkə heç qanunsuz cinayət yolu ilə əldə edilmiş əmlakdan söhbət getmir. Amma vətəndaşın hansı isə bir hüquqi prosedurunun həyata keçirilməsi və ləngiməsi onun üçün ciddi məsələlərin ortaya çıxmasına səbəb ola bilər.

Bir şeyi də qeyd edim ki, indi bizdə "Notariat haqqında" Qanunda da nəzərdə tutulur. Bir notariat bütün məsələlərə baxır. Onun müavini, yaxud da köməkçisi onu əvəz edə bilmir. Yəni biz bunu müəyyən qanunvericilikdə nəzərdə tutduq, səhv etmirəmsə, amma bu, hələ də gerçəkləşdirilmir. Bunu biz bir az təmin etməliyik ki, bu kimi məsələlərdə onu çevik, operativ şəkildə həll etmək imkanları olsun. Məncə, bu müddəa ilə bağlı praktikada müəyyən problemlər ortaya çıxa bilər. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun, Fazil müəllim. Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Mən qanun layi-

həsini səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.59 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Təklif var ki, fasiləsiz işləyək. Hamı razıdırsa...

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Oldu, fasiləsiz işləyirik.

12-ci məsələyə keçirik, növbəti məsələmizdir, Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmşdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin üzvü hörmətli Bəhruz Məhərrəmova söz verirəm. Bəhruz müəllim, buyurun.

**B.Məhərrəmov**, *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Təşəkkür edirəm. Hörmətli sədr, əziz həmkarlar, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında layihə özündə iki konseptual məqamı əhatələyir. Birincisi və ən vacibi cinayət təqibi üzrə qiyabi icraat proseduru təsbit olunur. Bilirsiniz ki, qiyabi icraat məhkəmə qərarı ilə təqsirləndirilən şəxsin iştirakı olmadan onun barəsində aparılan cinayət təqibi üzrə məhkəməyədək, həmçinin bütün instansiya məhkəmələrində aparılan icraatdır. Qiyabi icraat Azərbaycan

qanunvericiliyi üçün yeni təcrübə deyil, mülki prosessual qanunvericilikdə də qiyabi icraatı ehtiva edən 16 maddədən ibarət bütöv bir fəsil mövcuddur. Mövcud Cinayət-Prosessual Məcəlləsində isə, sadəcə, 3 maddədə işə qiyabi baxılmasının mümkünlüyü ifadə olunur. Amma möhtərəm Prezidentin qanunvericilik təşəbbüsü ilə Cinayət-Prosessual Məcəlləsində əlavə olunması təklif edilən 54 – II fəsil problemi kökündən həll edir.

Bildiyiniz kimi, cinayət mühakimə icraatının əsas vəzifələri şəxsiyyəti, cəmiyyəti və dövləti cinayətkar qəsdlərdən qorumaq, cinayətləri tezliklə açmaq, cinayət törətmiş şəxsləri ifşa və cinayət məsuliyyətinə cəlb etmək və təqsirsiz şəxslərə bəraət verməkdir. Lakin bir sıra hallarda təqsirləndirilən şəxslər Azərbaycan ərazisindən kənarda ya istintaqdan və ya məhkəmədən gizlənir, ya da çağırışa gəlməkdən qəsdən boyun qaçırır ki, bu da cəzasızlıq mühiti yaradır.

Məsələn, müharibə dövründə törədilmiş sülh və insanlıq, habelə digər xarakterli cinayətlər üzrə milli səviyyədə aparılmış cinayət təqibi gedişində axtarışa verilmiş təqsirləndirilən şəxslərlə bağlı hətta İNTERPOL öz nizamnaməsini əsas götürərək təqsirləndirilən şəxslərin axtarışı və "qırmızı bülleten"ə salınmasından imtina etmişdir. Amma belə şəxslərin təqsiri məhkəmə hökmü ilə sübuta yetirildikdə həmin şəxslərin əmlakı cinayət qanunu ilə nəzərdə tutulmuş hallarda xüsusi müsadirə edilməklə restitusiya və reparasiyaya nail olmaq olur. Bu baxımdan qiyabi cinayət icraatı institutunun yaradılmasına ehtiyac var.

Bu gün təklif edilən dəyişikliklə sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, həyat və sağlamlıq əleyhinə olan cinayətlər, şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə olan cinayətlər, mülkiyyət əleyhinə olan cina-

yətlər, iqtisadi fəaliyyət sahəsində olan cinayətlər, ictimai təhlükəsizlik əleyhinə olan cinayətlər, dövlətin konstitusiya quruluşunun əsasları və təhlükəsizliyi əleyhinə olan cinayətlər, korrupsiya və qulluq mənafeyi əleyhinə olan digər cinayətlər, idarəetmə qaydası əleyhinə olan cinayətlərdən ibarət 75 maddə, eləcə də həmin maddələrlə yanaşı, eyni bir cinayət işi çərçivəsində cinayətlərin məcmusu üzrə digər maddələr ilə ittiham olunan və Azərbaycan ərazisindən kənarda olan təqsirləndirilən şəxsin prosesdə şəxsən iştirakının təmin edilməsi mümkün olmadıqda, yetkinlik yaşına çatmayan şəxslər istisna olmaqla, onların barəsində cinayət təqibi qiyabi icraat qaydasında aparıla bilər.

Prosedur çox sadədir, ölkədən kənarda olan təqsirləndirilən şəxs cinayət prosesinin təhqiqatını həyata keçirən orqana çağırılır və barəsində cinayət təqibinin qiyabi icraat qaydasında keçirilməsi imkanı barədə o, məlumatlandırılır, ona öz seçimi əsasında müdafiəçi vasitəsi ilə təmsil olunmaq istəsə, müdafiəçisi barədə məlumatları cinayət prosesinin təhqiqatını həyata keçirən orqana göndərməli olduğu bildirilir. Çağırış nəticə vermədikdə həmin şəxsə ittiham elan etmək üçün onun tutulması, axtarışı, eləcə də ekstradisiyası üçün tədbirlər görülür. Bu tədbirlər nəticə vermədikdə təqsirsizlik prezumpsiyasına riayət etməklə, şəxsin ünvanı istisna olmaqla, çağırış məlumatları ictimai televiziya və radio vasitəsi ilə yayımlanır və rəsmi internet səhifəsində dərc edilir və bununla da həmin şəxs məlumatlandırılmış hesab olunur.

Cinayət təqibi üzrə qiyabi icraatın açılması barədə qərar yalnız təqsirləndirilən şəxs barəsində axtarış elan olunduğu vaxtdan 3 ay keçdikdən sonra qəbul edilə bilər. Məhkəməyədək icraat zamanı qiyabi icraatın açılması barədə qərar müstəntiqin vəsatəti və ibtidai araşdırmaya proses-

sual rəhbərliyi həyata keçirən prokurorun yuxarı prokurorla razılaşdırılmış təqdimatı əsasında məhkəmə nəzarətini həyata keçirən məhkəmə tərəfindən qəbul olunur. Məhkəmənin hazırlıq iclası və ya məhkəmə baxışı zamanı bütün instansiya məhkəmələrində cinayət təqibi üzrə qiyabi icraatın açılması məhkəmənin öz təşəbbüsü ilə və ya ittiham tərəfinin vəsatəti əsasında işə baxan məhkəmənin özünün qərarı ilə həll edilir.

Təqsirləndirilən şəxs könüllü gəldikdə və ya ekstradisiya olunduqda  işin mərhələsindən asılı olaraq, müstəntiq, prokuror, yaxud hakimin qərarı ilə dərhal cinayət təqibi üzrə qiyabi icraata xitam verilir. Təqsirləndirilən şəxsə hüquq və vəzifələri izah olunur, bu barədə protokol tərtib edilir. Prosesin davamında qiyabi icraat zamanı aparılmış təqsirləndirilən şəxsə aid istintaq və digər prosessual hərəkətlər təkrar keçirilə bilər. Habelə əlavə istintaq və digər prosessual hərəkətlər aparıla bilər. Məhkəmə mərhələsində isə cinayət işinin baxılmasına xitam verilə bilər və hazırlıq iclasının keçirilməsi mərhələsinə qaytarıla bilər.

Barəsində qiyabi hökm və ya digər yekun qərar çıxarılmış şəxs hüquqi akt qanuni qüvvəyə mindikdən sonra könüllü gəldikdə, ya da cəzanı icra edən orqanın sərəncamına verildikdə, cəzanı icra edən orqan dərhal qiyabi hökm və ya digər yekun qərarı çıxarmış məhkəməyə qiyabi hökm və ya digər yekun qərarın ləğv edilməsi və yeni məhkəmə baxışının keçirilməsi barədə məsələlərə baxılması üçün təqdimat verir.

Dəyişikliklərin digər istiqaməti isə prosessual sənədlərin rəsmi qaydada verilməsini ehtiva edir. Bildiyiniz kimi, mülki prosessual qanunvericilikdə bu, ayrıca fəsildə ehtiva olunur. Cinayət-Prosessual Məcəlləsinin ayrı-ayrı maddələrində cinayət prosesini təhqiq edən orqana çağırış

qaydaları nəzərdə tutulsa da, məcəllədə prosessual sənədlərin rəsmi qaydada verilməsini nəzərdə tutan ayrıca maddə və ya fəsil yoxdur. Baxmayaraq ki, bu, beynəlxalq hüquq baxımdan səmərəli yanaşma sayılmır. Çünki Avropa İnsan Hüquqları Məhkəməsinin bir sıra qərarlarında, habelə Avropa Şurası Nazirlər Komitəsinin "Təqsirləndirilən şəxsin iştirakı olmadan aparılan məhkəmə icraatını tənzimləyən meyarlar haqqında" 1975-ci il 21 may tarixli qərarında da qeyd edilmişdir ki, mühakimə olunmazdan əvvəl şəxsə ilk növbədə səmərəli şəkildə çağırış vərəqəsi təqdim edilməlidir.

Cari layihə ilə Cinayət-Prosessual Məcəlləsində eyni məzmunlu IV-I fəsil əlavə edilir və prosessual sənədlərin çatdırılması, çağırış vərəqəsi, qəbzin məzmunu, prosessual sənədləri qəbul etməkdən imtina etmə kimi nüanslar məcəlləyə daxil edilir ki, bu, həm də qeyd edilən beynəlxalq standartın təmin olunması deməkdir.

Ümumilikdə, qeyd edim ki, qanun layihəsi hazırlanarkən Azərbaycan Respublikası Konstitusiyasının tələbləri, Cinayət-Prosessual Məcəllənin əsas prinsipləri rəhbər tutularaq, Almaniya, Fransa, Çexiya, Estoniya, Litva, Ukrayna kimi dövlətlərin cinayət-prosessual qanunvericilik təcrübəsindən istifadə olunub.

Əziz həmkarlar, diqqətiniz üçün təşəkkür edirəm və layihəni dəstəkləməyə çağırıram.

**Sədrlik edən.** Çox sağ olun. Çox ətraflı məlumat idi. Əminə Ağazadə, buyurun.

**Ə.Ağazadə.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar. Mən də hörmətli həmkarım Bəhruz müəllimə ətraflı təqdimat üçün təşəkkür edirəm. Həmçinin bildirmək istəyirəm ki, həm Konstitusiyaya, həm də cinayət-prosessual qanunvericiliyinə əsasən istisna hallar-

dan başqa cinayət işlərində qiyabi icraatın həyata keçirilməsinə yol verilmir.

Qüvvədə olan qanunvericilik yalnız məhkəmə baxışı zamanı, yəni Azərbaycan Respublikasının hüdudlarından kənarda olan təqsirləndirilən şəxsin məhkəməyə gəlməkdən qəsdən boyun qaçırdığı halda, onun barəsində qiyabi icraatın həyata keçirilməsinə imkan verir. Lakin qiyabi icraatın konkret hansı cinayətlər üzrə həyata keçirilə bilmək imkanının müəyyən olunmaması, habelə bunu tənzimləyən ayrıca prosessual normaların mövcud olmaması, təcrübəmdən də deyə bilərəm ki, bu cinayət işlərinin məhkəmə baxışında dayandırılmasına səbəb olurdu.

Təqdim edilən layihədə isə olduğu yer məlum olan, lakin çağırışa gəlməkdən qəsdən boyun qaçıran, eyni zamanda, cinayət-prosessual orqanından gizlənən şəxslər barəsində də Cinayət Məcəlləsinin yalnız konkret maddələri üzrə həm ibtidai araşdırma, həm də məhkəmə istintaqı zamanı qiyabi icraatın həyata keçirilməsi nəzərdə tutulur.

Hesab edirəm ki, Azərbaycan Respublikası Prezidenti tərəfindən təqdim edilən layihədə təqsirləndirilən şəxsin əsas hüquqları ətraflı şəkildə öz əksini tapan, yəni fəslin məcəllədə əlavə edilməsi cinayət təqibinin başa çatdırılmasına, qiyabi icraat qaydasında olsa da, ədalət mühakiməsinin həyata keçirilməsinə xidmət edəcək. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.08 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Növbəti məsələyə keçirik. Bu, 13-cü məsələdir. "Məhkəmə ekspertizası fəaliyyəti haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün komitənin üzvü hörmətli Kamal Cəfərova söz verirəm. Kamal müəllim, buyurun.

**K.Cəfərov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Çox sağ olun, hörmətli xanım sədr. Qanun layihəsinin məqsədi məhkəmə ekspertizası təsnifatının daha dəqiq müəyyən edilməsidir. Bu məqsədlə məhkəmə ekspertizası keçirəcək müvafiq dövlət qurumunun ekspertlərinə hərbi rütbələrin verilməsi və hərbi rütbəyə görə pul əlavəsinin ödənilməsi təklif edilir.

Eyni zamanda, qanunun 23-cü maddəsinin ikinci hissəsində texniki xarakterli dəyişikliyin əlavə edilməsi təklif olunur. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun, Kamal müəllim. Hörmətli həmkarlar, çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.09 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

İndi isə növbəti məsələ, 14-cü məsələ "Mühasibat uçotu haqqında" və "Dövlət sirri haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün mən komitənin üzvü hörmətli Məşhur müəllimə söz verirəm. Məşhur Məmmədov. Buyurun.

**M.Məmmədov,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü.*

Hörmətli xanım sədr, hörmətli deputatlar. "Mühasibat uçotu haqqında" və "Dövlət sirri haqqında" qanunlarda dəyişiklik maliyyə hesabatları və mühasibat uçotu sənədləri təqdim edilərkən dövlət və kommersiya sirri hesab edilən məlumatların qorunması məqsədi ilə hazırlanmışdır.

Qanun layihəsi dövlət sirri təşkil edən məlumatların dairəsini dəqiqləşdirir və hərbi məhsulları istehsal edən müəssisələrin, həmçinin məhsulların ixracı və satışı ilə əlaqədar mühasibat uçotu məlumatlarının dövlət sirri siyahısına salınması ilə bağlıdır.

Düşünürəm ki, indiki mərhələdə bu, kifayət qədər aktual və önəmli dəyişikliklərdir. Layihə bizim İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında müzakirə olunub və komitə tərəfindən plenar iclasın gündəliyinə daxil edilməsi tövsiyə olunub.

Hörmətli millət vəkilləri, sizdən bu layihənin dəstək-

lənməsini xahiş edirik. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun, Məşhur müəllim. Hörmətli həmkarlar, qanun layihəsinə daha iki komitədə baxılıb. Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb. Kamal müəllim, məlumat var ki, komitənin rəyini Siz bildirəcəksiniz. Buyurun.

**K.Cəfərov.** Hörmətli xanım sədr, komitə lehinədir.

**Sədrlik edən.** Çox sağ olun. Ziyafət müəllim, sizin komitədə də baxılıb. Xahiş edirəm, komitənin rəyini bildirin.

**Z.Əsgərov.** Hörmətli xanım sədr, hörmətli həmkarlar. Hörmətli Məşhur müəllim çox geniş, məzmunlu izahat verdi. Hesab edirəm ki, səsə qoymaq olar.

**Sədrlik edən.** Çox sağ olun, Ziyafət müəllim. Çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 13.12 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Növbəti məsələ 15-ci məsələdir. Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Layihəyə Əmək və sosial siyasət komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin sədri hörmətli Musa Quliyevə söz verirəm. Musa müəllim, buyurun.

**M.Quliyev,** *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Əmək Məcəlləsinin 5 maddəsində 10 dəyişiklik təklif edilir. Dəyişikliklər həm mahiyyət etibarı ilə norma dəyişdirici, həm də üslub xarakterlidir. Dəyişikliklər mahiyyətcə qadınların məşğulluq imkanlarını məhdudlaşdıran normaların aradan qaldırılması və qadınların orta əmək haqlarının kişilərin əmək haqlarına çatdırılması məqsədi daşıyır.

Dünyada gender bərabərliyinin təminatları sahəsində məqsədyönlü və ardıcıl işlər aparılmasına baxmayaraq, hələ də qadın əməyinin qiymətləndirilməsi kişilərə münasibətdə geriyə qalır. Hesablamaya görə, dünyada qazanılan hər 1 dollar kişi əməyinə 77 sent qadın əməyi düşür.

Azərbaycanda qadınların orta əmək haqqı kişilərin orta əmək haqqının yalnız 65 faizini təşkil edir. Qadınların məşğulluq imkanlarının genişləndirilməsi və əmək haqlarının yüksəldilməsi təminatlarının artırılmasını qoşulduğumuz və ratifikasiya etdiyimiz beynəlxalq sənədlər də bizə tövsiyə edir. Onlardan 3-nü xatırladaraq Əmək Məcəlləsində edilən dəyişiklikləri diqqətinizə çatdırmaq istəyirəm.

Birinci, “Qadınlar barəsində ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında” BMT Konvensiyası 1979-cu ildə qəbul olunub və Azərbaycan tərəfindən 1995-ci ildə ratifikasiya olunub. Bunun əsasında 2006-cı ildə milli qanunvericiliyimizdə “Gender bərabərliyinin təminatları haqqında” Qanun qəbul edilib.

İkinci sənəd, BMT-nin 2015-ci ildə qəbul etdiyi və 2030-cuilədək reallaşdırılmasını tövsiyə etdiyi “Dayanıqlı inkişaf məqsədləri” Proqramının 17 məqsədindən 5-cisi gender bərabərliyi haqqındadır və Azərbaycan da bu məq-

sədlərə qoşulubdur. Artıq 3-cü milli hesabatını təqdim etmişdir.

Üçüncü sənəd, Dünya Bankının illik hesabatında qadınların əmək haqqı ilə bağlı qanunlar göstəricisi üzrə ölkəmizin reytinqinin yüksəldilməsi tövsiyə edilmişdir.

Ölkəmizdə qadınların məşğulluq imkanlarının genişləndirilməsi və yüksək əmək haqqı təminatının artırılması sahəsində qanunvericiliyin təkmilləşdirilməsi sahəsində davamlı tədbirlər həyata keçirilir. 1 il bundan əvvəl, 2022-ci ilin payız sessiyasında Əmək Məcəlləsində etdiyimiz dəyişiklik nəticəsində qadınların əməyi qadağan olunmuş 674 vəzifə, peşə, iş yeri sayı azaldılaraq 204-ə endirilmişdir. Müzakirənizə təqdim olunan Əmək Məcəlləsində dəyişikliklər də bu istiqamətdə görülən işlərin davamıdır.

Layihə gecə vaxtı, iş vaxtından artıq işə cəlb edilmə və ezamiyyəyə göndərilmə ilə bağlı qadınların hüquqlarını genişləndirir. Layihədə həmçinin nəzərdə tutulub ki, hamilə, 14 yaşınadək uşağı olan, habelə sağlamlıq imkanları məhdud uşağı olan qadınların kişilərlə bərabər qaydada gecə işlərində işləmələrinə, iş vaxtından artıq işə cəlb edilmələrinə və ezamiyyəyə göndərilmələrinə qadağalar aradan qaldırılır və bu işlərə qadınların razılığı ilə icazə veriləcəkdir.

Layihədə edilən digər bir dəyişiklikdə nəzərdə tutulan yenilik ondan ibarətdir ki, hamilə, 14 yaşınadək uşağı olan, həmçinin əlilliyi müəyyən edilmiş 18 yaşınadək uşağı olan qadınlarla bərabər, 3 yaşınadək uşağını təkbaşına böyüdən kişilər də gecə vaxtı yerinə yetirilən işlərə yalnız onların yazılı razılığı ilə cəlb ediləcəklər.

Eyni zamanda, "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununa müvafiq olaraq, eyni terminlərin vahid şəkildə verilməsi

məqsədi ilə Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi zərurəti yaranmışdır. Bir neçə maddədə "gecə vaxtı işləri" sözləri dürüstləşdirilərək "gecə vaxtı yerinə yetirilən işlər" ifadəsi ilə əvəz edilmişdir.

Layihə pozitiv xarakter daşıyır. Xahiş edirəm, layihəni birinci oxunuşda dəstəkləyəsiniz. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Musa müəllim. Hicran xanım, bu qanun layihəsinə sizin komitənizdə – Ailə, qadın və uşaq məsələləri komitəsində də baxılıb. Xahiş edirəm, Siz komitənin rəyini bildirin.

**H.Hüseynova,** *Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri.*

Çox sağ olun, xanım sədr. Hörmətli həmkarlar, Musa müəllim qanun haqqında çox ətraflı danışdı. Məsələyə bizim komitəmizdə də baxılıb. Rəy müsbətdir. Bütün komitə üzvləri razıdır, layihə birinci oxunuşda qəbul olunsun.

**Sədrlik edən.** Çox sağ olun, Hicran xanım. Çıxış etmək istəyənlər var. Əli Məsimli. Əli müəllim, buyurun.

**Ə.Məsimli.** Çox sağ olun, hörmətli xanım sədr. Qanun layihəsi gecə vaxtı, iş vaxtından artıq işə cəlb edilən və ezamiyyə ilə bağlı qadınların hüquqlarının genişləndirilməsinə yönəldilib. İrəli sürülən dəyişikliklər də xeyli dərəcədə Dünya Bankının hesabatları ilə uyğunlaşdırma xarakteri daşıyır. Təbii ki, dünyada gedən bu istiqamətdə olan tendensiyaları dəstəkləyirik. Amma eyni zamanda, Azərbaycanın öz mental xüsusiyyətləri olduğuna görə, bir sıra məqamları da qeyd etməyi vacib hesab edirik.

Burada çıxış zamanı bildirildi, ağır işlərdə qadınların işləməsinin siyahısı ciddi şəkildə məhdudlaşdırılıb. Hesab edirik ki, bu, Azərbaycanın mental xüsusiyyətlərinə o dərəcədə uyğun deyil. Qadınları həmin ağır işlərə cəlb etməkdənsə, qadınların ənənəvi surətdə daha çox hansı sahələrdə

işləməsi istiqamətində addımların atılmasını vacib hesab edirəm. Yəni qadınlar təhsil, səhiyyədən başqa, ənənəvi surətdə yüngül və yeyinti sənayesi, xidmət sahələrində daha çox çalışırlar. Amma bu gün elə bir şərait yaradılıb ki, Azərbaycan sənayesinin 10 faizindən də azı regionlardadır və regionlarda da işləyən insanların xeyli hissəsi, o cümlədən qadınlar və gənclər iş tapa bilmirlər. Yaxşı olar ki, həmin sahələr genişləndirilsin və qadınları ağır işlərə cəlb etməkdənsə, bilavasitə, məhz ənənəvi surətdə hansı sahələrdə daha çox çalışıb nəticələr əldə edibsə o sahələrə cəlb olunsunlar.

İkinci məsələ, hörmətli xanım sədr, bu qanunvericilik sənədinin ciddi bir xüsusiyyəti var, qanunda hər şey yaxşı yazılır, amma qanunda Əmək Məcəlləsinin bu maddələri üzrə yazılanlar çox vaxt real həyatda öz əksini tapmır. Təəssüf doğuran odur ki, bu, artıq oturuşmuş xarakter daşımağa başlayır. Sadə bir misalı qeyd etmək kifayətdir.

Birinci,  ağır işlərdə, bu istiqamətdə çalışan adamların mütləq razılığı yazılı surətdə alınmalıdır. Monitorinq aparılsa, görüləcək ki, yazılı surətdə razılıq çox azdır.

İkinci, Azərbaycan Respublikasının Konstitusiyası, Əmək Məcəlləsi, qoşulduğumuz beynəlxalq konvensiyalar bilavasitə tələb edir ki, insanlar həftədə 40 saat işləməlidir. Amma monitorinq aparılsa, görüləcək ki, insanlar həftədə 54 saat, bəzi hallarda isə gündə 12-14 saat işləyir və onların da heç birinin yazılı razılığı yoxdur. Bu mental xüsusiyyətlərə bir də qayıdıram. Belə məsələlər ailə münaqişələrinə, ailələrin dağılmasına və sair çox ciddi təsir göstərir.

Ona görə, hesab edirəm ki, qanunda yazılan bir məsələ, Dünya Bankının irəli sürdüyü bir məsələ, Azərbaycanın özünün mental xüsusiyyətləri və həmin mental xüsusiy-

yətlərdən çıxış edərək qadınlara ağır iş yerlərinin deyil, onlara layiq olan, işləyə biləcəkləri iş yerlərinin təqdim edilməsi daha məqsədəuyğun olar. Xüsusi ilə də regionlarda sənayenin yerləşmə quruluşunun təkmilləşdirilməsini, qadınların və gənclərin ilk növbədə işə cəlb edilməsi istiqamətində əlavə tədbirlərin görülməsini, bir də monitorinqlərin aparılmasını və monitorinqlərdə həftədə 40 saatdan artıq işləmə halları ortaya çıxan zaman onların qanunvericilikdə nəzərdə tutulan səviyyədə cəzalandırılmasını, bir də həmin nəticələrin ictimailəşdirilməsini vacib hesab edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** 2 nəfər yazılıb. Əgər çıxsalar, səsə qoyacağam. Yazılıblar. Aydın Hüseynov, buyurun.

**A.Hüseynov.** Hörmətli xanım sədr, qanun layihəsinə səs verəcəyəm. Ona görə ki, qanun layihəsi qadınların hüquqlarının genişləndirilməsini özündə ehtiva edir.

O da məlumdur ki, Azərbaycan cəmiyyətində daim qadınlara böyük ehtiram var, böyük inam var, müxtəlif vəzifələrdə işləmələri üçün geniş şərait yaradılıb. Dövlət işlərində təmsil olunurlar. Mehriban xanım Əliyevanın fəaliyyəti, bütövlükdə, Azərbaycan cəmiyyətində qadınlar üçün bir nümunədir. Eyni zamanda, biz onunla fəxr edə bilərik ki, Şərqdə ilk dəfə olaraq bizim Cümhuriyyət dövründə qadınlar parlamentə seçiliblər.

İndinin özündə də bizim parlamentimiz, bütövlükdə, Azərbaycanda qadınların rolunu özündə ehtiva edən bir modeldir. Hakimiyyətin lazımlı, vacib bir qolu olan sahəyə, parlamentə rəhbərliyi bu gün, xanım sədr, Siz edirsiniz. Parlamentimizdə bizim çox dəyərli qadın həmkarlarımız var ki, siyasi xadim olaraq cəmiyyətdə çox böyük

nüfuza malikdirlər. Sahibkarlar və sair, bütün sahələrdə. Bu baxımdan bu qanunun qəbul olunması qadınlara bir daha diqqətin təzahürüdür.

Eyni zamanda, mən istərdim hansı fikri deyəm. Burada gecə işlərində işləmələrinə və ezamiyyəyə getmələrinə yalnız onların yazılı razılığı ilə icazə verilir. Mən hesab edirəm ki, burada, əlbəttə, bir çox sahələrdən yanaşmaq olar. Burada qadınların özlərinin yox, ailəsinin yazılı razılığı ilə icazə verilməsi daha düzgün olar, bununla ailə dəyərlərinin qorunmasında daha bir addım atılmış olardı.

Digər tərəfdən, qanunla bağlı arayışda göstərilir ki, əslində, – Musa müəllimin təqdimatında çox düzgün şəkildə qeyd edildi, – bu, qadınların hüquqlarının genişləndirilməsi ilə bağlıdır. Ancaq arayışda ön hissəyə çıxır ki, bu, Dünya Bankının tövsiyələri və Dünya Bankının hesabatında bizim yüksək reytinq tutmağımızla bağlıdır. Əslində, Musa müəllimin təqdimatında qadınların hüquqlarının genişləndirilməsi ön sıraya çəkilmişdi. Sonrakı addımda isə bəli, biz bu işləri yüksək səviyyədə görəriksə, Dünya Bankının hesabatında reytinqimiz yüksələr. Hesabatda da düzəlsə, çox gözəl olar. Qanuna səs verəcəyəm. Bir daha təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Aydın müəllim. Mən müdaxilə etmək istəmirəm. Sadəcə, birini deyim, qadın həkimlər nə eləsin? Onlar növbətçiliyə qalırlar və sair. Onda həkimlər...

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Oldu, çox sağ olun. Aqil Abbas. Aqil müəllim, buyurun.

**A.Abbas.** Təşəkkür edirəm, Sahibə xanım. Mən qanun layihəsinə səs verəcəyəm. Amma mənim Sizə və həmkarlarıma bir təşəkkür, bir də üzr borcum var. İcazə verin,

onu deyim. Bircə dəqiqə vaxt alacam, çünki yazıla bilməmişdim. Səhhətimlə əlaqədar vətəndən uzaqda olanda məni axtardınız, tapdınız və məni danladınız, kömək etmək, yardım etmək məsələsini dediniz. İrad tutdunuz ki, niyə gizlətmisiniz, getmisiniz, deməmisiniz? Ona görə təşəkkür edirəm. Dedim ki, ailəmdən başqa heç kimə deməmişəm. Sağ olun, yardıma heç bir ehtiyacım yoxdur. Ailəmdən başqa heç kimə deməmişəm və ailəmlə gəlmişəm. Siz də dediniz ki, bəs Milli Məclis Sizin ailəniz deyil? Mənə bir şapalaq kimi dəydi. Həqiqətən də, Milli Məclis bizim ailəmizdir. Ona görə Sizə təşəkkür edirəm. Eyni zamanda, həmin vaxt məni bütün deputat dostlarım axtardılar, bəziləri tapa bilmədilər. Hamısına təşəkkür edirəm.

Qaldı üzr borcum. O gün iclasda özümdən asılı olmadan ayaq üstə durdum, 18 ildə ilk dəfə qanunu pozdum, ayaq üstə danışdım. Bu hərəkətimə görə də Sizdən və deputat həmkarlarımdan üzr istəyirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Aqil müəllim. Mən elə həmişə Milli Məclisi böyük bir ailə kimi tanıyıram. Ona görə də Sizə dedim ki, Milli Məclis də Sizin ailənizdir. Qalxmağa görə üzr istəməyin. Burada çox adam qalxır.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Hörmətli həmkarlar, mən qanun layihəsini səsə qoyuram. Buyurun, səs verin.

| **Səsvermənin nəticələri** | (saat 13.27 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, növbəti 2 məsələ möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub və mahiyyətcə də bir-birinə bağlıdır. Gündəliyin 16-cı məsələsi "İşsizlikdən sığorta haqqında" Qanunda, 17-ci məsələsi isə İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihələridir. Mən təklif edirəm ki, həmişə olduğu kimi, qanun layihələrinin təqdimatı, müzakirəsi birgə getsin, səsvermə isə ayrılıqda keçsin.

16-cı məsələ, Musa müəllim, sizin komitənin məsələsidir. Xahiş edirəm, Siz bir məlumat verin.

**M.Quliyev.** Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. "İşsizlikdən sığorta haqqında" Qanun 2017-ci ildə qəbul olunub və 2018-ci ildən tətbiq edilməyə başlamışdır. Bu dövr ərzində yeni işsizlikdən sığorta sistemi formalaşmış, fond yaranmışdır. Sistemin dayanıqlığını təmin etmək üçün ardıcıl tədbirlər görülür və qanunvericiliyin də təkmilləşdirilməsi bu istiqamətdə təbiidir.

İndiyə qədər yalnız 3 halda işsiz kimi qeydə alınmış sığorta edilən işsizlikdən sığorta ödənişi almaq hüququna malik idi. Yəni müəssisə ləğv edildikdə, müəssisədə ştatlar ixtisar olunduqda, bir də əmək müqaviləsinin müddəti bitdikdə. İndi təklif olunan dəyişikliklər isə bu imkanları daha da genişləndirir və bir sıra hallarda işsiz vətəndaş işsizlikdən sığorta haqqı almaq imkanı əldə edəcəkdir. Bunlar hansıdır?

Müəssisənin mülkiyyətçisinin dəyişməsi halında, yəni Əmək Məcəlləsinin 68.2-ci maddəsinin "c" bəndinə uyğun olaraq. Əvvəllər müvafiq işdə çalışan işçinin işə bərpa edilməsi halında məhkəmə qərarı ilə və yaxud başqa

səbəblərdən. Bu da Əmək Məcəlləsinin 74-cü maddəsinin birinci hissəsinin "b" bəndinə uyğundur. Bir də əvvəllər həmin müəssisədə çalışan işçi müddətli həqiqi hərbi xidmətdən ehtiyata buraxıldığı halda öz işinə qayıdarsa, Əmək Məcəlləsinin 74-cü maddəsinin birinci hissəsinin "a" bəndinə uyğun olaraq işsizlikdən sığorta ödənişi alacaqdır.

Qanunda edilən digər dəyişikliklər isə yenə də işçinin iş şəraitinin yaxşılaşdırılması və sığorta ödənişi alması imkanlarının genişləndirilməsinə xidmət edir. Sığorta ödənişinə uşağa görə əlavənin ailədəki  bütün uşaqlar üçün verilməsində hazırda 5 faiz məhdudiyyət var idi. İndi o 5 faiz artırılır, 20 faizdən çox olmamaq şərti ilə, demək olar ki, bütün uşaqları əhatə edəcəkdir.

Müddətli əmək müqaviləsi üzrə tələb edilən sığorta stajı 30 aydan 24 ayadək azaldılır. Fərdi məşğulluq proqramının icrasının üzrlü səbəbdən icra edilməyən üzrlü hallarının konkret siyahısı müəyyənləşdirilir və bununla bağlı müddəalar qanunda  öz əksini tapmışdır.

Qeyd olunan dəyişiklikləri nəzərə almaqla, qanun layihəsinə səs verməyi sizdən xahiş edirəm. Bir də onu demək istəyirəm ki, bu sahədə qanunun təkmilləşdirilməsi prosesi davam edir. Əsas məqsəd də işçilərin sosial sığorta haqları ilə əhatə olunması imkanlarını genişləndirməkdir.

Diqqətinizə görə təşəkkür edirəm. Birinci oxunuşda qanun layihəsini konseptual baxımdan dəstəkləməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Musa müəllim. Hörmətli həmkarlar, 17-ci məsələyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün yenə də Kamal Cəfərova söz verirəm. Buyurun.

**K.Cəfərov.** Çox sağ olun, hörmətli xanım sədr. Komitə lehinədir.

**Sədrlik edən.** Siz lap Avropa Şurasındakı kimi elədiniz, qısaca, komitə lehinə. Çox sağ olun.

Hörmətli həmkarlar, biz qanun layihələrinin müzakirəsinə keçirik. Ancaq mən görürəm, heç kim yazılmayıb. Ona görə qanun layihələrini mən bir-bir səsə qoyacağam. İndi isə xahiş edirəm, 16-cı məsələyə, yəni "İşsizlikdən sığorta haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.32 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

İndi isə xahiş edirəm, 17-ci məsələyə münasibət bildirin. Bu, İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 13.32 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin son 7 məsələsi möhtərəm cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub və məzmun və mahiyyət baxımından bir-birinə yaxındır.

18-ci məsələ Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişiklik edilməsi haqqında, 19-cu məsələ Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında, 20-ci məsələ Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında, 21-ci məsələ İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında, 22-ci məsələ "Dəniz limanları haqqında" Qanunda dəyişiklik edilməsi barədə, 23-cü məsələ "Milli təhlükəsizlik haqqında" Qanunda dəyişiklik edilməsi barədə və 24-cü məsələ "Dövlət rüsumu haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihələridir. Onu da deyim ki, Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsinin müzakirəsi ilə əlaqədar Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Hüquq şöbəsinin müdiri Elmin Məmmədov iclasımızda iştirak edir.

Hörmətli həmkarlar, icazənizlə, biz əvvəlcə qanun layihələrinin təqdimatlarını dinləyək. Sonra isə müzakirə və səsverməyə keçək. Mən təklif edirəm ki, 18-ci, 22-ci və 24-cü məsələlərə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxıldığına görə bu qanun layihələrini komitənin üzvü hörmətli Anar Məmmədov təqdim etsin. Anar müəllim, buyurun, bu 3 qanun layihəsi haqqında məlumat verin.

**A.Məmmədov,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü.*

Təşəkkür edirəm. Çox hörmətli xanım sədr, hörmətli həmkarlar. Bu qanun layihəsi dəniz nəqliyyatı sahəsində

normativ hüquqi aktların təkmilləşdirilməsi ilə birlikdə, bu sahədəki fəaliyyətin səmərəliliyinin artırılmasını təmin edəcək dəyişiklikləri özündə ehtiva edir. Layihənin hazırlanması zamanı beynəlxalq təcrübədən istifadə olunmuş, qlobal tendensiya da nəzərə alınmışdır. İndi isə layihənin əsas məqamları barədə qısa məlumatı nəzərinizə çatdırmaq istəyirəm.

"Dəniz əməliyyatları bazası", "dənizçi" və digər yeni anlayışlar müəyyən edilir. Bəzi anlayışlar da dəqiqləşdirilir. Artıq məcəllənin tətbiq olunduğu gəmilərin siyahısına gəzinti məqsədləri üçün istifadə edilən gəmilər də daxil edilir. Bir sıra gəmi sənədlərinin adları da dəqiqləşdirilir. Əsas gəmi sənədlərinin siyahısında əlavə olaraq 38-ci maddədə gəminin müvafiq dövlət gəmi reyestrindən çıxarılmasının əsasları, 42-ci maddədə "Gəmi heyətinin tərkibi", 44-cü maddədə isə ixtisasları barədə tələblər dəqiqləşdirilir.

*Azərbaycan Respublikası Milli Məclisi sədrinin birinci müavini* ***Əli Hüseynli*** *sədrlik edir*

Dövlət Dəniz və Liman Agentliyi tərəfindən dəniz nəqliyyatı sahəsində göstərilən xidmətlərə görə haqların məbləğlərinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan tərəfindən təsdiqini nəzərdə tutan müddəalar da daxil edilir. Gəmi sahibinin vəzifələrinə əlavələr edilir. Həmçinin gəmi sahibi və gəmi kapitanı dənizdə olarkən gəmidə qəza baş verdikdə qəza barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi quruma dərhal məlumat vermək vəzifəsi müəyyən edilir.

Bunlardan əlavə, eləcə də qanun layihəsinə əsasən gəmi

qeydiyyatlarının aparılmasına, gəmilərə sənədlərin verilməsinə, gəmiyə dair layihənin hazırlanmasına, habelə gəmi heyətinə verilən sənədlərə dair digər müddəalar da dəqiqləşdirilir.

Çox hörmətli Əli müəllim, 22-ci qanun layihəsini də təqdim edim?

**Sədrlik edən.** Bəli, sizin komitəyə aid olan bütün qanun layihələrini təqdim edin.

**A.Məmmədov.** Qanun layihəsində dəyişikliklər 2 əsas istiqamətdə nəzərdə tutulur. Birinci istiqamət, tariflər tətbiq ediləcək dəniz üzgüçülüyünün təhlükəsizliyi fəaliyyətinin əhatə dairəsinin müəyyən edilməsi, ikinci istiqamət isə qanunvericilik praktikasının tələblərinə uyğun olaraq, bu sahədə tənzimlənməni və nəzarəti həyata keçirən orqanın, Dövlət Dəniz və Liman Agentliyinin publik hüquqi şəxs statusunun olması nəzərə alınaraq, “müvafiq icra hakimiyyəti orqanı” ifadəsi “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)” ifadəsi ilə əvəzlənir.

Hörmətli Əli müəllim, 24-cü məsələdə olan qanun layihəsini də təqdim edirəm. Müzakirə olunan qanun layihəsi dənizçilik və dəniz nəqliyyatı ilə bağlı bir neçə məsələni tənzimləmək mahiyyəti daşıyır. Belə ki, qanunun 28-ci maddəsi üzrə təklif edilən dəyişikliklər aşağıdakı məqamları nəzərdə tutur.

Dəniz nəqliyyatı fəaliyyəti çərçivəsində tələb olunan bəzi sənədlərin adları dəqiqləşdirilir. Gəmi tarixinin fasiləsiz qeydlər sənədinin və dəniz nəqliyyatı sahəsində fəaliyyət göstərən təlim-tədris mərkəzinə, habelə fiziki və hüquqi şəxslərə onların fəaliyyətinin beynəlxalq konvensiyaların tələblərinə uyğun olması barədə şəhadətnamənin verilməsinə görə rüsumlar da müəyyənləşdirilir.

Qanun layihələri İqtisadi siyasət, sənaye və sahibkarlıq

komitəsində çox geniş şəkildə müzakirə edilmişdir. Komitənin rəyi də müsbətdir. Hörmətli həmkarlarımızdan qanun layihəsinə səs verib dəstəkləmələrini xahiş edirəm. Təşəkkür edirəm, çox hörmətli Əli müəllim.

**Sədrlik edən.** Çox sağ olun, hörmətli Anar müəllim. Gündəliyin 19-cu, 20-ci və 21-ci məsələlərinə Hüquq siyasəti və dövlət quruculuğu komitəsi də rəy vermişdir. Kamal müəllim, xahiş edirəm, Siz Miqrasiya Məcəlləsi, Cinayət Məcəlləsi və İnzibati Xətalar Məcəlləsi ilə bağlı fikirlərinizi bölüşəsiniz. Buyurun.

**K.Cəfərov.** Çox sağ olun, hörmətli Əli müəllim. 19-cu məsələnin məqsədi qanunvericiliyə uyğunlaşdırma xarakteri daşıyır, 3.0.17-ci maddədə "dəniz kitabçası" sözlərinin "dənizçinin şəxsiyyət sənədi" sözləri ilə əvəz edilməsi təklif edilir.

20-ci məsələdə də dəyişikliyin məqsədi dəqiqləşdirmə xarakteri daşıyır. 252-ci maddənin adında və dispozisiyasında "dəniz mühiti" sözlərinin bu sahədəki müvafiq beynəlxalq konvensiyaya uyğun olaraq, "dəniz ətraf mühiti" sözləri ilə əvəz edilməsi təklif edilir.

21-ci məsələdə isə 312-ci və 313-cü maddələrin adları və dispozisiyaları dəqiqləşdirilir. 307.4-cü maddənin dispozisiyası genişləndirilir və yeni 307.5-ci maddənin əlavə edilməsi təklif edilir. Həmkarlarımı dəstək verməyə çağırış edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Nəhayət, bu paketə daxil olan "Milli təhlükəsizlik haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim etmək üçün, hörmətli Ziyafət müəllim, Sizə söz verirəm. Gündəliyin 23-cü məsələsi.

**Z.Əsgərov.** Çox sağ olun, hörmətli Əli müəllim. Hörmətli həmkarlar, "Milli təhlükəsizlik haqqında" Qanunun

7-ci maddəsində redaktə xarakterli dəyişiklik edilir. Belə ki, 7.10.3-cü maddədə "ətraf" sözü əlavə edilir. Yəni "atmosferin və dəniz mühitinin təhlükəli miqyaslarda çirklənməsi" "dəniz ətraf mühitinin təhlükəli miqyaslarda çirklənməsi" sözləri ilə əvəz olunur. Bu da səbəbsiz deyil. Çünki biz "Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında" Çərçivə Konvensiyasına qoşulmuşuq. Bu da bu konvensiyanın tələbindən irəli gəlir. Səsə qoyulmasını xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Ziyafət müəllim. Müzakirəyə yazılanlar var.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Təklif var ki, səsə qoyulsun. Onda, hörmətli deputatlar, kimlər ki çıxışa yazılıb, təkliflərinizi komitəyə təqdim edə bilərsiniz. Səsvermələrə keçirik. Xahiş edirəm, gündəliyin 18-ci məsələsinə münasibət bildirəsiniz.

| **Səsvermənin nəticələri** | (saat 13.40 dəq.) |
|---|---|
| Lehinə | 83 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 84 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

Xahiş edirəm, gündəliyin 19-cu məsələsinə münasibət bildirəsiniz.

| **Səsvermənin nəticələri** | (saat 13.41 dəq.) |
|---|---|
| Lehinə | 83 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 1 |
| İştirak edir | 84 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

Xahiş edirəm, indi gündəliyin 20-ci məsələsinə səs verək.

| **Səsvermənin nəticələri** | (saat 13.41 dəq.) |
|---|---|
| Lehinə | 83 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 84 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

Xahiş edirəm, gündəliyin 21-ci məsələsinə münasibət bildirəsiniz.

| **Səsvermənin nəticələri** | (saat 13.41 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

Xahiş edirəm, gündəliyin 22-ci məsələsinə münasibət bildirəsiniz.

| **Səsvermənin nəticələri** | (saat 13.42 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

Xahiş edirəm, gündəliyin 23-cü məsələsinə səs verəsiniz.

| **Səsvermənin nəticələri** | (saat 13.42 dəq.) |
|---|---|
| Lehinə | 83 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 84 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

Nəhayət, gündəliyin sonuncu, 24-cü məsələsinə münasibət bildirməyinizi xahiş edirəm.

| **Səsvermənin nəticələri** | (saat 13.42 dəq.) |
|---|---|
| Lehinə | 84 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, çox sağ olun. İclasımız başa çatdı. Sağ olun.

# EDİLMƏMİŞ ÇIXIŞLARIN MƏTNLƏRİ

***<u>5 dekabr 2023-cü il</u>***

**Malik Həsənov.** Bu gün olduqca fərəhli haldır ki, ölkəmizin suveren hüquqları bütün ərazilərimizdə bərqərar olmuşdur. Təbiidir ki, Zəfərimiz birmənalı olaraq müzəffər Ali Baş Komandanımız, möhtərəm Prezidentimiz İlham Əliyevin adı ilə bağlıdır. Məhz onun dəmir iradəsinin, ordu–xalq–Prezident birliyinin nəticəsidir ki, şanlı bayrağımız işğaldan azad olunmuş torpaqlarımızda dalğalanır. Uca Tanrıdan şəhidlərimizə rəhmət diləyirəm.

Bu gün işğaldan azad edilmiş ərazilərimizdə geniş quruculuq, abadlıq işləri aparılır, Böyük Qayıdışa hazırlıq işləri görülür, bir zamanlar məcburi köçkün həyatı sürməyə məcbur edilmiş soydaşlarımızın ilkin qrupları öz doğma yurdlarına qayıdırlar.

Bu gün müzakirəmizə təqdim olunan 1992-ci il oktyabrın 13-də ləğv edilmiş Ağdərə rayonunun yenidən inzibati vahid kimi bərpa edilməsi haqqındakı qanun layihəsi işğaldan azad edilmiş ərazilərdə idarəetmənin səmərəliliyinin artırılması baxımından olduqca əhəmiyyətlidir və insanlarımızın idarəetmə ilə bağlı xidmətlərə əlyetənliyinin asanlaşdırılması məqsədi daşıyır. Layihədə Kəlbəcər rayonunun ərazisindən 735,84, Tərtər rayonundan 851,25, Ağdam rayonundan isə 73,74 kvadrat-kilometr sahənin yenidən yaradılan Ağdərə rayonuna verilməsi nəzərdə tutulur ki, bu da, demək olar, sovet dönəmində Mardakert adlandırılan rayonun hüdudları ilə eyniyyət təşkil edir. 1990-cı illərin əvvəlində bir hissəsinin işğal edilməsi səbəbi ilə ləğv olunmuş Ağdərə rayonu vacib strateji mövqedə yerləşir. Burada Qarabağ iqtisadi rayonunun ən əhəmiyyətli iki su anbarının yerləşməsi, eləcə də Kəlbəcər rayonuna ən təhlükəsiz avtomobil yolunun

bu rayon ərazisindən keçməsi onun əhəmiyyətini artırır.

Qeyd edilənləri nəzərə alaraq, təqdim olunmuş qanun layihəsini uğurlu hesab edirəm və onun lehinə səs verəcəyəm.

***8 dekabr 2023-cü il***

**Əliabbas Salahzadə.** Ötən gün möhtərəm Prezidentimiz cənab İlham Əliyevin sərəncamı ilə ölkəmizdə növbədənkənar Prezident seçkiləri elan edildi. Olduqca qürurverici haldır ki, fevral ayının 7-də keçiriləcək seçkilərdə Vətən müharibəsində qazandığımız tarixi qələbənin nəticəsində öz yurd yerlərinə qayıtmış vətəndaşlarımız dədə-baba torpaqlarında səs vermək imkanı qazanacaqlar. Cənab Prezident tərəfindən növbədənkənar Prezident seçkilərinə gedilməsi barədə qərar siyasi mühitin durulaşdırılmasına, növbəti dövr üçün qarşıya qoyulmuş hədəflərə çatmağa imkan verəcək siyasi idarəçilik sisteminin yenilənməsinə hesablanmışdır.

Bütün seçkilərdə seçici – vətəndaş bu suallara cavab tapmağa çalışır və görmək istədiyi bu kriteriyalara cavab verən şəxsə etimad göstərir.

1. Hansı vəzifəyə seçirik? Xalqımız 2024–2031-ci illəri əhatə edəcək dövr üçün Prezidentini seçəcək.

2. Seçimimiz kimlər ola bilər? Seçimimiz Konstitusiyada bu vəzifəyə seçilməyə imkan verən meyarlara cavab verə bilən hər bir ölkə vətəndaşı ola bilər.

3. Namizədlər siyahısında bu vəzifədə hazırda və ya əvvəllər çalışmış şəxsin namizədliyi varmı, varsa, bu vəzifədə necə çalışmışdır, dövlət və xalq onun fəaliyyəti dönəmində nə qazanmışdır, nələri itirmişdir və nəhayət, bu şəxs tarixdə necə qalmışdır? Bəli, namizədlər sırasında

birmənalı olaraq möhtərəm Prezidentimiz cənab İlham Əliyev olacaqdır. O, ölkəmizi iqtisadi gücünə görə dünya ölkələri arasında öncül, bölgəmizdə isə lider dövlətə çevirmiş, 21-ci əsrin ən güclü ordularından birinin yaradıcısı, mahir diplomat, böyük siyasətçi, sözü istənilən müqavilədəki imzadan keçərli və yetərli, hər bir vətəndaşının sosial və mənəvi ehtiyaclarının qarşılanmasını daxili siyasətinin əsas prioriteti hesab edən liderdir. Cənab İlham Əliyevin adı tariximizə müzəffər Ali Baş Komandan kimi düşmüşdür. Əminliklə ifadə edirəm ki, bu günə kimi daim onun yanında olan xalqı yenə ona etimad göstərəcək, onun rəhbərliyi ilə yeni tarixi hadisələrin iştirakçısı olacaq, uğur əldə edəcəkdir.

Cənab İlham Əliyevin nüfuzu o miqyasda böyük, tariximizdə tutduğu mövqe o qədər şərəflidir ki, bu etimad təkcə seçicilərin deyil, onların simasında seçmək hüququ yaşına çatmayanların, həmçinin xarici ölkə vətəndaşı olan soydaşlarımızın da iradəsini əks etdirəcəkdir.

Cənab Prezidentimizin növbədənkənar Prezident seçkilərinə gedilməsinə dair qərarını dəstəkləyirəm. Qarşıdan gələn seçkilərin şəffaf və demokratik keçiriləcəyinə əminliyimi ifadə etməklə, bizlərin də xalqımız və dövlətimiz üçün son dərəcə tarixi əhəmiyyətə malik bu seçkilərin təşkilinə öz töhfəmizi verəcəyimizi bildirirəm.

**Kamran Bayramov.** 2023-cü ilin 7 dekabrı müstəqil Azərbaycan tarixinə əlamətdar və rəmzi bir gün kimi yazıldı. Həmin gün Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan cənab İlham Əliyev ölkəmizdə növbədənkənar Prezident seçkilərinin elan edilməsi haqqında sərəncam imzaladı, habelə cənab Prezidentin Administrasiyasının və Ermənistan baş nazirinin Aparatının regionumuzda səbirsizliklə gözlənilən sülhə

birbaşa xidmət edən sülh müqaviləsinin gerçəkləşməsinə real töhfə verən birgə bəyanatı yayıldı.

Dövlət başçısının seçkiləri hər bir ölkənin ictimai-siyasi həyatında ən əhəmiyyətli hadisədir, Azərbaycan üçün isə ikiqat əhəmiyyətlidir, çünki bu, işğal olunmuş ərazilərin azad edilməsindən və Qarabağ regionu üzərində suverenliyin bərpasından sonra keçirilən ilk seçkilər kimi tarixə yazılacaq. Məhz bu amil xalqımızla onun rəhbəri arasında etimad mandatının yenilənməsini zəruri edir.

2018-ci il Prezident seçkilərində xalqımız İlham Əliyevə qətiyyətli tədbirlərin, məqsədyönlü islahatların həyata keçirilməsi üçün mandat verdi. Buna cavab olaraq İlham Əliyev resursları səfərbər etməyi və birləşdirməyi, "dəmir yumruğu" ilə işğalçıları əzməyi, Qarabağımızı erməni separatçılığından təmizləməyi, regionumuzda yeni reallıqlar gerçəkləşdirməyi bacardı, sülhün, təhlükəsizliyin və sabitliyin bərqərar olunması üçün əlverişli şərait yaratdı.

İlham Əliyev dünyaya və Ermənistana sübut etdi ki, sülhə nail olmaq üçün nə Avropanın, nə Amerikanın, nə Rusiyanın, nə də digər dövlət və təşkilatların vasitəçiliyinə heç bir ehtiyac yoxdur. Sübut etdi ki, sülh yalnız birbaşa təmas və danışıqlar yolu ilə mümkündür. Sülh müqaviləsinin hazırlanması, sərhədlərimizin delimitasiyası üzrə birbaşa təmaslar, habelə dünənki birgə bəyanat isə bunun əyani sübutudur.

Cənab Prezidentin yaratdığı yeni reallıqlar regionda yeni çağırışlara səbəb olur və yeni imkanlar açır. Yeni çağırışlar onunla bağlıdır ki, dünyanın bəzi fövqəldövlətləri və qüvvələri İlham Əliyevin həm xaricdə, həm də daxildə əldə etdiyi nailiyyətləri və uğurları ilə barışmaq istəmir, cənab Prezidentin müstəqil siyasət yürütmək, qüdrətli dövlət və firavan cəmiyyət qurmaq səylərinə maneələr

törətmək istəyir. Yeni imkanlar isə ölkəmizin davamlı inkişafının təmin edilməsi üçün genişmiqyaslı islahatların aparılmasına, dövlətçiliyimizin daha da gücləndirilməsinə yol açır və bu tədbirlər xalqın etimadını yenidən qazanmaqla həyata keçirilməlidir.

Bu səbəbdən də növbədənkənar Prezident seçkiləri böyük rəmzi xarakter daşıyır və heç bir şübhə yoxdur ki, bu seçkilər İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanımızın yeni inkişaf dövrünün başlanmasını rəsmiləşdirəcəkdir!

**Malik Həsənov.** 2003-cü ildə möhtərəm Prezidentimizin ölkəmizdə siyasi hakimiyyətə gəlməsi ilə dövlət quruculuğunda növbəti mərhələyə qədəm qoyduq, dövlətimizin müstəqilliyinin daha da möhkəmləndirilməsinə nail olduq. İqtisadi, hərbi, mədəni və digər sahələrdə sıçrayışlı yüksəliş əldə etdik.

Müzəffər Ali Baş Komandanımızın öndərliyi ilə ölkəmizin bütün ərazisində suveren hüquqlarımızın bərpa olunmasına nail olmağımız və 200 illik tarixi olan bir problemin əsaslı və geridönməz bir formada həlli tariximizin ən şanlı səhifəsidir. Təbiidir ki, əldə edilmiş uğurların hamısının əsasında Ulu Öndərin həyata keçirdiyi siyasət və miras dayanır. Möhtərəm Prezidentimiz sadiq varis və Vətənin layiqli övladı kimi bu mirası qəbul etdi və böyük siyasi xadim və sərkərdə kimi nəinki bizim, bütün türk dünyasının, öz əməlləri ilə tariximizi yazan əcdadlarımızın yanında müasirimiz kimi tarixə düşdü.

Möhtərəm Prezidentimiz bu gün də öz tarixi missiyasını davam etdirir və növbəti tarixi uğurlarımızın əsasını qoyur. Bu gün gələcək qələbələrimiz sadə baxışla da üfüqdə görünməkdədir. Bu gün ölkəmiz dünyada, xüsusən də Cənubi Qafqazda, Ön və Mərkəzi Asiya bölgəsində həlledici sözə sahib beynəlxalq oyunçular sırasındadır.

Lakin görünən odur ki, bəzi beynəlxalq güclər ölkəmizin sıçrayışlı yüksəlişini qəbul etmir, hər vəchlə bizə mane olmağa, durdurmağa və tənəzzül etməyimizə nail olmağa çalışırlar. Təbiidir ki, biz onların bütün məqsədlərini iflasa uğradacağıq. Çünki ölkəmizdə milli birlik möhkəmdir, sarsılmazdır. Xalq–dövlət, vətəndaş–Prezident həmrəyliyi bizi daha qabağa aparacaqdır. Bu birlik həm Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin özünə inamını artırmaqla yanaşı, növbəti mərhələdə xalqın siyasi dəstəyini qazanmış milli liderə gələcəkdə daha əzmli siyasət yeritməyə geniş imkanlar verəcək, xalqla dövlət başçısı arasında qarşılıqlı inama dayanan dərin etimad mühiti yaradacaq ki, bu da xarici düşmən və rəqiblərimiz qarşısında üstün mövqe əldə etməyimiz üçün imkanlar yaradacaq.

Tariximizdə ilk dəfədir ki, bu seçkilər ölkəmizin bütün ərazisində təşkil ediləcəkdir və bu seçkilər tarixi Zəfərdən sonra baş tutacaq ilk seçkilərdir. Qutu başına gedən hər bir seçicimiz yeni Azərbaycanın gələcəyi naminə qəlbinin səsinə cavab verən şəkildə öz səsini verəcək.

Möhtərəm Prezidentimiz növbəti mərhələdə əldə edilmiş uğurları diplomatik sahədə rəsmiləşdirməyə, ölkəmizin siyasi mühitini daim stabil saxlamağa xidmət edən qərarlar qəbul edir. Bu baxımdan ötən gün ölkəmizin növbədənkənar Prezident seçkilərinə getməsi barədəki qərar tarixi bir gedişdir və mövcud geosiyasi reallıqlardan, yeni çağırışlardan doğan bir qərardır. 2018-ci ildə növbədənkanar seçkilərdə möhtərəm Prezidentimizin qələbəsi, ondan iki il sonra torpaqlarımızın işğaldan azad olunması, abadlıq-quruculuq işlərinin görülməsi Böyük Qayıdışla nəticələndi.

Xalq–Prezident həmrəyliyinin köməyi ilə Vətən mü-

haribəsində qələbə əldə etdiyimiz kimi, fevral ayının 7-də xalqımız yenidən qələbə çalacaq. Bu qələbə müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyevin yenidən növbəti dövr üçün Prezident seçilməsi olacaqdır. Çünki xalqımızın etimad göstərə biləcəyi yeganə şəxsiyyət İlham Əliyevdir.

**Novruzəli Aslanov.** Mən də bildirirəm ki, çox xoş haldır, bu Prezident seçkiləri ilk dəfə bütün ölkə ərazisində keçiriləcəkdir. 44 günlük Vətən müharibəsindəki Zəfərimiz və antiterror tədbirləri nəticəsində Azərbaycan öz suverenliyini tam olaraq təmin etdi. Bu, bütövlükdə, regionumuzda yeni reallıqlar yaratdı.

Möhtərəm Prezidentimiz, müzəffər Ali Baş Komandan İlham Əliyev xalqa verdiyi sözü tam olaraq yerinə yetirdi. Üçrəngli bayrağımızı Xankəndidə, Şuşada, Xocalıda, Laçında, Kəlbəcərdə, Cəbrayılda, Zəngilanda, Füzulidə və digər rayonlarda şərəflə dalğalandırdı.

Növbədənkənar seçkilərin keçirilməsi dünyada qəbul olunmuş siyasi təcrübədir. Seçkilər növbədənkənar keçirildiyindən vətəndaşlarımız siyasi iradələrini, sadəcə olaraq, vaxtından əvvəl ifadə edəcəklər. Bu seçkilər Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin özünə inamının, xalqın siyasi dəstəyinə əminliyinin ən bariz göstəricisidir. Prezident İlham Əliyev bu günə qədər dediyi hər məsələni uğurla həyata keçirib. Regionda tam müstəqil bir ölkə kimi Azərbaycanın qələbəsini həzm edə bilməyən dövlətlərin təxribatlarının qarşısını almaq üçün siyasi sistemin daha da gücləndirilməsinə ehtiyac var.

Bu ədalətli seçki şəraitində bütün namizədlər bərabər hüquqa malikdirlər. Hər dəfə olduğu kimi, namizədlərin hamısına seçkiqabağı fəaliyyət üçün bərabər şərait yaradılır, təşviqat aparmaları üçün mediadan bərabər istifadə şərtləri müəyyənləşdirilir. Seçkilərdə iştirak etmək üçün

dövlət qeydiyyatına alınmış bütün siyasi partiyalara bərabər imkan yaradılıb. Bu yanaşma ölkədə ədalətli rəqabət mühitinin təmin edildiyinin bariz nümunəsidir.

**Sadiq Qurbanov.** Xalqımız ona tarixi Zəfər qazandıran Prezidentini bu seçkidə də fəal şəkildə dəstəkləyəcək! Məlum olduğu kimi, Azərbaycanda növbədənkənar Prezident seçkiləri elan edilib. Prezident İlham Əliyev dekabrın 7-də bununla bağlı sərəncam imzalayıb. Sərəncamda Mərkəzi Seçki Komissiyasına növbədənkənar Prezident seçkilərinin 2024-cü il fevralın 7-nə təyin olunmasını və Azərbaycan Respublikasının Seçki Məcəlləsində müəyyən edilmiş qaydada keçirilməsini təmin etmək tapşırılıb. Gələn ilin fevralın 7-nə təyin olunan növbədənkənar Prezident seçkilərini zəfər seçkisi də adlandırmaq mümkündür. Belə ki, Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində Azərbaycan ərazi bütövlüyünü və bütün ərazisində suverenliyini tam bərpa etmiş halda seçki marafonuna başlayacaq. Müstəqillik tariximizdə bu, ilk dəfə olacaq. Prezident seçkiləri ölkəmizin bütün ərazisində, o cümlədən azad olunmuş ərazilərimizdə keçiriləcək. Biz bu uğura müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində nail olmuşuq.

44 günlük Vətən müharibəsində düşməni tam kapitulyasiyaya uğradaq ərazi bütövlüyümüzü bərpa etdik. Bu ilin sentyabr ayında bir sutkadan da az müddət ərzində keçirilən antiterror tədbirləri nəticəsində bütün ərazilərimizdə suverenliyimiz tam bərqərar oldu. Separatizm kitabı birdəfəlik bağlandı. Bununla da Azərbaycan həm ölkəmizdə, həm də regionda yeni reallıqlar yaradıb. Bu reallıq fonunda növbədənkənar Prezident seçkilərinin təyin olunması tarixi Zəfər qazanan ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin təsbitidir.

Növbədənkənar seçkilərin keçirilməsində qeyri-adi heç nə yoxdur və dünyanın siyasi praktikasında qəbul olunmuş siyasi təcrübədir. Bununla bağlı saysız-hesabsız faktlar sadalamaq mümkündür. Seçkilərin müəyyən səbəblərdən təxirə salınması və ya növbədənkənar keçirilməsi normal siyasi praktikadır. Məsələn, bu gün müharibənin davam etdiyi Ukraynada hərbi vəziyyətlə bağlı seçkilər təxirə salınıb. Bəzi hallarda isə seçki vaxtından əvvəl keçirilir və bu fakt vətəndaşların demokratik qaydada siyasi iradəsini göstərməsinə heç bir problem yaratmır. Azərbaycanda da seçkilər növbədənkənar keçiriləcək və vətəndaşlarımız siyasi iradələrini, sadəcə olaraq, vaxtından əvvəl ifadə edəcəklər.

Növbədənkənar Prezident seçkilərinin təyin edilməsi Prezident İlham Əliyevin özünə inamının göstəricisidir. Qalib xalqın qalib Prezidenti xalqın ona olan dəstəyindən əmindir. Xalqımıza tarixi Zəfər qazandıran, Şuşada, Xankəndidə, Ağdərədə, Xocalıda, Kəlbəcərdə, Ağdamda, Füzulidə, Zəngilanda, Cəbrayılda üçrəngli bayrağımızı ucaltmaqla 30 illik torpaq həsrətinə son qoyan müzəffər Ali Baş Komandana xalqımızın sevgisi, dəstəyi hədsizdir. Bu gün öz doğma yurd-yuvalarına qayıdan insanların gözlərindəki sevinc Ali Baş Komandana xalq məhəbbətinin ən təbii göstəricisidir. Ölkəmizin digər bölgələrində olduğu kimi, azad olunmuş ərazilərdə də həyata keçirilən abadlıq-quruculuq işləri, artıq start verilən Böyük Qayıdış proqramı Prezident İlham Əliyevin strateji hədəflərə doğru inamla addımladığının təsdiqidir. Xalqımız ona tarixi Zəfər qazandıran Prezidentini bu seçkidə də, təbii ki, fəal şəkildə dəstəkləyəcək, Ali Baş Komandanın gücünə güc qatacaq.

Hər seçkidə olduğu kimi, bu dəfə də bütün siyasi

qüvvələrə bərabər imkan yaradılacaq. Seçki Məcəlləsinə uyğun olaraq da bütün namizədlər bərabər hüquqa malikdirlər və bərabər öhdəliklər daşıyırlar, namizədlərin hamısına seçkiqabağı fəaliyyət üçün bərabər şərait təmin edilir, o cümlədən təşviqat aparılması üçün mediadan bərabər istifadə şərtləri müəyyənləşdirilir. Ədalətli seçki şəraiti tam olaraq təmin edilib. Bir məqamı da vurğulayım ki, ölkəmizdə siyasi partiyaların üzvlərinin reyestrlərinin dövlət qeydiyyatına alınması prosesi yekunlaşıb. Növbədənkənar seçkilər bu prosesin yekunlaşmasından sonra reallaşdırılır. Bu fakt da təsdiq edir ki, bütün tərəflərə bərabər şərait yaradılır və ədalətli mübarizə aparmaq imkanı təmin edilir. Bu isə siyasi qüvvələr üçün çox nadir fürsətdir. Potensialı olan istənilən siyasi qüvvə ədalətli seçki mühitinin təmin edildiyi prosesdə iştirak etməkdə maraqlı olmalıdır. Bunun əksinə mövqe ortaya qoyanlar birmənalı şəkildə qərəzlidir və bununla minimum sayda elektorat potensialına malik olduqlarını təsdiqləyirlər. Əgər özlərinin iddia etdiyi kimi, böyük potensialları və xalqdan dəstəkləri varsa, seçki prosesində iştirak etməkdə maraqlı olmalıdırlar. Bu onlara iddialarını isbat etmək üçün əla imkandır. Normal siyasi mübarizədə çəkinib qərəzçilik edənlər, əslində, bununla məğlub olacaqlarını etiraf etmiş olurlar. Cəmiyyətimiz həmin radikalların heç bir dəstəyinin olmadığını, xalqla onların arasında dərin uçurum olduğunu yaxşı bilir. Elə həmin qüvvələrin özləri də xalqın nəzərində etibarlarını çoxdan itirdiklərini və məğlubiyyətə məhkum olduqlarını yaxşı bilirlər.

# MÜNDƏRİCAT

5 dekabr 2023-cü il ............................................................. 3
8 dekabr 2023-cü il ............................................................. 112
Edilməmiş çıxışların mətnləri............................................. 231

Altıncı çağırış

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİ İCLASLARININ

PROTOKOLLARI
VƏ
STENOQRAMLARI

On dördüncü sessiya
Payız

57-ci cild

5 – 8 dekabr 2023-cü il

Buraxılışına məsul
***H. Babayev***

Azərbaycan Respublikasi Milli Məclisinin mətbəəsi.
Bakı, Azad Mirzəyev küçəsi, 235.
Format 60x84 1/16. Çap vərəqi  15,0. Sifariş 48. Tiraj 150.